

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 noyabr 2023-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU Ankara Universitetində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fotosərgi təşkil edib**
→Səh.2

**Polşa universitetlərinin nümayəndələri BDU-da**
→Səh.2

**BDU-nun nümayəndə heyəti Ankarada Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib**
→Səh.5

**"Heydər Əliyev ideyaları: bütöv Azərbaycan və dayanıqlı inkişaf" mövzusunda Respublika elmi-praktik konfransı keçirilib**
→Səh.8

**Tatarıstanın təhsil və elm naziri BDU-da**
→Səh.11

**BDU-da "Fizikada müasir trendlər" mövzusunda 8-ci Beynəlxalq elmi konfrans keçirilir**
→Səh.13

**BDU-da Doktorant və gənc tədqiqatçıların XXVI Respublika elmi konfransının açılışı olub**
→Səh.14



**BDU, "LU-MUN Holding", "Bayramlı Group", "Letgen Biotechnology" və İzmir Yüksək Texnologiya İnstitutunun ortaq layihəsi davam edir**
→Səh.2



**Prezident təqaüdünə layiq görülmüş BDU tələbələri ilə görüş**
→Səh.2



**BDU-da "Zəfər tarixi" lektoriyası açılıb**
→Səh.3



**SOCAR prezidentinin müşaviri BDU-da "Heydər Əliyev və Azərbaycanın yeni neft strategiyası" mövzusunda mühazirə deyib**
→Səh.6



**"BDU könüllüləri" təşkilatının "Lin-Orph" musiqi klubunun Zəfər Gününə həsr olunmuş konsert proqramı**
→Səh.24



## BDU-da Zəfər Günü təntənəli şəkildə qeyd olunub

***Noyabrın 7-də Bakı Dövlət Universitetində 8 Noyabr - Zəfər Günü münasibətilə tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, 2020-ci il sentyabrın 27-də mənfur erməni qəsbkarlarının növbəti hərbi təcavüzünə cavab olaraq Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə başlayan əks-hücum əməliyyatları 30 ildir yağı tapdağında olan ərazilərimizin azadlığı uğrunda ölüm-dirim savaşına çevrildi: “Vətən müharibəsinin ilk anlarından Müzəffər Ali Baş Komandanımızın verdiyi müdrik və cəsarətli qərarlar sayəsində düşmənin müdafiə xətti yarıldı. İldırımsürətli müharibə planı ilə hərəkət edən peşəkar, cəsur Azərbaycan ordusu döyüşlərin başladığı ilk gündə strateji Murov zirvəsində, Füzulidə, Cəbrayılda, sonrakı günlərdə isə Suqovuşanda, Hadrutda, Xocavənddə, Zəngilanda, Qubadlıda üçrəngli bayrağımızı ucaltdı. Noyabrın 8-də Qarabağın ürəyi Şuşanın, cəmi bir gün sonra isə 72 yaşayış məntəqəsi və 8 strateji yüksəkliyin azad olunması ilə düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu. Bununla da Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü təmin olundu, 30 illik müharibə ölkəmizin parlaq qələbəsi ilə başa çatdı. Və nəhayət, bu ilin sentyabrında heç 24 saat belə çəkməyən lokal antiterror əməliyyatı ilə düşmənin silahlı dəstələri və separatçı rejimin qalıntıları tamamilə darmadağın edildi. Oktyabrın 15-də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən əzəli torpaqlarımız olan Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəranda üçrəngli bayrağımız əbədi ucaldıldı və suverenliyimiz bərpa olundu. Adı dünya hərb tarixinə qızıl hərflərlə yazılan Müzəffər Ordumuz 44 günlük Vətən Müharibəsi ilə bütün dünyaya cəsarətli və ədalətli müharibə aparmağın örnəyini göstərdi, heç bir halda mülki əhalini hədəf seçmədiyini nümayiş etdirdi”.

Rektor vurğulayıb ki, bu müddət ərzində Azərbaycan Respublikasının Prezidenti diplomatiya cəbhəsində də mübarizə apardı, ölkəmizə olan təzyiqlərə, təsirlərə qarşı özünün siyasi iradəsini, əzmkarlığını nümayiş etdirdi: “Ön cəbhədə olduğu kimi, diplomatik cəbhədə də bütün şərtləri qüdrətli Azərbaycan dövləti diktə etdi. Məhz bu hərbi-siyasi mübarizənin nəticəsində regionda yeni düzən, fərqli geostrateji şərait yarandı. Azərbaycanın bugünkü nailiyyətlərinin, şanlı Qələbəmizin təməlində əsası 1993-cü ildə Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş sarsılmaz xalq-iqtidar birliyi dayanır”.

*(Ardı 3-cü səhifədə)*

## BDU-da ilk dərs günündən 104 il keçir

→Səh.12

# BDU, “LU-MUN Holding”, “Bayramlı Group”, “Letgen Biotechnology” və İzmir Yüksək Texnologiya İnstitutunun ortaq layihəsi davam edir



*Universitet-özəl sənaye sektorunun işbirliyi modeli çərçivəsində BDU-nun “LU-MUN Holding”, “Bayramlı Group”, Türkiyənin “Letgen Biotechnology” şirkəti və İzmir Yüksək Texnologiya İnstitutu ilə birlikdə “Azərbaycana xas nərəkimilərin genom analizlərinin, identifikasiyasının həyata keçirilməsi və pasportlaşdırılması” ortaq layihəsi davam edir.*

Layihə çərçivəsində Neftçalada “Azerbaijan Fish Farm” MMC-nin idarə etdiyi Yenikənd Nərə Balıqçılıq Təsərrüfatından götürülən müvafiq nümunələr üzərində yeni nəsil sekvensləmə metodu ilə genom analizləri həyata keçirilir və bunun əsasında ilk dəfə Azərbaycana xas olan müəyyən morfoloji dəyişiklikli nərə balıqlarının genetik identifikasiyasının yaradılması planlaşdırılır.

Bu münasibətlə BDU, “LU-MUN Holding”, “Letgen Biotechnology” və “Bayramlı Group” nümayəndələri arasında görülən işlərin müzakirəsinə dair görüş keçirilib.

Görüş zamanı bu günədək aparılan eksperimentlərin yol xəritəsi, alınan nəticələr və növbəti addımlar müzakirə edilib. Eyni zamanda Xəzər dənizində yaşayan “Caspian salmon” balıqları üzərində aparılan genetik analizlərin də ilkin nəticələri təhlil olunub.

Layihə çərçivəsində BDU-nun Biologiya fakültəsinin magistrantlarının elmi işlərinin bir qismi sənayedən gələn sifarişlər əsasında ortaq hazırlanacaq, “LU-MUN Holding”in müəssisələrində həyata keçiriləcəkdir. Aparılan eksperimentlər BDU və “LU-MUN Holding” tərəfindən maliyyələşdiriləcəkdir.

Bununla bərabər, görüşdə beynəlxalq mütəxəssislər tərəfindən akvakultura sahəsində ustad dərslərinin, BDU və “LU-MUN Holding”in birgə konfransının və elmi-praktiki dərslərin həyata keçirilməsi də razılaşdırılıb.

# Prezident təqaüdünə layiq görülmüş BDU tələbələri ilə görüş

*Noyabrın 3-də BDU-nun rektoru Elçin Babayev 2023-2024-cü tədris ilində Prezident təqaüdünə layiq görülmüş BDU tələbələri ilə görüşüb.*

Rektor tələbələri BDU tələbəsi adını qazanmaqları və qəbul imtahanlarında topladıqları yüksək nəticələrə görə Prezident təqaüdünə layiq görülmələri münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb: “Prezident təqaüdünə layiq görülən 102 nəfərdən biri olmaq böyük qürurdur. Sizin bu adı şərəflə daşıyacağınıza, yaxşı təhsil alacağınıza, xalqımıza, dövlətimizə layiq, peşəkar mütəxəssislər kimi yetişəcəyinizə əminəm”.



Rektor Elçin Babayev Universitetin məzunlarının ölkəmizi dünyada layiqincə təmsil etdiklərini, BDU-nun ən böyük məzununun Ümummilli Liderimiz Heydər Əliyev olduğunu bildirib. O, tələbələrə tək tədrisdə deyil, BDU-nun sosial və ictimai həyatında da aktiv iştirak etməyi tövsiyə edib.

# Polşa universitetlərinin nümayəndələri BDU-da

*Noyabrın 6-da Polşadan olan akademik nümayəndə heyəti BDU-da olub.*

Görüşdə Polşanın Perspektiv Təhsil Fondu, Mariya Skladovskaya Küri Universiteti, Yagellon Universiteti, Sileziya Texnologiya Universiteti, Krakov İqtisad Universiteti, Krakov Texnologiya Universiteti və Qdansk Universitetindən nümayəndələr iştirak ediblər.



BDU rektoru Elçin Babayev nümayəndə heyətinə Universitetin tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri ilə bağlı məlumat verib, Polşa ali məktəbləri ilə əməkdaşlıq münasibətlərinin inkişaf etdirilərək yeni müstəviyə keçirilməsinin vacibliyini vurğulayıb. Rektor BDU ilə Polşa Universitetləri arasında maraq doğuran istiqamətlər üzrə ikili diplom proqramlarının qurulması, akademik, inzibati heyətin və tələbə mübadiləsinin artırılmasının əhəmiyyətinə də toxunub. Elçin Babayev eyni zamanda ortaq mədəni tədbirlərin, forumların, elmi konfransların keçirilməsinin, birgə elmi qrantlara müraciət edilməsinin vacibliyini qeyd edib.

Polşa universitetlərinin nümayəndələri BDU ilə əlaqələrin inkişafında və qeyd olunan istiqamətlərdə əməkdaşlıqda maraqlı olduqlarını bildiriblər.

# BDU Ankara Universitetində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fotosərgi təşkil edib



*Noyabrın 13-də Türkiyənin Ankara şəhərində BDU və Ankara Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və Türkiyə Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunmuş “Bir millət, iki dövlət” adlı Beynəlxalq elmi konfrans keçirilib.*

Konfrans çərçivəsində BDU tərəfindən Ankara Universitetinin foyesində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərgi təşkil olunub.

Ümummilli Lider Heydər Əliyevin mənalı həyatının, zəngin dövlətçilik fəaliyyətinin anlarını əks etdirən fotosərgini bu gün yüzlərlə müəllim və tələbə ziyarət edib.

# BDU Türkiyənin Tokat Qaziosmanpaşa Universiteti ilə “Erasmus” mübadilə protokolu imzalayıb

*Noyabrın 3-də BDU ilə Türkiyənin Tokat Qaziosmanpaşa Universiteti arasında “Erasmus” mübadilə protokolu imzalanıb.*

Protokolu BDU-nun rektoru Elçin Babayev və Türkiyənin Tokat Qaziosmanpaşa Universitetinin rektoru Fatih Yılmaz imzalayıb. Protokol çərçivəsində təhsilalanların, tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Əsası 1992-ci ildə qoyulmuş Tokat Qaziosmanpaşa Universiteti Türkiyənin nüfuzlu universitetlərindən biridir. 35000 tələbənin təhsil aldığı Tokat Qaziosmanpaşa Universitetində 17 fakültə, 13 peşə məktəbi, bir institut fəaliyyət göstərir.

# BDU Türkiyənin Orta Doğu Texniki Universiteti ilə “Erasmus” mübadilə protokolu imzalayıb

*Noyabrın 4-də BDU və Türkiyənin Orta Doğu Texniki Universiteti arasında “Erasmus” mübadilə protokolu imzalanıb.*

Protokolu BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov və Türkiyənin Orta Doğu Texniki Universitetinin “Erasmus” koordinatoru Qaye Teksöz imzalayıb.

Protokol BDU ilə Orta Doğu Texniki Universiteti arasında əlaqələrin genişləndirilməsini, təhsilalanlar, tədqiqatçılar və akademik heyətin mübadiləsini nəzərdə tutur.

Əsası 1956-cı ildə qoyulmuş Orta Doğu Texniki Universiteti Türkiyənin nüfuzlu universitetlərindən biridir. 28000-dən çox tələbənin təhsil aldığı universitetdə 5 fakültə, 5 peşə məktəbi və 5 beş institut fəaliyyət göstərir.

# BDU-da Zəfər Günü təntənəli şəkildə qeyd olunub

*(əvvəli 1-ci səhifədə)*

Elçin Babayev xatırladıb ki, BDU kollektivi Vətən müharibəsi günlərində həm ön, həm də arxa cəbhədə fədakarlıq göstərib. Universitetin 22 məzun və tələbəsi şəhidlik zirvəsinə ucalıb: “Onların və bütün şəhidlərimizin əziz xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq. Hazırda biz cənnətə çevrilən azad Qarabağımızda və Şərqi Zəngəzurda geniş vüsət alan böyük quruculuq işlərinə şahidlik edirik. Qədirbilən xalqımız torpaqlarımız uğrunda şəhid olan soydaşlarımızı heç zaman unutmayacaq, onların işıqlı və əziz xatirəsini həmişə yaşadacaq”.

Daha sonra Milli Məclisin üzvü, BDU-nun İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyev Zəfər Gününün şərəf, namus, qeyrət bayramı olduğunu qeyd edib. O diqqətə çatdırıb ki, bu qələbə Müzəffər Ali Baş Komandanın qətiyyəti, Ordumuzun əziyyəti və şəhadəti şərəf sayan xalqımızın vəhdəti ilə qazanılıb.






Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutunun rektoru, general-mayor Arif Həsənov Vətən müharibəsinin dünya hərb tarixinə gətirdiyi yeniliklərlə də yaddaşlara yazıldığını vurğulayıb: “Bu qədər qısa zamanda belə böyük ərazinin azad edilməsi dünya müharibə tarixində görünməmiş işdir. Bir neçə rayonun silahsız azad edilməsi, çətin relyefə malik Şuşanın ordumuzun qol gücünə alınması Vətən müharibəsinin misli görünməmiş hərbi əməliyyat olduğunu sübut edir”.

General-mayor Arif Həsənov Vətən müharibəsində qazanılan qələbədə BDU-nun xüsusi xidmətlərinin olduğunu xatırladıb. Qeyd edib ki, Azərbaycan ordusunun sıralarında BDU məzunlarının sayı çoxdur. Onların arasında hətta general rütbəsinə qədər ali hərbi rütbəlilər var. O, BDU-nun vətənpərvərlik ruhunun qaldırılması sahəsində fəaliyyətinin də öz bəhrəsini verdiyini deyib.

Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutunun ümumi işlər üzrə prorektoru, polkovnik, Vətən Müharibəsi Qəhrəmanı Nizami Mövlanov, BDU-nun Politologiya və sosiologiya kafedrasının dosenti Mehman Həsənov, Xüsusi Təyinatlı Qüvvələrin polkovnik-leytenantı, Vətən müharibəsi qəhrəmanı Ramiz Cəfərovun övladı, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin III kurs tələbəsi Rəbiqə Salayeva, Geologiya fakültəsinin II kurs tələbəsi, Vətən Müharibəsi qəhrəmanı Musa Abbasov çıxışlarında Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın qətiyyəti, xalqımızın sarsılmaz birliyi və əsgərlərimizin qəhrəmanlığı sayəsində əldə etdiyimiz Zəfərə gedən yoldan, əsgərlərimizin şücaətindən, Azərbaycan dövlətinin şəhid ailələrinə və müharibə iştirakçılarına diqqət və qayğısından qürurla bəhs ediblər.

Tədbir BDU-nun Mədəniyyət Yaradıcılıq Mərkəzinin hazırladığı ədəbi-bədii proqramla davam edib.

# BDU-da "Zəfər tarixi" lektoriyası açılıb

***Noyabrın 7-də BDU-da "Zəfər tarixi" lektoriyası açılıb.***

Açılışdan əvvəl BDU-nun həyətində hərbi orkestrin ifasında marşlar səsləndirilib. Marş sədaları altında Azərbaycan bayrağı ilə yürüş edilib.

Lektoriyanın açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, "Zəfər tarixi" lektoriyasının açılması şanlı Qələbə tariximizin öyrənilməsi baxımından xüsusi önəm daşıyır və 8 Noyabr - Zəfər Gününə ən böyük töhfələrdən biridir. Azərbaycanın tarixi və qürurlu günlər yaşadığını bildirən rektor vurğulayıb ki, bu şanlı tarixin hər bir anının öyrənilməsi, gələcək nəsillərə çatdırılması ali təhsil müəssisələrinin əsas vəzifələrindən biridir.



Lektoriyanın mərkəzində Zəfərimizin memarı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsi günlərində fəaliyyətini, çıxışlarını, Birinci vitse-prezident Mehriban Əliyeva ilə birgə Qarabağa səfərlərini əks etdirən tablo və eksponatlar yer alıb. Lektoriyanın sol tərəfi Vətən müharibəsinin gedişini, Azərbaycanın hərbi və informasiya cəbhəsində uğurlarını əks etdirir, sağ tərəfdə isə Qarabağda aparılan genişmiqyaslı tikinti-quruculuq işləri, burada həyata keçirilən beynəlxalq tədbirlərlə bağlı məqamlar işıqlandırılır. Lektoriyanın eksponatları sırasında BDU-nun Vətən müharibəsi günlərində fəaliyyətini əks etdirən və şanlı Zəfərimizə həsr olunmuş nəşrlər də yer alır. Rektor qeyd edib ki, “Zəfər tarixi” lektoriyasında Azərbaycanın tarixi Qələbəsi ilə bağlı ustad dərsləri, mühazirələr, tədbirlər keçiriləcək, bu istiqamətdə aparılan elmi tədqiqatlar təqdim olunacaq.

Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutunun rektoru, general-mayor Arif Həsənov “Zəfər tarixi” lektoriyasının açılmasının gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində xüsusi rola malik olacağını vurğulayıb. Qeyd edib ki, lektoriya müstəqil Azərbaycan dövlətinin, Ordusunun qəhrəmanlıq tarixinin öyrənilməsi sahəsində əsas təbliğat mərkəzlərindən birinə çevriləcək.

Açılış mərasiminin sonunda BDU-nun Şərqşünaslıq fakültəsinin ərəb dili müəllimi Mais Ağaverdiyev ərəb dilinə tərcümə etdiyi “Vətən müharibəsi tarixi – şəxsiyyət faktoru” kitabını lektoriyaya hədiyyə edib.

# Tarix fakültəsi və Qərbi Azərbaycan İcması “Zəfər salnaməsinin müəllifi - İlham Əliyev” adlı tədbir keçirib

***Noyabrın 8-də Tarix fakültəsi və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə “Zəfər salnaməsinin müəllifi - İlham Əliyev” adlı tədbir keçirilib.***

Tədbirdə BDU-nun Qərbi Azərbaycan İcmasının nümayəndələri, Tarix fakültəsinin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi anılıb.

BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov Prezident İlham Əliyevin 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olunması üçün beynəlxalq miqyasda və ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdiyini, “güclü dövlət” konsepsiyasını reallaşdırmağa nail olduğunu qeyd edib. Bildirib ki, hərbi əməliyyatların başladığı ilk günlərdən Azərbaycan xalqı öz Prezidentinin ətrafında daha sıx birləşdi. Dövlət-xalq-ordu birliyi nümunəyə çevrildi. Müzəffər Ali Baş Komaandan yalnız döyüşləri idarə etmədi, həm də mənfur qüvvələrin, Azərbaycanın haqq işinə xələl gətirməyə çalışanların təbliğat maşınlarını darmadağın etdi. Xarici KİV-lər vasitəsilə haqq işimizi dünyaya olduğu kimi çatdırdı. Ermənistanın əsl simasını, mənfur xislətini, təcavüzkar siyasətini ifşa edən Ali Baş Komandan həm işğalçıya, həm də onun havadarlarına Vətən müharibəsində məğlubiyyətə düçar olacaqlarının anonsunu da öncədən verirdi. Bu, bizim gücümüzün, qüdrətimizin və inamımızın qələbəsi idi.

Mənbəşünaslıq-tarixşünaslıq kafedrasının müdiri, Milli Məclisin üzvü Anar İsgəndərov zaman ötdükcə böyük Zəfərin nəticələrinin, yaratdığı dəyişikliklərin daha dərindən araşdırılacağını bildirib.

Qərbi Azərbaycan İcmasının nümayəndələri, AMEA-nın Tarix İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov və Prezident kitabxanasının şöbə müdiri Nazim Mustafa son yüz ilin ən böyük qələbəsinin Ali Baş Komandan, Prezident İlham Əliyevin 20 il ərzində apardığı məqsədyönlü və uzaqgörən siyasətin nəticəsi olduğunu bildiriblər.

Sonda tələbələrin ifasında şeirlər səsləndirilib və Zəfər Gününə həsr edilmiş videoçarx nümayiş olunub.

# BDU əməkdaşları Ankara Universitetinin həyətində Ulu Öndər Heydər Əliyevin 2001-ci ildə əkdiyi ağacı ziyarət ediblər

***Noyabrın 13-də Türkiyənin Ankara şəhərində BDU və Ankara Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və Türkiyə Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunmuş "Bir millət, iki dövlət" adlı Beynəlxalq elmi konfrans öz işinə başlayıb.***

Konfransdan öncə Ulu Öndər Heydər Əliyev tərəfindən 2001-ci il martın 16-da Ankara Universitetinin həyətində, Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün heykəlinin yanında əkdiyi ağac ziyarət olunub. Ulu Öndər Heydər Əliyevin Ankara Universitetinin həyətində əkdiyi fidan bu gün uca bir ağaca çevrilib.

Qeyd edək ki, 2020-ci il dekabrın 14-də ağacın yanında xatirə lövhəsinin açılışı olub. Lövhənin üzərində ağacın əkilmə tarixi və həmin anları xatırladan foto həkk olunub.

# Böyük siyasətin Zəfər zirvəsi

***Azərbaycanın Vətən müharibəsindəki qələbəsi xalqımızın tarixinin ən parlaq səhifəsidir. Bu qələbə Ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin şərəflə davam etdirdiyi böyük siyasətin məntiqi nəticəsidir.***

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etsə də daxili və xarici təsirlər ölkənin inkişafına, müstəqil dövlətin beynəlxalq münasibətlər sisteminə daxil olmasına ciddi maneələr yaradırdı. Ölkədə xalqın maraqlarını ifadə edən, insanları ətrafında birləşdirən və gələcəyə inandıran mərkəzi hakimiyyət yox idi. Mövcud hakimiyyətlə xalq arasındakı uçurum gündən-günə dərinləşirdi.

Ermənistan və onun havadarları bundan hiyləgərliklə istifadə edir, əzəli torpaqlarımızın – Qarabağın və ətraf rayonların işğalını istədiyi kimi həyata keçirirdi. Təcavüzkar ölkə bir tərəfdən hər vəchlə Azərbaycanın güclənməsinə qarşı olan güc mərkəzlərinin və dövlətlərin hərtərəfli dəstəyini alır, digər tərəfdən isə erməni diasporasının geniş imkanlarından istifadə edirdi.

Bütün bunların fonunda ölkədə mərkəzi hakimiyyətin zəifliyi, silahlı qüvvələrin vahid komandanlıq altında olmaması, xarici izolyasiya, beynəlxalq tərəfdaşların və müttəfiqlərinin olmaması Azərbaycanın vəziyyətini daha da ağırlaşdırırdı. Bizim haqq işimizi isə yalnız qardaş Türkiyə dəstəkləyirdi. Amma Türkiyənin də həmin dövrlərdəki problemləri, xüsusilə PKK terror təşkilatı ilə apardığı mübarizə bu dəstəyin tam gücü ilə ifadəsinə mane olurdu. Buna baxmayaraq, Türkiyənin Azərbaycana verdiyi diplomatik dəstək, ən mühümü Ermənistanla sərhədlərini bağlaması düşmənə təsirli zərbə oldu.

Ermənistan xarici dəstək və cəzasızlıq mühitində getdikcə təcavüzkarlığı və əsassız iddialarını artırırdı. Belə bir şəraitdə Azərbaycanın güclü bir siyasi liderə, daha doğrusu, xilaskara ehtiyacı yaranmışdı. Bu xilaskarlıq missiyasını isə yalnız Ümummilli lider, Naxçıvanda müstəqil dövlətçiliyin özüllərini yaradan Heydər Əliyev həyata keçirə bilərdi.

1993-cü ilin iyununda ölkədə kəskin hərbi-siyasi böhran yaşananda xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə gələn dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev bütün potensialını ortaya qoyaraq ölkəni böhrandan çıxarmaq və tərəqqi yolu ilə irəli aparmaq üçün tarixi xilaskarlıq missiyasını gerçəkləşdirməyə başladı. Ulu öndər Heydər Əliyev zəngin təcrübəsindən və ilk növbədə, siyasi dühasından, Tanrının bəxş etdiyi fenomenal bacarıqlarından istifadə edərək Azərbaycanın dirçəlməsi, güclənməsi naminə strateji planlarını ustalıqla, məharətlə



gerçəkləşdirməyə başladı.

Bu məqamda onu da vurğulamaq lazımdır ki, bütünlüklə müasir Azərbaycanın, eləcə də ordumuzun, elm və təhsilimizin, sənaye sahələrinin möhkəm təməlləri hələ sovet dövründə, məhz Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdu. Həmin dövrdə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılması üçün respublika rəhbəri Heydər Əliyev gərgin mübarizə aparmış, bu ali məqsədinə özünün sarsılmaz iradəsi sayəsində nail ola bilmişdir. Məhz həmin məktəbin məzunları sonralar Azərbaycan Ordusunun zabit heyətinin əsasını təşkil etdilər, Birinci Qarabağ müharibəsində və tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində döyüşçüləri qələbəyə aparmaqda həlledici rol oynadılar.

Hakimiyyətə qayıtdıqdan sonra vahid ordu quruculuğu siyasətini uğurla həyata keçirən Ümummilli lider müasir güclü və qalib Azərbaycan Ordusunun sarsılmaz təməllərini formalaşdırdı. Prezident Heydər Əliyevin inkişafımızın iqtisadi təminatı rolunu oynayan neft strategiyası isə Azərbaycan iqtisadiyyatının tərəqqisində bünövrə, məhək daşı oldu. İqtisadiyyatımızın güclənməsi, maliyyə imkanlarımızın artması hərbi mütəxəssislərimizin daha yaxşı təhsil alması, ordumuzun maddi-texniki bazasının gücləndirilməsinə, silahlı qüvvələrin ən müasir silahlarla təmin olunmasına böyük imkanlar yaratdı. Məhz Ulu öndərin titanik səyləri nəticəsində silahlı qüvvələrimiz əks-hücum əməliyyatları ilə Ermənistan quldur birləşmələrini məğlubiyyətə uğratdı və qarşı tərəf atəşkəs sazişini imzalamağa məcbur edildi.

Xalqına və Azərbaycan Ordusuna güvənən dövlət başçısı Heydər Əliyev bütün çıxışlarında bildirirdi ki, biz nəyin bahasına olursa-olsun, öz tarixi torpaqlarımıza qayıdacağıq. Onun bu çıxışları xalqda gələcəyə böyük inam formalaşdırır, bütün çətinliklərə rəğmən tarixi qələbənin əvvəlaxır gerçəkləşəcəyinə möhkəm zəmin yaradırdı. Bu siyasəti peşəkarlıqla, inamla, səbir və təmkinlə davam və inkişaf etdirən Prezident, Ali Baş Komandan İlham Əliyev illərlə arzusunda olduğumuz tarixi qələbəyə imza atdı, Ulu öndərin Ata vəsiyyətini şərəflə yerinə yetirdi.

Prezident İlham Əliyevin ölkəmizin rifahı üçün neft-qaz amilindən istifadə etməsi, müdrik və gələcəyə hesablanan geosiyasi gedişləri, balanslı siyasət yürütməsi Azərbaycanın hərtərəfli qüdrətlənməsini şərtləndirdi. Azərbaycan əldə etdiyi gəlirlərlə ordusunu müasir silahlarla təmin etdi, eyni zamanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində mühüm addımlar atdı. Bütün bunlar qələbəyə gedən yolumuzu günbəgün yaxınlaşdırdı.

Azərbaycanın düşmən üzərində tarixi qələbəsində, əlbəttə, qardaş Türkiyə ilə dostluq, qardaşlıq münasibətlərinin ən yüksək səviyyəyə çatdırılması, Prezident İlham Əliyevlə Prezident Rəcəb Tayyib Ərdoğanın səyləri ilə dövlətlərarası müttəfiqlik münasibətlərinin dayanmadan inkişaf etdirilməsi mühüm rol oynadı. Xüsusilə, Qarabağın xilası uğrunda Vətən müharibəsi günlərində qardaş Türkiyənin ölkəmizə verdiyi mənəvi-siyasi dəstəyi xalqımız hər zaman sonsuz ehtiramla, minnətdarlıqla xatırlayacaqdır.

Azərbaycan Ordusunun Türkiyə təcrübəsi əsasında müasir strandartlarla formalaşdırılması, zabitlərimizin Türkiyə hərbi məktəblərində təhsil alması silahlı qüvvələrimizə yeni anlayışlar, döyüş taktikası, innovativ yanaşmalar gətirdi. “Bayraktar” PUA-larının ordumuzun arsenalına daxil edilməsi silahlı qüvvələrimizin imkanlarını daha da gücləndirdi.

Vətən müharibəsi günlərində Prezident İlham Əliyevin Türkiyə mediası vasitəsi ilə dünyaya xitab etməsi isə informasiya blokadasının yarılmasında önəmli rol oynadı, Azərbaycanın haqq səsinin, ədalətli mövqeyinin yüksək səslə bəyan edilməsinə şərait yaratdı. Bu tarixi qələbəni qazanmaqda Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu öndər Heydər Əliyevin layiqli siyasi varisi, müdrik rəhbərin təməllərini qoyduğu yolun şərəfli davamçısı olduğunu bir daha sübut etdi.

Müharibənin tarixi qələbə ilə və eyni zamanda, qısa müddətdə bitməsində Prezident İlham Əliyevin müdrikliyə, idraka, mərdlik və cəsarətə söykənən qərarları əsas rol oynadı. Burada region və dünya ölkələri ilə münasibətlərin düzgün idarə edilməsi də xüsusi vurğulanmalıdır. İstər region, istərsə də dünya ölkələrinin, bəzi beynəlxalq təşkilatların Azərbaycana təsir etmək cəhdləri ölkə rəhbəri İlham Əliyevin atdığı kompleks addımlarla məharətlə zərərsizləşdirildi. Azərbaycan sistemli bir fəaliyyətlə özünün haqq etdiyi tarixi qələbəsini gerçəkləşdirdi.

Müharibə zamanı ölkə daxilində informasiya siyasətinin düzgün qurulması da vacib amil kimi diqqətdə saxlanıldı. İnformasiya siyasəti elə peşəkarlıqla idarə edildi ki, insanlarımızın əhval-ruhiyyəsi, qələbə əzmi və ovqatı ən yüksək səviyyəyə çatdırıldı. Bu ovqatdan doğan sarsılmaz xalq–ordu birliyi ön xətdə əsgər və zabitlərimizin cəsurluğunu daha da artırdı.

Müharibə günlərində müzəffər Ali Baş Komandan, yenilməz sərkərdə İlham Əliyevin Azərbaycanın əsgər və zabitlərinin cəbhədəki uğurlarını daim vurğulaması, yaralılarla mütəmadi görüşləri silahlı qüvvələrimizin bütün şəxsi heyətini ruhlandırır, onları inamlı qələbəyə səsləyirdi. Şəhid ailələrinə ali hörmət, qazilərə sonsuz ehtiram ordumuzu daim irəli aparır, xalqın gücü ilə ordunun gücü arasında möcüzəvi bir harmoniya yaradırdı.

Belə bir şəraitdə hər gün cəbhədən xoş xəbərlər gəlir, bir-birinin ardınca yeni ərazilər azad edilir və bütün bunların fonunda Azərbaycanın hərbi qüdrəti ilə yanaşı siyasi mövqeyi də güclənir, bölgədə yalnız və yalnız qalib Azərbaycanın haqlı şərtləri və ədalətli mövqeyi diqtə olunurdu. Düşmən isə bütün bunlardan məyus olur, Ermənistan ordusunda özbaşınalıq, fərarilik idarəolunmaz həddə gəlib çıxırdı.

Azərbaycan Ordusunun sınanmış döyüş taktikası, şəxsi heyət arasındakı ruh yüksəkliyi və təchizat baxımından düşmən-dən dəfələrlə üstün olması tarixi qələbəni hər an yaxınlaşdırırdı. 2016-cı ilin Aprel döyüşləri, 2020-ci ilin İyul döyüşləri ordumuzda və xalqımızda qələbəyə sarsılmaz inam yaratmışdı. Bu inamla silahlanan xalqımız Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağımızı işğaldan azad etdi. Ermənistanın kapitulyasiya aktını imzalamaqdan başqa çarəsi qalmadı.

Müharibədən sonra ermənilərin öz mənfur niyyətlərini davam etdirməsi, sülh danışıqlarından məqsədli şəkildə yayınması, davamlı terror aktları həyata keçirməsi Azərbaycanın bu ilin sentyabr ayında suveren ərazilərimizdə antiterror tədbirləri keçirməsini qaçılmaz etdi. 24 saatdan da az çəkmiş peşəkar antiterror tədbirləri Qarabağda separatçıların son qalıqlarını məhv etdi. Azərbaycan Respublikasının Konstutusiya quruluşu və suveren hüquqlarımız bütün ərazilərimizdə bərpa olundu. Əli Azərbaycan xalqının qanına batmış müharibə cinayətkarları xüsusi xidmət orqanlarımızın əməkdaşları tərəfindən həbs olunaraq Azərbaycanın ədalət mühakiməsinə təslim edildi.

Bu il oktyabrın 15-də Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə, Əsgəranda, Sərsəng su anbarının ərazisində Azərbaycanın Dövlət Bayrağını ucaltması tarixi Qələbəmizin, Zəfərimizin zirvə nöqtəsi oldu.

Artıq Azərbaycanın həyatında yeni bir geosiyasi və eyni zamanda mühüm tarixi bir mərhələ başlamışdır. Bu, Şərqi Zəngəzur dəhlizinin açılması və Qərbi Azərbaycandan olan soydaşlarımızın əzəli yurdlarına qayıdışı mərhələsidir.

Azərbaycanın 2020–2023-cü illər ərzində əldə etdiyi hərbi-siyasi qələbələr nəinki regionda, hətta dünyada bir sıra reallıqların dəyişməsinə gətirib çıxardı. Bu gün Azərbaycan dünya enerji təhlükəsizlik sisteminin önəmli hissələrindən birini təşkil edir. Eyni zamanda Azərbaycan Cənubi Qafqazda ən güclü orduya və iqtisadiyyata malik olan ölkədir.

Tarixi Zəfərlə başa çatan müqədəs Vətən müharibəsi bu gün dünyanın beyin mərkəzlərində, hərbi akademiyalarda araşdırılır, öyrənilir. Azərbaycan Ordusunun qələbəsi, xüsusilə Şuşanın azad edilməsi əməliyyatı dünyanın hərbi məktəblərində tədris olunur.

Azərbaycanın Vətən müharibəsindəki Qələbəsi uzun bir yolun məntiqi nəticəsidir. Bu yolun təməlində Ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu siyasəti dayanır. Ulu öndərin layiqli davamçısı cənab İlham Əliyev möhkəm təməllər üzərində qurulan siyasəti inkişaf etdirərək Azərbaycana bugünkü xoşbəxt günləri bəxş etdi. Əminik ki, Azərbaycanın xoşbəxt günləri, aydın sabahları bundan sonra da davam edəcək, qüdrətli, qalib ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün hədəflərinə çatacaqdır.

***Elçin BABAYEV,***
*Bakı Dövlət Universitetinin rektoru*

*Mənbə: "Xalq qəzeti"*
*11.11.2023*

# BDU-nun rektoru və nümayəndə heyəti Ankara Sosial Elmlər Universitetində olub



***Noyabrın 13-də BDU-nun rektoru Elçin Babayev və nümayəndə heyəti Ankara Sosial Elmlər Universitetində olub.***

BDU nümayəndə heyəti Ankara Sosial Elmlər Universitetinin rektoru Musa Kazım Arıcan və Universitetin professor-müəllim heyəti ilə görüşüb.

Görüşdə BDU və Türkiyənin Ankara Sosial Elmlər Universiteti arasında imzalanan anlaşma memorandumu və "Erasmus+ K171" mübadilə müqaviləsi çərçivəsində görüləcək işlər müzakirə olunub. Nümayəndə heyəti Ankara Sosial Elmlər Universitetinin Sosiokəndini ziyarət edib, təcrübəsini öyrənib. Sosiokəndin rəhbəri Erdal Akdeve qurumun fəaliyyəti ilə bağlı ətraflı təqdimat edib.

Görüşdə BDU-da Ankara Sosial Elmlər Universiteti ilə birgə sosial elmi-tədqiqat layihələrinin aparılması qərara alınıb.

# BDU-nun nümayəndə heyəti Ankarada Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib

***Noyabrın 13-də BDU-nun Türkiyənin paytaxtı Ankara şəhərində səfərdə olan nümayəndə heyəti Heydər Əliyev Parkını ziyarət edib.***

BDU-nun nümayəndə heyəti Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə çələng qoyub.

Qeyd edək ki, Türkiyənin Ankara şəhərində BDU və Ankara Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və Türkiyə Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunmuş "Bir millət, iki dövlət" adlı Beynəlxalq elmi konfrans keçirilir.




# "Bir millət, iki dövlət" adlı Beynəlxalq elmi konfransın panel iclası: "Türk dünyası tarixində Heydər Əliyev"

***Türkiyənin Ankara şəhərində BDU və Ankara Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Bir millət, iki dövlət" adlı Beynəlxalq elmi konfransda "Türk dünyası tarixində Heydər Əliyev" adlı panel iclas keçirilib.***

Tədbirdə çıxış edən Milli Məclisin üzvləri, akademiklər Rafael Hüseynov və Nizami Cəfərov Ulu Öndərin müstəqil Azərbaycanın xilaskarı olduğunu vurğulayıb, ölkəmizin inkişafı istiqamətindəki əvəzsiz xidmətlərindən, tariximizdəki əvəzsiz rolundan söhbət açıblar.

Daha sonra çıxış edən BDU-nun Jurnalistika fakültəsinin dekanı, Azərbaycan Mətbuat Şurasının sədr müavini Vüqar Əliyev Azərbaycan mətbuatının, Azərbaycan-Türkiyə mediasının qarşılıqlı əlaqələrinin inkişafında Ulu Öndərin xidmətlərindən bəhs edib.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev Ulu Öndər Heydər Əliyevin Azərbaycan və Türkiyə əlaqələrinin inkişafında rolundakı və hazırda Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qardaşlıq münasibətlətinin hər iki ölkənin inkişafındakı önəmindən danışıb. Natiq eyni zamanda Milli Məclisin komitə sədri Sadiq Qurbanovun "Zamana sığmayan lider" kitabından bəzi nüansları konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Konfrans BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin solisti Rəqsanə Əsədovanın ifası ilə yekunlaşıb.

# BDU və Ankara Universitetinin birgə təşkilatçılığı ilə "Bir millət, iki dövlət" adlı Beynəlxalq elmi konfransın açılışı

***Noyabrın 13-də Türkiyənin Ankara şəhərində Bakı Dövlət Universiteti (BDU) və Ankara Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Bir millət, iki dövlət" adlı Beynəlxalq elmi konfransın açılışı olub.***

Əvvəlcə Türkiyə və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib. Daha sonra Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda giriş sözü ilə çıxış edən Ankara Universitetinin rektoru Necdet Ünüvar bildirib ki, hər iki ölkənin tarixində 2023-cü il tarixi əhəmiyyət daşıyır. Türkiyə Cümhuriyyətinin yaranmasının 100 ili və Azərbaycanda "Heydər Əliyev İli"nin qeyd olunması tarixi hadisədir. Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrindən bəhs edən rektor qeyd edib ki, məhz Ulu Öndərin xalqın tələbi ilə hakimiyyətə gəlməsindən sonra Türkiyə-Azərbaycan əlaqələrində yeni səhifə açılıb. Hazırda bütün istiqamətlərdə, o cümlədən elm və təhsil sahəsində hər iki ölkə arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf edir.

Necdet Ünüvar 2003-cü ildə səhiyyə nazirinin müşaviri olarkən Azərbaycana səfəri və Ulu Öndər Heydər Əliyevlə görüşü barədə xatirələrini bölüşüb: "Həmin görüşdə Heydər Əliyevin Türkiyəyə olan böyük sevgisinin şahidi olduq. O sevginin nəticəsidir ki, Azərbaycanla Türkiyənin möhkəmlənən qardaşlıq əlaqələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sarsılmaz dostluğu ilə davam etdirilir".

Konfransda çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, həyatının məqsədi, başlıca amalı Azərbaycanın müstəqilliyi, doğma xalqının xoşbəxtliyi olan Ulu Öndər bütün mənalı ömrünü bu məqsədə nail olunmasına sərf edib: "Ümummilli Lider öz soykökünə, milli-mənəvi dəyərlərimizə söykənərək misilsiz xidmətlər göstərib, bu müqəddəs missiyanı uğurla, şərəflə, cəsarət və mərdliklə yerinə yetirib. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Müdrik xalqımız hələ ötən əsrin 70-ci illərindən başlayaraq Ulu Öndər Heydər Əliyevin Azərbaycanın taleyində yeni mərhələnin başlanğıcını qoyduğunu, Azərbaycanın müstəqilliyə gedən yolunun təməllərini formalaşdırdığını çox yaxşı dərk edir. Məhz həmin illərdən başlayaraq Azərbaycan Heydər Əliyevin inanılmaz səyləri ilə sovetlər birliyinin geridə qalmış respublikasından sənayenin inkişaf etdiyi bir ölkəyə çevrildi. Ölkəmiz üçün mürəkkəb bir dövrdə, onun parçalanmaq, bölünmək təhlükəsi ilə üzləşdiyi illərdə Ulu Öndər Heydər Əliyev yenidən xalqımızın nicatı oldu. O, xalqın çağırışı ilə yenidən və bu dəfə daha böyük əzm və inamla Azərbaycana rəhbərliyə qayıdaraq xilaskarlıq missiyasını davam etdirdi. Ulu Öndər tərəfindən tez bir zamanda qüdrətli Azərbaycan dövlətinin inkişaf strategiyası müəyyən edildi. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə ölkəyə rəhbərlik etdiyi 1993-2003-cü illər müstəqil Azərbaycanın tarixinə qızıl dövr kimi yazıldı. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi qəbul olundu. Ölkəyə yatırılan investisiyalar, həyata keçirilən beynəlxalq layihələr, Ulu Öndər Heydər Əliyevin misilsiz neft strategiyası dövlətimizi qüdrətləndirdi. Ölkəmizin beynəlxalq nüfuzu, iqtisadi və hərbi qüdrəti yeni, yüksək mərhələyə qədəm qoydu".

Rektor bildirib ki, 2003-cü ildə xalqımızın birmənalı dəstəyi ilə Prezident seçilən cənab İlham Əliyev ötən illər ərzində sarsılmaz təməlləri Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik siyasətini əzmlə inkişaf etdirərək ölkəmizi dünyanın qüdrətli dövlətlərindən birinə çevirdi. Müqəddəs ata vəsiyyətini, işğal olunmuş ərazilərimizin azad edilməsi ilə bağlı xalqımızın ən ülvi və müqəddəs arzusunu şərəflə yerinə yetirdi, xalqımızın müzəffər xalq olduğunu bütün dünyaya sübut etdi: "Xalqımız Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini ona olan böyük sevgi və ehtiram hissi ilə yanaşı, müzəffər xalq olaraq böyük qürur, fəxarət və möhtərəm Prezidentimiz cənab İlham Əliyevə minnətdarlıq hissləri ilə qarşılayır. Eyni zamanda xalqımız Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Ulu Öndərin tükənməz irsinin tədqiqi və təbliği sahəsindəki əvəzsiz xidmətlərini yüksək qiymətləndirir. Bu gün Ulu Öndərin hər zaman sonsuz diqqət və qayğı ilə yanaşdığı, "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, eyni zamanda "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı BDU-nun kollektivi də bütün xalqımız kimi dahi liderin əziz xatirəsini böyük hörmət və ehtiramla yad edir".

Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova "Heydər Əliyev İli" çərçivəsində Ankarada həyata keçirilən tədbirlərdən bəhs edib, hər iki ölkənin aparıcı ali təhsil müəssisələrinin əməkdaşlıq əlaqələrinin türk dünyasında elm və təhsilin inkişafına öz töhfəsini verdiyini bildirib.

Daha sonra konfrans "Türk dünyası tarixində Heydər Əliyev" adlı panel iclası ilə davam edib.

# SOCAR prezidentinin müşaviri BDU-da "Heydər Əliyev və Azərbaycanın yeni neft strategiyası" mövzusunda mühazirə deyib

*Noyabrın 1-də BDU və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində SOCAR-ın prezidentinin müşaviri Elçin Ağakişiyev tələbələrə "Heydər Əliyev və Azərbaycanın yeni neft strategiyası" mövzusunda mühazirə deyib.*






Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərgi ilə tanış olublar.

Mühazirə Dövlət himninin səsləndirilməsi, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Sonra Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş videoçarx nümayiş olunub.

Giriş sözü ilə çıxış edən BDU-nun rektoru Elçin Babayev Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu neft strategiyasının Azərbaycanın müasir, güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevrilməsi üçün mühüm addım olduğunu bildirib: "Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də Azərbaycanın XX əsr tarixində siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biri - Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş - "Əsrin müqaviləsi" imzalandı. Dəyəri 7,4 milyard dollar olan "Əsrin müqaviləsi" 1994-cü il dekabrın 12-də Azərbaycan parlamentində ratifikasiya olundu. Bu gün Ulu Öndər Heydər Əliyevin yeni neft strategiyasını müasir çağırışlara uyğun davam etdirən Prezident İlham Əliyevin siyasi iradəsi, uzaqgörən siyasəti nəticəsində Azərbaycana daxil olan böyük maliyyə resursları sürətli iqtisadi tərəqqiyə, müasir sosial-iqtisadi və mədəni infrastrukturların yaradılmasına, respublika həyatının bütün sahələrinin yenilənməsinə, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun dinamik inkişafına yönəldilib. Böyük fərəh hissi ilə demək olar ki, məhz bu strategiyanın uğurla həyata keçirilməsi nəticəsində son 20 ildə Azərbaycan misilsiz inkişaf yolu keçib. Bu gün Azərbaycan 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq başlanan 44 günlük Vətən müharibəsindəki tarixi Zəfər işığında öz parlaq gələcəyinə doğru inamla addımlayır".

Rektor tədbirin keçirilməsində yaxından iştirak edən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə öz təşəkkürünü bildirib, bundan sonra da BDU və SOCAR arasında qarşılıqlı əlaqə və əməkdaşlığın inkişaf edəcəyinə inamını ifadə edib.

SOCAR prezidentinin müşaviri Elçin Ağakişiyev "Heydər Əliyev İli"ndə dahi şəxsiyyətin məzunu olduğu BDU-da belə bir tədbirdə iştirakın qürurverici olduğunu qeyd edib: "Ümummilli Lider Heydər Əliyev 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra digər sahələrdə olduğu kimi, neftqaz sənayesində də dərin keyfiyyət dəyişiklikləri baş verdi. Ümumiyyətlə, Azərbaycanın bugünkü neft strategiyasının əsasları məhz ötən əsrin 70-80-ci illərində Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə yaradılıb. Həmin illərdə mütərəqqi neftçıxarma texnikasının tətbiqi, neftayırmada ən müasir texnologiya əsasında yeni emal qurğularının tikilməsi nəticəsində Azərbaycanın neft sənayesi keçmiş SSRİ miqyasında ön mövqeyə çıxdı. Ümummilli Liderin uğurlu neft strategiyasının müstəqillik dövründəki başlanğıc nöqtəsi isə "Əsrin müqaviləsi" ilə qoyuldu. Ulu Öndərin əsasını qoyduğu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik idarəetmə keyfiyyətləri ilə ölkəni uğurla inkişafa aparır. TAP, TANAP, Bakı-Tbilisi-Ceyhan neft-qaz boru kəmərləri layihələrinin bu gün Azərbaycana gətirdiyi gəlirlər insan kapitalının, elmin və təhsilin inkişafına təkan verir".

BDU-nun Qafqaz xalqları tarixi kafedrasının müdiri, professor İradə Hüseynova Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında çalışdığını deyib, xatirələrini tədbir iştirakçıları ilə bölüşüb. O, Ümummilli Liderin əsasını qoyduğu uğurlu neft strategiyasının Azərbaycanın bütün sahələrində olduğu kimi, elm və təhsil sahəsinin də davamlı inkişafını təmin etdiyini, bu siyasətin günümüzdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

# "Azərbaycanda neft sənayesinin inkişafı və ekoloji problemlərin həllində Heydər Əliyevin rolu"

*Noyabrın 1-də Ekologiya və torpaqşünaslıq fakültəsində Ekoloji kimya kafedrasının professoru Qiyas Bayramov tərəfindən "Azərbaycanda neft sənayesinin inkişafında və ekoloji problemlərin həllində Heydər Əliyevin rolu" mövzusunda elmi seminar keçirilib.*

Məruzəçi bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyi illərində digər sənaye sahələrində olduğu kimi, neft sənayesinin inkişafı və ekoloji problemlərin həlli ilə bağlı strateji əhəmiyyətli yeni qurğuların tikintisinə, istismarına nail olunub. 1970-1980-ci illərdə Azərbaycana neft hasilatının inkişafına təkan verən 75 növdə 400-dən çox gəmi gətirilib. Xəzərdə 2500 t gücündə "Azərbaycan" kranı, "Xəzər" tipli özüqalxan, sonralar isə "Şelf" tipli üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yaranıb. Nəticədə 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yatağı kəşf edilib, neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırılıb. 1975-ci ildə neft və qazın ümumi hasilatı 27,1 mln. t-a (şərti yanacaq) çatdırılıb. 80-ci illərdə üzən qazma qurğularının sayının 11-ə çatdırılması nəticəsində indi Azərbaycan neftinin əsas hissəsini təşkil edən, dənizin 80-350 m dərinliyində zəngin neft ehtiyatlarına malik yataqlar ("Günəşli, "Azəri", "Çıraq") kəşf olunub.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ilk dəfə olaraq Azərbaycanda neft emalı üçün xüsusi proqram hazırlanıb və həyata keçirilməyə başlanıb. Həmin proqrama əsasən, yeni texnika və texnologiyaya malik zavodların yaradılması, təzə qurğuların istismara buraxılması bu gün müstəqil Azərbaycanda dünya standartlarına uyğun neft sənayesinin formalaşmasına imkan yaradıb.

Neft emalı sənayesində yeni texnoloji qurğuların tikintisi, quraşdırılması əvvəlki illərə nisbətən neft tullantıları, tərkibində ekotoksikant xüsusiyyətli və digər zərərli maddələr olan istehsalat tullantı sularının Xəzər dənizinə axıdılmasının azaldılmasına səbəb olub, on min tonlarla zərərli qazın atmosferə atılmasının qarşısı alınıb. Ulu Öndərin arzuladığı kimi, "Qara şəhər"in "Ağ şəhərə" çevrilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında son on il ərzində həyata keçirilib. Ulu Öndərin neft strategiyası hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU və İstanbul Texniki Universiteti arasında anlaşma memorandumu və "Erasmus" mübadilə protokolu imzalanıb

*Noyabrın 15-də BDU-nun rektoru Elçin Babayev və nümayəndə heyəti İstanbul Texniki Universitetinə (İTU) səfər edib.*

Səfər zamanı BDU və İTU arasında anlaşma memorandumu və "Erasmus" mübadilə protokolu imzalanıb, İTU ilə tanışlıq baş tutub.

Anlaşma memorandumuna əsasən, qarşılıqlı məqbul olan sahələr çərçivəsində müəllim və tədqiqatçı alimlərin, elmi materialların və məlumatların mübadiləsi, birgə tədqiqat layihələrinin aparılması, ikili diplom proqramlarının həyata keçirilməsi üzrə əməkdaşlıq həyata keçiriləcək.

Görüşdə növbəti ilin fevral ayından BDU və İTU arasında "Erasmus" mübadilə proqramına başlanılması da qərara alınıb.



# BDU-da Kibertəhlükəsizlik laboratoriyası yaradılacaq

*Bakı Dövlət Universitetində Kibertəhlükəsizlik laboratoriyası yaradılacaq.*

Bu barədə BDU və İstanbul Texniki Universiteti (İTU) arasında imzalanan anlaşma memorandumunda nəzərdə tutulub.

İTU-nun kibertəhlükəsizlik sahəsində zəngin təcrübəsindən istifadə edərək BDU-da Kibertəhlükəsizlik laboratoriyasının birgə qurulması planlaşdırılır.

# BDU Mədəniyyət Nazirliyi və Milli Kitabxananın Ulu Öndər Heydər Əliyevə həsr etdiyi konfransda təmsil olunub

***Noyabrın 13-də 9-cu Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda Elmi konfrans və "Heydər Əliyev - 100. Biblioqrafiya" kitabının təqdimat mərasimi keçirilib.***

Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, sonra Ulu Öndərə həsr olunan sənədli film nümayiş etdirilib. Konfransı giriş sözü ilə açan Milli Kitabxananın direktoru professor Kərim Tahirov Ümummilli Lider Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin inkişafına verdiyi misilsiz töhfələrdən danışıb. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova, Milli Məclisin deputatı, professor Anar İsgəndərov, Milli Məclisin deputatı, professor Hikmət Məmmədov çıxışlarında Ulu Öndər Heydər Əliyevin xalqımızın milli-mənəvi dəyərlər sisteminin inkişafındakı tarixi missiyasından bəhs ediblər. Konfransda BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı dosent Ələmdar Cabbarlı "Ulu Öndər Heydər Əliyev və Azərbaycanda kitabxana işi" mövzusunda məruzə edib. O, Ulu Öndər Heydər Əliyevin məzunu olduğu və bununla həmişə fəxr etdiyini vurğulayaraq şöhrətini zirvələrə yüksəltdiyi Bakı Dövlət Universitetini konfransda təmsil etməkdən məmnunluğunu ifadə edib. Bildirib ki, Ulu Öndər Heydər Əliyev misilsiz ictimai-siyasi fəaliyyəti ilə yanaşı, ölkəmizdə elmin, təhsilin, mədəniyyətin inkişafına əvəzsiz töhfələr verib: "Ümummilli Liderimizin hərtərəfli qayğısı ilə əhatə olunan sahələrdən biri də kitabxana-informasiya fəaliyyətidir. Ulu Öndər həm sovet dövründə, həm də müstəqilliyimizin bərpasından sonra ölkəmizdə kitabxana işinin inkişafına daim diqqət və qayğı göstərib. Bu gün isə həmin tarixi missiyanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva uğurla davam və inkişaf etdirirlər".

Məruzədə qeyd olunub ki, Azərbaycan xalqının çoxəsrlik tarixində bəşəriyyətin intellektual zəkasının məhsulu olan, informasiya daşıyıcılarının nəsildən-nəslə ötürülməsi sahəsində zəngin iş təcrübəsinə malik kitabxanalar bu gün də ölkəmizin informasiya məkanında, informasiya cəmiyyətinin arxitekturasında xüsusi yer tuturlar: "Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: "Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir". Bu gün Ulu Öndərimizin müqəddəs yer adlandırdığı, mənəviyyat, bilik, zəka mənbəyi hesab etdiyi kitabxanalarımızı ixtisaslı mütəxəssislərlə təmin etmək və eyni zamanda bu sahədə səmərəli elmi-tədqiqat işləri aparmaq BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin qarşısında prioritet vəzifə kimi dayanır". Məruzədə həmçinin vurğulanıb ki, bu gün kitabxana-informasiya fəaliyyəti sahəsində çalışanların qarşısında duran mühüm vəzifələrdən biri də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş Qarabağımızda dağıdılmış kitabxana infrastrukturunun bərpasında iştirak etməkdir: "Məlumdur ki, erməni vandalları tərəfindən Qarabağda böyük informasiya mərkəzləri məhv edilmiş, miqyası milyonlarla ölçülən sənəd fondları tamamilə yandırılmışdır. Bu resursları idarə edən mütəxəssislər 30 ilə yaxın köçkün həyatı yaşamışdır. Əminik ki, Qarabağımızda aparılan quruculuq işləri kitabxana infrastrukturunu da ən yüksək səviyyədə əhatə edəcək, azad olunmuş ərazilərimizdə modern tipli kitabxanalar yaradılacaqdır".

# "Tarixin Heydər Əliyev zirvəsi" adlı tədbir keçirilib

***Noyabrın 16-da "Heydər Əliyev İli" çərçivəsində BDU-da Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatı və "Z.Xəlilov küç.33" (BDU) ünvanı üzrə ərazi partiya təşkilatı ilə birgə "Tarixin Heydər Əliyev zirvəsi" adlı tədbir keçirilib.***

Tədbirdə YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Milli Məclisin üzvləri - partiyanın Təftiş komissiyasının üzvü Naqif Həmzəyev, Jalə Əliyeva, Biologiya fakültəsinin dekanı Afət Məmmədova, "Z.Xəlilov küç.33" (BDU) ünvanı üzrə ərazi partiya təşkilatının sədri Zahid Cəfərov, professor-müəllim heyəti və tələbələr iştirak edib.

Tədbiri giriş nitqi ilə açan Zahid Cəfərov bildirib ki, Ulu Öndər Heydər Əliyevin xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı səhifələrini təşkil etməkdədir. Millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip kimi qəbul edən Ümummilli Liderimiz bugünkü müstəqil Azərbaycanın memarıdır. Ümummilli Lider bütün mənalı həyatı və şərəfli dövlətçilik fəaliyyəti müddətində yalnız Azərbaycanı düşünüb, onun müasirləşməsinə, qüdrətlənməsinə çalışıb.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi zamanı xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik misilsiz işlər görülüb. Bu gün müasir, müstəqil Azərbaycan Ulu Öndərin ideyaları əsasında inkişaf edir. Ümummilli Liderin əsasını qoyduğu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin şah əsəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində rəşadətli Ordumuzun Qarabağı düşmən tapdağından azad etməsi və regionda yaranan reallıqlardır. Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə Zəfərimizi doğuran siyasi-diplomatik və hərbi kursu uğurla davam etdirmiş, bu ilin sentyabr ayının 19-da start verilmiş antiterror tədbirləri üçün baza formalaşdırmışdı. Azərbaycan lokal antiterror əməliyyatı ilə Qarabağ iqtisadi rayonunda olan separatizm yuvasını darmadağın edərək, suverenliyimizi bərpa etdi. Oktyabrın 15-də isə Xankəndi və digər ərazilərimizdə Müzəffər Ali Baş Komandanın bayrağımızı ucaltması tarixi Zəfərimizin zirvəsi oldu.

Milli Məclisin üzvləri – YAP Təftiş komissiyasının üzvü Naqif Həmzəyev və Jalə Əliyeva çıxışlarında qeyd ediblər ki, Ümummilli Lider milli dövlətçilik ideyalarını hər şeydən üstün tutub. Azərbaycanın dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyinin əbədi, dönməz xarakter alması, iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Ulu Öndərin səmərəli fəaliyyəti sayəsində mümkün olub.

Biologiya fakültəsinin dekanı Afət Məmmədova isə vurğulayıb ki, XX əsrin axırlarında yenidən müstəqillik qazanan Azərbaycan Respublikasının mövcudluğu və dünyanın sürətlə inkişaf edən dövlətlərindən birinə çevrilməsi Ümummilli Liderin tarixi fəaliyyətinin nəticəsidir. Ulu Öndərin alternativi olmayan daxili və xarici siyasəti bu gün onun siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Çıxışlardan sonra rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar təqdim edilib. Tədbirə YAP-ın himninin səsləndirilməsi ilə yekun vurulub.

# Ekoloji kimya kafedrasının müdiri ADPU-da Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş elmi seminarda iştirak edib




***Noyabrın 20-də BDU-nun Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyevanın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Kimya və biologiya fakültəsinin təşəbbüsü ilə təşkil edilən Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş elmi seminarda iştirak edib.*** Nümayəndə heyətini ADPU-nun rektoru, professor Cəfər Cəfərov qəbul edib, Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub.

Professor Sevinc Hacıyeva əvvəlcə Ulu Öndər Heydər Əliyev haqqında xatirələrini bölüşüb, daha sonra isə BDU-nun Ekoloji kimya kafedrasının elmi-tədqiqat fəaliyyəti ilə bağlı məruzə edib. Məruzədə qeyd olunub ki, kafedranın təməli 2001-ci ildə mərhum akademik, görkəmli alim Rəfiqə Əliyeva tərəfindən yeni bir elmi istiqamət kimi əsası qoyulan Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasına dayanır. Bildirilib ki, hazırda kafedra əməkdaşları əsasən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur regionlarında ətraf mühitin vəziyyətinin ekoloji-kimyəvi tədqiqi üzərində çalışırlar. Diqqətə çatdırılıb ki, kafedrada ekoloji kimya üzrə elmlər doktorluğu proqramı üzrə kadr hazırlığı həyata keçirilir.

Sonda BDU-nun Ekoloji kimya kafedrasının nümayəndə heyəti tərəfindən ADPU-nun Kitabxana-İnformasiya Mərkəzinə kafedra əməkdaşlarının ərsəyə gətirdiyi elmi əsərlərdən ibarət kitablar hədiyyə edilib, eyni zamanda ADPU-nun Kimya və biologiya fakültəsi tərəfindən BDU-nun Ekoloji kimya kafedrasına ADPU-nun 100 illiyi ilə əlaqədar yubiley nəşrləri hədiyyə olunub.

# "Ulu Öndər Heydər Əliyev və uşaq hüquqları" mövzusunda tədbir

***Hüquq fakültəsində "Heydər Əliyev İli" çərçivəsində 20 noyabr - Ümumdünya Uşaq Hüquqları Günü münasibətilə "Ulu Öndər Heydər Əliyev və uşaq hüquqları" mövzusunda tədbir keçirilib.***

Hüquq fakültəsinin dekanı Zaur Əliyev Azərbaycanda uşaq siyasətinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib. Ulu Öndərin təşəbbüsü ilə 19 may 1998-ci ildə qəbul edilən "Uşaq hüquqları haqqında" qanun Azərbaycanda uşaqların hüquq və azadlıqlarını, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir. Prezident İlham Əliyevin uğurla davam etdirdiyi bu siyasətin artıq milli strategiya kimi formalaşdığını diqqətə çatdıran dekan "Azərbaycan Respublikasının uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası"nın dövlət uşaq siyasətinin həyata keçirilməsi və uşaqlarının müdafiəsinin kompleks şəkildə təmin edilməsini ehtiva etdiyini bildirib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın uşaq hüquqlarına olan diqqətinin bu sahəyə qayğının daha da artmasına səbəb olduğunu vurğulayan fakültə dekanı Heydər Əliyev Fondunun uşaqların sosial müdafiəsi ilə bağlı çoxsaylı layihələr həyata keçirdiyini diqqətə çatdırıb.

# “Heydər Əliyev ideyaları: bütöv Azərbaycan və dayanıqlı inkişaf” mövzusunda Respublika elmi-praktik konfransı keçirilib

***Noyabrın 23-də Coğrafiya fakültəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev ideyaları: bütöv Azərbaycan və dayanıqlı inkişaf” mövzusunda Respublika elmi-praktik konfransı keçirilib.***

Əvvəlcə konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin BDU-nun əsas tədris binasında yerləşən büstü önünə gül dəstələri qoyublar.

Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Konfransın açılış mərasimində çıxış edən, BDU-nun Coğrafiya fakültənin dekanı, professor Məqsəd Qocamanov bu gün sürətlə inkifaf edən Azərbaycanın dünya ölkələri sırasında əhəmiyyətli yer tutduğunu bildirib: “Bugünkü Azərbaycanın bünövrəsində Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həmin siyasəti uğurla davam etdirməsi dayanır. İllər keçdikcə Ümummilli Liderin böyüklüyü və bitib-tükənməyən irsi, onun Azərbaycan tarixində yeri və rolu, xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərinin mahiyyəti daha dərindən dərk olunacaq”. Məqsəd Qocamanov, həmçinin, bir alimmütəxəssis kimi yetişməsində Ümummilli Lider Heydər Əliyevin verdiyi töhfələrdən, onun tapşırığı ilə müsabiqədənkənar Moskvaya oxumağa göndərildiyindən, onunla bağlı xatirələrindən danışıb.



BDU-nun professoru, fəlsəfə elmləri doktoru İzzət Rüstəmov Heydər Əliyevin rəhbərliyi altında çalışdığı illərdən və Ulu Öndərlə dünyanın bir çox ölkələrinə olan rəsmi səfərlərindən, xatirələrindən danışıb. Heydər Əliyevin dünyada böyük nüfuza və hörmətə malik olduğunu qeyd edən professor onunla hər bir azərbaycanlının fəxr etdiyini bildirib. Dövlətimizin durmadan artan uğurlarının qazanılmasında Ümummilli Liderin xidmətlərinin ölçüyəgəlməz olduğunu, bu gün isə möhtərəm Prezidentimiz İlham Əliyevin dahi öndərin siyasi kursunu uğurla davam etdirdiyini vurğulayıb.

Plenar iclasda BDU-nun Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müdiri, dosent Saleh Nağıyev “Müstəqil dövlətimizin banisi”, Azərbaycan Milli Elmlər Akademiyasının Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun baş direktoru, professor Zakir Eminov “Regionların sosial iqtisadi inkişafının müasir vəziyyəti”, Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor Aydın İbrahimov “Qarabağ ermənilərinin reinteqrasiyasında xarici təcrübə”, İqtisadi və sosial coğrafiya kafedrasının müdiri, professor Çingiz İsmayılov “Qarabağın işğaldan azad edilmiş ərazilərinin coğrafi ekspertizası” mövzuları üzrə çıxış ediblər.

Sonra konfrans öz işini üç ixtisas bölməsi üzrə davam etdirib.

# BDU-da “Heydər Əliyev mühazirələri”nin növbəti qonağı Vüqar Rəhimzadə olub

***Noyabrın 23-də “BDU könüllüləri” təşkilatının Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan “Heydər Əliyev mühazirələri” layihəsinin növbəti görüşü keçirilib.***

Görüşün qonağı Yeni Azərbaycan Partiyasının Xətai rayon təşkilatının sədri, “İki sahil” qəzetinin baş redaktoru, Bakı Slavyan Universitetinin Jurnalistika kafedrasının müdiri, siyasi elmlər doktoru, professor Vüqar Rəhimzadə olub.

Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycan dövlətini və dövlətçiliyini məhv olmaqdan xilas edən Ümummilli Liderin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı mətbuat sahəsində də yeni bir dövrün təməlini qoyub. Heydər Əliyevin digər istiqamətlərlə yanaşı, azad mətbuatın inkişafı üçün yaratdığı möhkəm zəmin bugünkü uğurlarımızı şərtləndirir. Dahi şəxsiyyətin böyük səyləri nəticəsində plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni manеələrin aradan qaldırılması, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılması, KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi, onlara güzəştlərin təyin edilməsi istiqamətində ardıcıl qərarların qəbul olunması, müvafiq Fərman və sərəncamların imzalanması müstəqil mətbuata olan diqqətin təzahürü idi. 1998-ci ilin avqustunda Ulu Öndər tərəfindən “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” Fərmanın imzalanması azad, müstəqil mətbuatın inkişafına geniş yol açmaqla, mətbuatın inkişafının, söz, fikir azadlığının qarşısında əsas maneə olan senzura ləğv edilib.




Vüqar Rəhimzadə Ulu Öndərin müəllifliyi ilə hazırlanan Konstitusiyamızda insan hüquqları, söz, fikir azadlığı ilə bağlı maddələri sadalayaraq Ulu Öndərin bu sahəyə nə qədər çox diqqət yetirdiyini bildirib: “Ümummilli Lider Heydər Əliyevin siyasi kursu bu gün bütün sahələrdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cəmiyyətin güzgüsü funksiyasını obyektivlik, qərəzsizlik, vətənpərvərlik prinsipləri əsasında yerinə yetirən mətbuatın dövrün tələblərinə uyğun olaraq daha da təkmilləşdirilir, cəmiyyətin informasiya tələbatının yüksək səviyyədə yerinə yetirilməsi üçün yeni imkanlar yaradılır, XXI əsrin informasiya-kommunikasiya texnologiyaları əsri olduğunu anlayan ölkə rəhbərliyi azad mətbuatın inkişafını prioritet məsələ kimi hər zaman öndə saxlayır. Bu mühüm məqamı da qeyd etmək lazımdır ki, tarixi Zəfərimiz bütün sahələrdə, o cümlədən mətbuatda islahatların aparılmasını, təkmilləşməni bir zərurət kimi qarşıya qoydu. “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərmanın imzalanması, Medianın İnkişafı Agentliyinin (MEDİA) yaradılması və s. kimi addımlar bu gün medianın inkişafında mühüm əhəmiyyət kəsb edir. Xüsusilə MEDİA-nın tətbiq etdiyi mexanizmlər və yeniliklər mətbuatımızın inkişafında mühüm rol oynayır”.

Sonra Vüqar Rəhimzadə Ulu Öndərlə bağlı xatirələrini bölüşüb və tələbələrin suallarını cavablandırıb.

# "Ulu Öndər xatirələrdə": BDU-da professor Dilarə Seyidzadə ilə görüş

***Noyabrın 21-də BDU-da “Heydər Əliyev İli” çərçivəsində həyata keçirilən "Ulu Öndər xatirələrdə" layihəsinin növbəti qonağı tarix elmləri doktoru, professor Dilarə Seyidzadə olub.***

Filologiya fakültəsinin təşkilatçılığı ilə keçirilən görüşdə BDU-nun professor, müəllim, tələbə heyəti iştirak edib. Görüşün moderatoru, BDU-nun dosenti Məti Osmanoğlu dahi öndərin 100 illik yubileyi çərçivəsində Universitetdə həyata keçirilən tədbirlərdən danışıb, Ümummilli Liderin zəngin irsinin daha da dərindən öyrənilməsi istiqamətində görüşün əhəmiyyətini vurğulayıb.

Daha sonra BDU-nun rektoru Elçin Babayev qonağı salamlayıb və qeyd edib ki, Dilarə Seyidzadə uzun illər Ulu Öndər Heydər Əliyevə sədaqətlə xidmət edib, böyük idarəçilik və zəngin həyat təcrübəsinə yiyələnib.



Görüşdə professor Dilarə Seyidzadə Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb. Qeyd edib ki, Ümummilli Liderin həyatı daim mübarizələrdə keçib, o, bu mübarizələrin hamısında qalib gəlib. Ona görə də Ulu Öndərin həyat və fəaliyyəti gənclərimiz üçün nümunədir.

Heydər Əliyevin böyük dühası haqqında danışan professor onun çox diqqətli, hər bir incəliyə önəm verən bir şəxsiyyət olduğunu bildirib.

İnteraktiv şəkildə keçən görüşdə Dilarə Seyidzadə müəllim və tələbələrin suallarını cavablandırıb.

Görüşdən sonra professor Dilarə Seyidzadə Ulu Öndərin şəxsi təşəbbüsü ilə 1997-ci ildə fəaliyyətə başlayan Heydər Əliyev Muzeyini ziyarət edib.

# Biologiya fakültəsində Zəfər Gününə həsr olunmuş tədbir

***Noyabrın 3-də Biologiya fakültəsində 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdən əvvəl Biofizika və biokimya kafedrasının professoru Ralfrid Həsənovun, Botanika və bitki fiziologiyası kafedrasının dosenti Sevda Tahirlinin rəsm əsərlərindən ibarət sərgi nümayiş etdirilib.***



Sonra Dövlət himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, 8 Noyabr miqyasına və əhəmiyyətinə görə yalnız Azərbaycanın deyil, bütün Türk dünyasının son iki yüz il ərzində qazandığı ən böyük tarixi Zəfər hesab olunur. Sarsılmaz xalq–iqtidar-ordu birliyi hesabına qazandığımız böyük Qələbə sonrakı zəfərlərə yol açıb. Bu il sentyabrın 19-da həyata keçirilən antiterror tədbirləri ilə suverenliyimiz tam bərpa olunub. Rektor Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin regionda yeni reallıqlar yaratdığını vurğulayıb.

Biologiya fakültəsinin dekanı Afət Məmmədova çıxış edərək xalqımızın qüdrətinin və milli qürurunun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu qələbənin gənclərin vətənpərvərlik ruhunun yüksəldilməsində rolundan bəhs edib.

Şəhid övladı, fakültənin I kurs tələbəsi Xalidə Əsgərova atasının göstərdiyi şücaətlər barədə danışıb, onun adını hər zaman uca tutacağına söz verib.

Tədbir fakültənin nəzdində fəaliyyət göstərən "Xarıbülbül" qızlar klubunun üzvlərinin ifasında musiqi və rəqs nömrələri ilə davam edib.

# Kimya fakültəsində tədbir: “Milli qürur günümüz”

***Noyabrın 7-də Kimya fakültəsinin təşkilatçılığı ilə “Milli qürur günümüz” adlı tədbir keçirilib.***



Əvvəlcə Kimya fakültəsinin kollektivi və tələbələri II Fəxri xiyabanı ziyarət edərək, ərazi bütövlüyümüz uğrunda şəhid olmuş qəhrəman Vətən oğullarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə gül dəstələri qoyublar.

Sonra tədbir çərçivəsində Kimya fakültəsinin tələbələrinin əl işlərindən ibarət “Xarıbülbül” rəsm sərgisinə baxış keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov bildirib ki, Zəfər Günü Müzəffər Ali Baş Komandan İlham Əliyevin məğlubedilməz iradəsinin və böyük sərkərdəlik məharətinin, Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzminin, rəşadətinin, yüksək hərbi-texniki, mənəvi-psixoloji hazırlığının və peşəkarlığının təntənəsidir. Bütün bu amillər, eləcə də iqtidar-xalq sarsılmaz birliyi Ermənistan-Azərbaycan münaqişəsinin həllini təmin edib. Erməni şovinistlərinin Azərbaycan xalqına və dövlətinə qarşı uzun illər ərzində həyata keçirdikləri etnik təmizləmə, işğalçılıq siyasətinin qarşısının alınması ilə bağlı tarixi missiya uğurla yerinə yetirilib və tarixi ədalət bərpa olunub.

Fakültənin I kurs tələbələri Nəsibə Məmmədova və Rəvanə Quliyeva şanlı tarixin şahidi olduqları üçün fəxr hissi keçirdiklərini bildirib və şeirlər səsləndiriblər.

Sonda Zəfər Gününə həsr edilmiş videoçarx nümayiş etdirilib.

# Jurnalistika fakültəsində "Zəfərin carçıları" esse müsabiqəsinin qalibləri mükafatlandırılıb

***Noyabrın 6-da Jurnalistika fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə keçirilən "Zəfərin carçıları" esse müsabiqəsinin qalibləri mükafatlandırılıb.***

Mükafatlandırma mərasimində çıxış edən Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev xalqımızın tarixi Zəfərindən yazmağın, həmin hissləri ifadə etməyin məsuliyyətli və təsirli olduğunu bildirib. Qeyd edib ki, bütün dünyanı lərzəyə gətirən tarixi qələbəmizi sözlərlə ifadə etmək ölkə jurnalistikasının müqəddəs vəzifəsinə çevrilib. Vüqar Əliyev bu vəzifənin öhdəsindən uğurla gələn tələbə-jurnalistləri təbrik edib və onlara uğurlar arzulayıb.

Jurnalistika fakültəsinin dekan müavinləri Sevinc Əliyeva və Samir Mirzəyev şanlı Zəfərin memarlarının tanıdılmasının önəmini vurğulayıblar. Onlar qeyd ediblər ki, gələcək jurnalistlər daim öz qələmləri ilə müstəqil, bütöv və qalib Azərbaycanın dəyərlərini qorumalı, onlara sadiq olmalı və hörmətlə yanaşmalıdırlar.

Müsabiqənin əsas məqsədi tələbə-gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tərbiyə olunmasına töhfə vermək, yazı və fikri ifadə bacarıqlarını inkişaf etdirməkdir.

Sonra esse müsabiqəsinin qalibləri diplom və hədiyyələrlə təltif ediliblər. Qalib yazıların mediada dərc olunması təmin ediləcək.

# BDU-nun şəhid məzunları Fikrət Zeynallı və Şəhriyar Həbibinin məzarları ziyarət olunub

***Noyabrın 7-də Fizika fakültəsinin kollektivi fakültənin şəhid məzunları Fikrət Zeynallı və Şəhriyar Həbibinin məzarlarını ziyarət edib.***

Fakültənin kollektivi Fikrət Zeynallının Tovuz rayonunun Aşağı Öysüzlü kəndində və Şəhriyar Həbibinin Lənkəran rayonunun Osakücə kəndində yerləşən məzarları önünə əklil qoyub, həmçinin şəhidlərin ailələri, dostları, təhsil aldıqları orta məktəblərin müəllimləri ilə görüşərək, xatirələrini ehtiramla yad edib, bütün Azərbaycan xalqının onlarla fəxr etdiklərini bildiriblər.

Qeyd edək ki, Fikrət Zeynallı 2020-ci ilin noyabrın 9-da Xocavənd uğrunda gedən döyüşlər zamanı, Şəhriyar Həbibi isə noyabrın 6-da Qubadlı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Fikrət Zeynallı 2012-2016-cı illərdə, Şəhriyar Həbibi isə 2010-2014-cü illərdə BDU-nun Fizika fakültəsində təhsil alıb.

# Vətən müharibəsində Hüquq fakültəsinin 50-dən çox tələbə və məzunu iştirak edib

***Noyabrın 7-də Hüquq fakültəsində 8 Noyabr - Zəfər Gününə həsr edilmiş tədbir keçirilib. Tədbirdə millət vəkilləri Bəhruz Məhərrəmov, Ramin Məmmədov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, Vəkillər Kollegiyasının üzvü Şaiq Mirzəyev, Hüquq fakültəsinin məzunu olan Vətən müharibəsi iştirakçıları, professor-müəllim heyəti və tələbələri iştirak ediblər.***

Tədbiri giriş sözü ilə açan Hüquq fakültəsinin dekanı Zaur Əliyev bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində tarixi Qələbə nəticəsində Ermənistanın 30 illik işğalına son qoyulub və Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunub. Hüquq fakültəsinin 50-dən çox tələbə və məzunu Vətən müharibəsində könüllü iştirak edib, bir nəfər məzunu – Ceyhun Şalıyev şəhidlik zirvəsinə ucalıb. Zaur Əliyev qeyd edib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinə daim yüksək ehtiram göstərir, qazilərimizin müalicəsini və sağlamlıqlarının bərpasını diqqət mərkəzində saxlayırlar. Azərbaycanın suverenliyinin tam bərpa olunması, qədim və tarixi diyarımız Xankəndi şəhərində bayrağımızın dalğalanmasının məhz “Heydər Əliyev İli”nə, Ulu Öndərin 100 illiyini qeyd etdiyimiz vaxta təsadüf etməsi böyük rəmzi məna daşıyır. Vaxtilə Ulu Öndərimiz hüquqi, demokratik və güclü Azərbaycan dövlətini qurmaqla bugünkü qələbələrimizin təməlini qoyub.

Zaur Əliyev xatırladıb ki, noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının “Türk Əsri” çağırışı altında 10-cu yubiley Zirvə görüşündəki çıxışında cənab Prezident İlham Əliyev Azərbaycanın Böyük Qayıdış Proqramını icra etdiyini və 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsinin nəzərdə tutulduğunu bəyan edib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, millət vəkili Ramin Məmmədov, Vəkillər Kollegiyasının üzvü Şaiq Mirzəyev çıxışlarında şəhid ailələrinə, qazilərə və müharibə iştirakçılarına dövlət qayğısından danışıb, gəncləri vətənpərvər, Ali Baş Komandanın siyasi kursuna hər zaman sadiq olmağa səsləyiblər. Sonra Hüquq fakültəsinin şəhid məzunu Ceyhun Şalıyevin xatirəsinə həsr edilmiş videoçarx nümayiş etdirilib.

Ceyhun Şalıyevin ailə üzvü Rəna Məmmədova şəhidimizin qəhrəmanlıq hekayəsindən danışıb. Tədbirdə Hüquq fakültəsinin Vətən müharibəsi iştirakçısı olan məzunları Yusifkamal Paşabəyli və İbrahim Səlimov döyüş yolundan bəhs edib, xatirələrini bölüşüblər.

Sonda fakültənin Vətən müharibəsi iştirakçıları olan məzunlarına Hüquq fakültəsinin 95 illiyi münasibətilə fəxri fərmanlar təqdim edilib.

# Sən ey istiqlalımın əbədiyyət sancağı – Azərbaycan bayrağı!

***Milli varlığımızın rəmzi olan bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilib. Üçrəngli bayrağımızın ikinci dəfə müstəqilliyimizin atributu kimi yüksəlməsi isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.***

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada üçrəngli, ay-ulduzlu bayrağımız Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi. Bu, olduqca cəsarətli və uzaqgörən bir addım, eyni zamanda müstəqilliyimizə gedən yolda ciddi dönüş nöqtəsi idi. Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağımızın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı.

Nəticədə 1991-ci il fevralın 5-də bayraq Azərbaycan Respublikasının Ali Soveti tərəfindən ikinci dəfə dövlət rəmzi kimi təsdiq edildi.

1991-ci il oktyabrın 18-də dövlət müstəqiliyimizi bərpa etdikdən sonra “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı ilə Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzləri, o cümlədən üçrəngli bayrağımız da bərpa edildi. “Türkləşmək, müasirləşmək, islamlaşmaq” ideyasını rənglərində əbədiləşdirən bayrağımız müasir Azərbaycanın tarixi dövlətçilik ənənələrinə sadiqliyini bir daha nümayiş etdirir, bu ənənələri inamla yaşadır.



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncama əsasən, hər il ölkəmizdə 9 noyabr Dövlət Bayrağı Günü kimi qeyd edilir.*

Azərbaycan Respublikasının dövlət bayrağından istifadə Azərbaycan Respublikası Konstitusiyasının 23-cü və 75-ci maddələri, “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında” Azərbaycan Respublikasının Qanunu, eləcə də həmin Qanunla təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə” əsasında tənzimlənir. Azərbaycan Respublikasının Dövlət bayrağının rəngli və sxematik təsviri adı çəkilən Qanun və Əsasnamə ilə təsdiq edilib.

Bütün tarixi, əlamətdar günlərdə, dövlət başçılarının rəsmi səfərlərində, beynəlxalq tədbirlərdə, idman yarışlarında, olimpiadalarda Azərbaycanın adını yüksəldiyi ucalıqlardan dünyaya çatdıran da varlığımızı təsdiqləyən bayrağımızdır. Azərbaycan bayrağı bütün dövlət təşkilatlarının, respublikamızdan kənarda diplomatik korpuslarımızın, nümayəndəliklərimizin binaları üzərində müstəqilliyimizin rəmzi kimi dalğalanır. Beynəlxalq tədbirlərdə dünya dövlətlərinin bayraqları arasında Azərbaycanın simvolu kimi dayanır.

Üç il öncə müzəffər Azərbaycan Ordusu otuz ilə yaxın düşmən işğalında qalan əzəli torpaqlarımızı xilas etdi. O günlərdə bütün Azərbaycan xalqını ən çox qürurlandıran anlardan biri də döyüşçülərimizin Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq, azad etdikləri hər bir şəhərdə dövlət bayrağımızı ucaltmalarını və bu barədə Ali Baş Komandan İlham Əliyevə məlumat verməlrini əks etdirən videogörüntülər idi. Ermənistan öz layiqli cavabını döyüş meydanında aldı. Düşmənin silahlı qüvvələri qəhrəman Azərbaycan ordusu tərəfindən darmadağın edildi. Bu il aprelin 23-də isə Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhədburaxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa edildi. Sentyabrın 19-da cəmi 24 saat belə davam etməyən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, suverenliyimiz tam təmin olundu. Oktyabrın 15-də isə Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndidə, Xocalıda, Əsgəranda üçrəngli bayrağımızı ucaltmaqla “Qarabağ Azərbaycandır!” hökmünü bir daha təsdiqlədi.

Hərb meydanında əldə etdiyimiz bu tarixi qələbələrin əldə edilməsi zamanı Azərbaycan xalqı öz Prezidentinin, Ordusunun yanında bir yumruq kimi birləşərək Vətən üçün can verməyə hazır, qan tökməyə qadir olduğunu bir daha göstərdi.

Dostlarımızı sevindirən, düşmənimizi xar edən üçrəngli bayrağımız dövlətimizin əzəmətini və gücünü bütün dünyaya təsdiqləyir. Bütövləşən Vətənimizdə qürurla dalğalanır – bu torpaqların əbədi sahibinin kim olduğunu bir daha bəyan edir!

Dövlətimizin, xalqımızın gücünə güc qatan bayrağımız daim zirvələrdə dalğalansın!

# Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 28 il ötür

***Konstitusiya hər bir hüquqi dövlətin sarsılmaz təməlidir. Bu gün Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 28 il ötür. Müstəqil Azərbaycanın Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilib və noyabrın 27-də qüvvəyə minib. Dövlətin əsas Qanununun yaradılmasında Bakı Dövlət Universitetinin elm xadimlərinin də müstəsna xidmətləri olub.***

1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da, SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyalarda isə 1925-ci il martın 14-də və 1978-ci ilin aprelin 21-də qəbul edilib.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi bir sənəddir. Konstitusiya insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan edir. Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirir. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoyur.

Ümummilli Lider Heydər Əliyev deyirdi: “Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir”.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaradıb və onun inkişafına güclü təkan verib. Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilərkən hüquqi dövlət quruculuğunun müasir meyllərinə istinad olunub, ölkəmizin hüquq sistemi üçün yeni bir təsisatın - konstitusiya ədalət mühakiməsi orqanının yaradılması nəzərdə tutulub, bu müddəaya əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılıb. Hazırda bu qurum qanunların Konstitusiyaya uyğunluğunu yoxlamaqla, qanunlara şərh verməklə, prezident və parlament seçkilərinin nəticələrini təsdiqləməklə, hətta vətəndaşların birbaşa müraciəti əsasında müvafiq qərarlar qəbul etməklə bütövlükdə, Konstitusiyanın aliliyini qoruyur.

Ötən 28 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da referendum yolu ilə Azərbaycan Konstitusiyasına bir sıra əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. Konstitusiyaya edilən bu əlavə və dəyişikliklər nəticəsində əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

Prezidentimiz İlham Əliyevin də vurğuladığı kimi, “Universal dəyərlərə əsaslanan Azərbaycan Respublikasının Konstitusiyası bu gün də böyük hüquqi, siyasi və ideoloji potensiala malikdir və Azərbaycan xalqının firavanlığına xidmət edir”.

# Milli qürur günümüz

***8 Noyabr – Zəfər Günümüz... Bu gün xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan şanlı gündür.***

2020-ci il sentyabrın 27-də mənfur erməni qəsbkarlarının növbəti hərbi təcavüzünə cavab olaraq Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə başlayan əks-hücum əməliyyatları 30 il işğal altında olan ərazilərimizin azadlığı uğrunda ölüm-dirim savaşına çevrildi. Dünya hərb tarixinə qızıl hərflərlə yazılan, haqqında əsrlərlə danışılacaq 44 günlük Vətən müharibəsinin ilk anlarından Müzəffər Ali Baş Komandanımızın verdiyi müdrik və cəsarətli qərarlar sayəsində düşmənin müdafiə xətti yarıldı. Düşmən böyük itkilər verərək geri çəkilməyə məcbur oldu. İldırımsürətli müharibə planı ilə hərəkət edən peşəkar, cəsur Azərbaycan ordusu döyüşlərin başladığı ilk gündə strateji Murov zirvəsində, Füzulidə, Cəbrayılda, sonrakı günlərdə isə Suqovuşanda, Hadrutda, Xocavənddə, Zəngilanda, Qubadlıda üçrəngli bayrağımızı ucaltdı. Noyabr ayının 8-də Qarabağın ürəyi Şuşanın, cəmi bir gün sonra isə 72 yaşayış məntəqəsi və 8 strateji yüksəkliyin azad olunması ilə Ali Baş Komandanımızın rəhbərlik etdiyi müzəffər Ordumuz düşməni növbəti dəfə böyük məğlubiyyətə uğratdı və onu kapitulyasiya aktını imzalamağa məcbur etdi. Bununla da Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü təmin olundu. 30 illik müharibə ölkəmizin parlaq qələbəsi ilə başa çatdı. Və nəhayət, bu ilin sentyabrında heç 24 saat belə çəkməyən lokal antiterror əməliyyatı ilə düşmənin silahlı dəstələri və separatçı rejimin qalıntıları tamamilə darmadağın edildi. Oktyabrın 15-də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən əzəli torpaqlarımız olan Xankəndi, Xocavənd, Xocalı, Ağdərə şəhərlərində, eləcə də Əsgəran qəsəbəsində üçrəngli bayrağımız əbədi ucaldıldı və suverenliyimiz bərpa olundu.

Xoşbəxt xalqıq ki, Zəfər Günümüzün üçüncü ildönümünü vahid, suveren, azad Vətənimizin hər bir qarışında qeyd edirik. Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə Zəfər tariximiz yazılmağa davam edir. Zəfər Günümüz mübarək!

# BDU və “SARA INVEST Holding”in qarşılıqlı əməkdaşlığı çərçivəsində praktiki konfrans keçirilib

***Noyabrın 6-da BDU və “SARA INVEST Holding”in qarşılıqlı əməkdaşlığı və universitet-özəl sənaye sektorunun işbirliyi modeli formatında “Bitki xəstəliklərinin diaqnostikası və mübarizə metodları” mövzusunda növbəti elmi-praktiki konfrans keçirilib.***

Konfrans zamanı iştirakçılar tərəfindən bitki xəstəliklərinin hər il yüz minlərlə ton meyvə-tərəvəz məhsulunu məhv etməsi və kənd təsərrüfatı sahəsində ciddi iqtisadi problemlərə səbəb olması qeyd edilib. Bitki xəstəlikləri ilə mübarizə metodları və nəticələr barədə məlumatlar paylaşılıb.

Bildirilib ki, BDU və “SARA INVEST Holding”in qarşılıqlı əməkdaşlığının əsas məqsədlərindən biri bitki patogenlərinin düzgün diaqnostikası ilə yanaşı, bu patogenlərlə mübarizə metodlarının araşdırılması, tədqiqatı və risk qiymətləndirməsi layihəsinin həyata keçirilməsidir. Aparılacaq tədqiqat layihəsinə bu sahədə illərlə təcrübəsi olan Türkiyənin Qərbi Aralıq Dənizi Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunun (BATEM) mütəxəssisləri də cəlb edilib. Layihə çərçivəsində bitki xəstəlikləri üzrə əldə edilən diaqnostik nəticələr araşdırılacaq, sistematik analizlər aparılacaq və risk qiymətləndirilməsi çıxarılaraq əldə olunmuş mübarizə metodları üzrə daha bir neçə layihə həyata keçiriləcək.



Əməkdaşlıq zamanı BDU-nun magistratura və doktaranturasında təhsil alan tələbələr “SARA INVEST Holding”in tərkibində yerləşən “AGRO” bitki klinikasında elmi-tədqiqat layihələrində iştirak edəcəklər. Bitki patogenlərinin diaqnostikası sahəsində Türkiyənin “Letgen Biotechnology” şirkəti metodiki, “BATEM”in mütəxəssis heyəti isə elmi-tədqiqat sahəsində dəstək göstərəcək.

Layihə çərçivəsində BDU rektoru Elçin Babayev “AGRO” bitki klinikası və onun nəzdində fəaliyyət göstərən “Fitolab” Mərkəzləşdirilmiş Sınaq Laboratoriyasını ziyarət edib. Laboratoriyaya baxış zamanı BDU rektoru Elçin Babayevə burada entomoloji, herboloji, fitohelmintoloji, bakterioloji, virusoloji və mikoloji müayinələr aparılması, həmçinin nitrat və nitritlərin qalıq miqdarının təyini, suvarma suyunun fiziki-kimyəvi və mikrobioloji müayinələrinin həyata keçirilməsi barədə ətraflı məlumat verilib.

Elçin Babayev özəl sektorda müasir avadanlıqlarla təchiz edilmiş belə laboratoriyanın olmasını, buradakı işçilərin səriştəliliyini müsbət qiymətləndirib. Eyni zamanda kadrların böyük bir qisminin BDU məzunlarından ibarət olmasından qürur hissi duyduğunu bildirib. O, universitetin elmi-tədqiqat fəaliyyətində sənayedən gələn istəklər əsasında bu laboratoriyada yüksək səviyyədə aparılan analiz nəticələrindən ibarət “data”lardan istifadə olunmasının vacibliyini vurğulayıb.

“SARA INVEST Holding”in direktoru Baba Qurbanov isə bu istiqamətdə aparılacaq bütün işlərdə öz dəstəklərini əsirgəməyəcəklərini, innovativ iş birliyində yaxından iştiraklarından məmnun olduqlarını vurğulayıb. O, ölkəmizdə belə yüksək avadanlıqlarla təchiz olunmuş laboratoriyalarda çalışacaq kadrların hazırlanması istiqamətində BDU-ya “SARA INVEST Holding” tərəfindən istənilən dəstəyin veriləbiləcəyini qeyd edib.

Sonda əməkdaşlıq çərçivəsində keçiriləcək layihələrin ümumi müzakirəsi keçirilərək, yol xəritəsi müəyyənləşdirilib.

# Tatarıstanın təhsil və elm naziri BDU-da

***Noyabrın 21-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının təhsil və elm naziri Xadiullin İlsurun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub. O, BDU-nun rektoru və professor-müəllim heyəti ilə görüşüb.***

Qonağı salamlayan BDU rektoru Elçin Babayev bu səfərin regionlarımız arasında dərin köklərə malik əlaqələrin göstəricisi olduğunu bildirib: "Bu görüş bizə təhsil və elm sahələrində regional əlaqələrin nə qədər vacib olduğunu bir daha xatırladır. Hər iki ölkə zəngin mədəni irsə, ənənələrə və qarşılıqlı əməkdaşlığa sahibdir, təhsil və elm sahələrində bu münasibətləri daha da inkişaf etdirməliyik. Bu səfər və görüş BDU ilə Tatarıstan ali məktəbləri arasında əməkdaşlığın daha da genişləndirilməsini müzakirə etmək üçün gözəl imkan yaradır".



Rektor Tatarıstan Respublikasının rəhbəri Rustəm Minnixanovun bu ilin iyunun 17-də Azərbaycanın işğaldan azad edilən Zəngilan rayonunun Ağalı kəndinə səfərini də yüksək qiymətləndirib.

Rektor vurğulayıb ki, BDU ilə Kazan Federal Universiteti arasında əlaqələrin də tarixi kökləri var. BDU-nun ilk rektoru Vasili Razumovski məhz Kazan Federal Universitetini bitirib. BDU-nun daha bir rektoru Aleksandr Qulyayev də Kazan Federal Universitetinin məzunu olub. Görkəmli pedaqoq, alim və yazıçı Mir Cəlal Paşayev də öz təhsilini Kazan Şərq Pedaqoji İnstitutunda davam etdirib. BDU alimləri Tatarıstanda keçirilən çoxsaylı tədbirlərdə iştirak ediblər. BDU-da Tatarıstan ali məktəblərini bitirən çoxsaylı məzunlar çalışır. Rektor Elçin Babayev BDU-nun Tatarıstan ali məktəbləri ilə təcrübə mübadiləsi, elmi tədqiqat və innovasiyalar sahəsində də əməkdaşlığa hazır olduğunu deyib.

Tatarıstanın təhsil və elm naziri Xadiullin İlsur isə qeyd edib ki, Azərbaycan və tatar xalqları arasında dərin köklərə malik tarixi, mədəni bağlar var. Elm və təhsil əlaqələri bu bağları daha da möhkəmləndirir. Hazırda BDU-nun professor-müəllim heyəti arasında da Tatarıstanın müxtəlif ali məktəblərini bitirən məzunlar var. Nazir BDU ilə Tatarıstan ali məktəbləri arasında əlaqələrin inkişafında maraqlı olduğunu qeyd edib.

Tatarıstan universitetlərinin məzunları - BDU-nun Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Kəmalə Nəcəfova, Cəbr və həndəsə kafedrasının müdiri, Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Arif Səlimov, Fiziki coğrafiya kafedrasının baş müəllimi İrkən Rakçiyeva-Aktoprak çıxışlarında tələbəlik xatirələrini bölüşüb, iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsinin zəruriliyini vurğulayıblar.

# BDU "Türkiyə Cümhuriyyətinin 100-cü ildönümündə universitet kitabxanalarını yenidən düşünmək” adlı ANKOSLink beynəlxalq konfransında təmsil olunub

***20-23 noyabr 2023-cü il tarixlərində Antalyada “Türkiyə Cümhuriyyətinin 100-cü ildönümündə universitet kitabxanalarını yenidən düşünmək” mövzusunda ANKOSLink beynəlxalq konfransı keçirilib.*** Konfransda 22 ölkədən 500-ə yaxın iştirakçı, kitabxana işi sahəsində çeşidli informasiya xidmətləri göstərən 212 qurum və 56 firma iştirak edir. Maraqlı tərəflərin bir araya gəldiyi ANKOSLink beynəlxalq konfransı Türkiyədə və regionda kitabxana, nəşriyyat işinə dair yeniliklərin izlənildiyi, problemlərin müzakirə edildiyi, həll yollarının təklif olunduğu dinamik platformadır.

Azərbaycandan 12 nəfərdən ibarət nümayəndə heyətinin, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və digər türk dövlətlərinin kitabxana konsorsiumlarının konfransda iştirakı BDU-nun Elmi Kitabxanası və Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun koordinatorluğu ilə təşkil edilib. Konfransın ilk günündə BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova “Türk Cümhuriyyətlərində kitabxanaların inkişafı” adlı bölmə iclasında “Azərbaycan kitabxanalarının tanıtımı” mövzusunda təqdimatla məruzə edib. Təqdimatda 2023-cü ilin Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 105, Türkiyə Cümhuriyyətinin qurulmasının 100, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileylərinə təsadüf etdiyi, Azərbaycan Prezidenti İlham Əliyevin liderliyi ilə müzəffər Azərbaycan Ordusunun Qarabağın işğalına son qoyduğu vurğulanıb. Məruzədə 1000-dən çox kitabxana və 5 milyondan çox kitab fondunun ermənilərin işğalı nəticəsində tamamən darmadağın və yox edilməsi, 44 günlük qələbədən sonra isə kitabtoplama kampaniyası olan "Qarabağa kitabla gedək!" layihəsi haqqında məlumat verilib. Sonda Azərbaycanda dövlət kitabxana şəbəkə və sistemləri, universal, kütləvi, universitet, gənclər və uşaq kitabxanaları haqqında danışılıb.

Konfransın ikinci günü “Akademik kitabxanalarda inkişaf və yeniliklər” panelində isə BDU Elmi Kitabxanasının şöbə müdiri Cəmilə Yusifova “Az.KİK-ə üzv akademik kitabxanaların inkişaf və yenilikləri” mövzusunda təqdimatla məruzə edib. Təqdimatda universitet kitabxanalarının üzv olduğu Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun fəaliyyəti, beynəlxalq EIFL konsorsiumunun xidmətləri, EBSCO və digər elektron məlumat bazaları haqqında məlumat verilib.

# Tələbə Gənclər Təşkilatı "ColdFest" gənclər festivalında təmsil olunub

***BDU-nun Tələbə Gənclər Təşkilatı Azərbaycan Gənclər Fondunun dəstəyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində ATGTİ-nin yaranmasının 14 illiyi münasibətilə keçirilən “Cold Fest” Gənclər Festivalında təmsil olunub.***

Tədbir çərçivəsində tələbələrin asudə vaxtlarını səmərəli keçirilməsi üçün müxtəlif oyunlar və əyləncəli konsert proqramı təşkil olunub.

# BDU-da ilk dərs günündən 104 il keçir

***15 noyabr BDU-da ilk dərs günündən 104 il ötür. 1919-cu il sentyabrın 1-də gərgin müzakirələrdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti ictimai fikir tariximizdə, elmin və təhsilin inkişafında əvəzedilməz xidmətlər göstərəcək ilk universitetin açılması haqqında qanun qəbul edib. Bakı Dövlət Universitetinin idarə olunması və onun tədris-elmi fəaliyyətinin tənzimlənməsi qaydalarını müəyyən edən nizamnamə 1919-cu il sentyabrın 29-da, parlamentin 79-cu iclasında qəbul olunub.***

Universitet Şurası 1919-cu il noyabrın 10-da olan ilk iclasında professorların və digər akademik heyətin tərkibini təsdiq edib. 1919-cu il noyabrın 15-də şənbə günü universitetdə birinci dərs günü elan edilib. Universitetin ilk rektoru Kazan Universitetinin professoru, məşhur cərrah Vasili İvanoviç Razumovski olub.

BDU-nun inkişafında yeni və mühüm mərhələ, heç şübhəsiz, 1969-cu ildə Ümummilli Liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etməsi ilə başladı. Universitetin elm və təhsil flaqmanı kimi şöhrətlənməsi məhz bu tarixdən sonra gerçəkləşdi. Ali təhsil ocağının 50 illik yubiley tədbirlərinə Ulu Öndər Heydər Əliyevin şəxsən rəhbərlik etməsi, dövlət başçısı kimi Universitetə daimi qayğısı BDU-nun nüfuzunu daha da artırdı. Universitetin 50 illik yubiley tədbirində Ulu Öndər Heydər Əliyevin böyük cəsarət nümayiş etdirərək məhz ana dilimizdə çıxış etməsi bu gün də xalqımız tərəfindən ehtiram və minnətdarlıqla yad edilir. Ulu Öndər həmin tarixi hadisəni dəfələrlə yada salmışdı: "Xatirimdədir, Universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu – nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir... Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlıqlarını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər". Bu tarixi hadisənin, həmin dövrdə müdrik rəhbərin ali təhsil ocağına xüsusi diqqət və qayğısının sayəsində Universitet yenidən milli oyanışın mərkəzinə, müstəqilliyimizə gedən yolun carçısına çevrildi.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra BDU Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində inkişafının yeni və daha parlaq mərhələsinə qədəm qoydu. Ulu Öndər ənənələrə sadiqliyini bir daha nümayiş etdirərək Universitetin xeyirxahı və hamisi, eyni zamanda məzunu kimi qayğısını əsirgəmədi. Bu gün isə həmin tarixi missiyanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev davam etdirir. BDU möhtərəm Prezidentimiz və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hərtərəfli qayğısı ilə tərəqqi və inkişaf yolunda inamla addımlayır.




Doğma universitetimiz son 20 ildə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub. Prezidentin müvafiq Sərəncamı ilə 2019-cu ildə BDU-nun 100 illik yubileyi təntənəli şəkildə ölkədə və xaricdə qeyd olunub, əməkdaşlarımız ali dövlət mükafatları ilə təltif edilib. Dövlətimizin başçısının Universitetin 100 illik yubiley mərasimindəki proqram xarakterli çıxışı bu gün hər birimiz üçün yol xəritəsidir.

104 yaşlı BDU üçün bu il xüsusilə əlamətdardır. Doğma universitetimizin 104 yaşı bu ali təhsil müəssisəsinin inkişafına və tərəqqisinə əvəzsiz töhfələr vermiş, BDU-nu "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandıran, hər zaman məzunu olması ilə fəxr etdiyini ifadə edərək ona yüksək dəyər verən Ulu Öndərimiz Heydər Əliyevin 100 illik yubileyinə, ölkə başçısının 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə elan olunmuş "Heydər Əliyev İli"nə təsadüf edir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun Vətənimizin suverenliyini tam bərpa etməsi, erməni seperatizminin tam məhvi bu ilimizi daha da müqəddəsləşdirir. 2023-cü ilin Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan olunması bütün xalqımız kimi çoxminli BDU kollektivində də xüsusi ovqat yaratmışdır. Hər zaman Ulu Öndərin irsinin təbliğini, bu irsin gənc nəslə aşılanmasını özünün ali məqsədlərindən hesab edən BDU kollektivi "Heydər Əliyev İli"ndə bu istiqamətdə səylərini daha da artırmışdır. Bu məqsədlə BDU-nun Elmi Şurasında Tədbirlər Planı qəbul olunmuşdur. BDU Elmi Şurasının Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş genişləndirilmiş xüsusi iclası keçirilmiş, iclasda xalqımızı ağır sınaqlardan siyasi müdriklik və məharətlə, əzm və iradə ilə, dühasının və idrakının yenilməz gücü ilə çıxarmış, dövlət müstəqilliyinə, tərəqqiyə və dayanıqlı inkişafa qovuşdurmuş Ulu Öndər Heydər Əliyev böyük sevgi və ehtiramla yad olunmuşdur. Ulu Öndərin irsinin beynəlxalq aləmdə təbliği istiqamətində ciddi addımlar atan BDU bu il aprelin 26-da Yeni Azərbaycan Partiyası və Ankara Universiteti ilə birgə "Heydər Əliyev İli"ndə "Gülüstan" sarayında "Müstəqil Azərbaycanın Memarı" adlı beynəlxalq elmi konfrans keçirmişdir. Azərbaycan, Türkiyə və İsraildən olan tanınmış elm adamları, ictimai-siyasi xadimlərin iştirak etdiyi beynəlxalq konfransda Ulu Öndər Heydər Əliyevin zəngin həyat yolu və misilsiz fəaliyyətinin bütün mərhələlərinə həsr olunmuş 100-dən çox məruzə dinlənilmiş, yeni elmi fikirlər, maraqlı faktlar təqdim edilmişdir. Noyabrın 13-də isə Türkiyənin Ankara şəhərində BDU və Ankara Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və Türkiyə Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunmuş "Bir millət, iki dövlət" adlı beynəlxalq elmi konfrans keçirilib.

Ulu Öndərin irsinin bölgələrdə təbliğinə də xüsusi həssaslıqla yanaşılmış, Tərtər və Masallı rayonlarının icra hakimiyyətləri ilə birgə konfranslar keçirilmişdir. Konfranslar çərçivəsində həmçinin Universitet alimləri rayon məktəblilərində Ümummilli Lider Heydər Əliyevin irsi ilə bağlı mühazirələr oxumuş, şagirdləri müdrik rəhbərin zəngin həyat və fəaliyyətini dərindən öyrənməyə, onun əsasını qoyduğu dəyərləri qorumağa və inkişaf etdirməyə səsləmişlər. Eyni zamanda məktəblərə Ulu Öndərin zəngin irsinə həsr olunmuş kitablar hədiyyə edilmişdir.

"Heydər Əliyev İli" münasibətilə BDU-nun Heydər Əliyev Muzeyi və Heydər Əliyev Lektoriyası əsaslı təmir olunaraq ən müasir standartlarla yenidən qurulmuş, elektron lövhələr, məlumat daşıyıcıları ilə təchiz edilmişdir. Əməkdaş və tələbələr arasında Ulu Öndərin zəngin irsi, Azərbaycançılıq ideyasının təbliği, mühazirələrin, müzakirə və dəyirmi masaların təşkili məqsədi ilə müasir informasiya-kommunikasiya avadanlıqları quraşdırılmış, muzey zənginləşdirilmişdir.

"Heydər Əliyev mühazirələri" layihəsi çərçivəsində ölkənin nüfuzlu elm adamları, ictimai xadimlər tələbələrə mühazirələr oxumuşlar. "Ulu Öndər xatirələrdə" layihəsi çərçivəsində isə davamlı olaraq vaxtilə Ulu Öndərlə birlikdə çalışmış, onunla ünsiyyətdə olmuş insanlarla tələbələrin görüşləri təşkil olunur.

BDU əməkdaşları arasında "Ulu Öndər – müstəqil Azərbaycanın qurucusu" adlı məqalə müsabiqəsi, tələbələr arasında "Heydər Əliyev – BDU-nun dünya şöhrətli məzunu" mövzusunda esse müsabiqəsi, eləcə də əməkdaşlar və tələbələr arasında Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş yarışlar, müsabiqələr təşkil edilmişdir.

Tədbirlər Planına uyğun olaraq BDU-da "Heydər Əliyev İli"nə həsr olunmuş, ali məktəb tələbələri arasında Fizika, Riyaziyyat və Kimya fənləri üzrə Respublika Olimpiadaları, 8 idman növü üzrə spartakiada, mədəniyyət və incəsənət festivalları, silsilə mədəni-kütləvi tədbirlər, müsabiqələr və yarışlar keçirilmişdir.

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar BDU-nun Elmi Şurasında qəbul edilmiş Tədbirlər Planında əksini tapan vəzifələrin icrası bu gün də davam edir.

BDU kollektivi həmişə olduğu kimi, bu gün də Ulu Öndərin siyasətini, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi prioritetləri rəhbər tutaraq öz fəaliyyətini davam etdirir və ölkəmizin inkişafı naminə əzmlə çalışır. 104 il əvvəl 2 fakültə, 44 nəfər professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan Universitet hazırda isə 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, 4 elmi-tədqiqat mərkəzi və 21 elmi-tədqiqat laboratoriyası, 2 milyondan çox kitab fondu olan Elmi Kitabxana, 5 muzey, 5 beynəlxalq institut və mərkəz, 1 filial, 1 kollec və 1 liseylə müqəddəs yola davam edən Universitetin uğurları ötən tədris ilində də davam etmişdir. Bəhs olunan dövrdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən Universitetin növbəti akkreditasiyası həyata keçirilmişdir. Ali təhsil müəssisəsinə güclü və zəif tərəflərini müəyyənləşdirməyə və strateji inkişaf proqramı əsasında inkişaf etməyə imkanlar yaradan, əsas məqsədi təhsilin müxtəlif pillələrində keyfiyyətin təminatı sisteminin qurulması hesab olunan akkreditasiya prosesi uğurla başa çatmış, Elm və Təhsil Nazirliyinin Akkreditasiya Şurasının 2023-cü il 8 iyun tarixli qərarı ilə BDU-nun 5 il müddətində akkreditasiya olunması ilə bağlı şəhadətnamə Universitetə təqdim edilmişdir.

Hazırda Universitetdə tədris tarixi ənənələrin və innovativ dünya təcrübəsinin vəhdəti şəklində həyata keçirilir, elmi-tədqiqat işlərinin məzmunu yenilənir, beynəlxalq akademik əlaqələr, eyni zamanda ölkədaxili əməkdaşlıq inkişaf etdirilir.

BDU-nun 2021-2030-cu illər üçün Strateji İnkişaf Planında qarşıya qoyulmuş vəzifələr, prinoritet istiqamətlər əsasında Universitetdə təhsilin inkişafı, elmi tədqiqatların keyfiyyətinin artırılması, idarəetmə sisteminin dinamikliyinin təmin edilməsi məqsədilə müntəzəm olaraq struktur islahatları aparılır, gənc kadrlar məsul vəzifələrə irəli çəkilir. Təhsilalanlar və akademik heyət arasında qarşılıqlı əlaqələr dərinləşdirilir, təhsildə keyfiyyət təminatını, müvafiq proseslərin stimullaşdırılmasını ehtiva edən müasir yanaşmalar tətbiq olunur. Yeni nəsil elm-təhsil proqramlarının sayının artırılması (yeni ixtisas və ixtisaslaşmaların yaradılması), təhsil proqramlarının müntəzəm olaraq yenilənməsi, ixtisaslı kadr hazırlığının keyfiyyətinin artırılması, Universitetin təhsil fəaliyyətinin milli və beynəlxalq meyarlara uyğunluğunun təmin edilməsi, əmək bazarında Universitet məzunlarının rəqabətqabiliyyətliliyinin artırılması, təhsilalanlarda yeni iqtisadi və idarəetmə düşüncə tərzinin formalaşdırılması və s. məqsədilə Universitetin keyfiyyət təminatı siyasəti yenilənmiş, Keyfiyyət Təminatı Mərkəzi yaradılmışdır.

BDU Avropa və dünya tendensiyalarına uyğun qabaqcıl texnologiya və nailiyyətlər səviyyəsində peşəkar sahələrin yaradılması və inkişafını təmin edə bilən mütəxəssislər, elmi və elmi-pedaqoji, mühəndis-texniki kadrlar hazırlayan, sənaye müəssisələri ilə olan mövcud əlaqələri inkişaf etdirməklə elmi nəticələri kommersiyalaşdıran struktura və bazaya malikdir. "Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, BDU-nun H-indeksi artaraq hazırda 59-a yüksəlmişdir. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2018-ci ildə 35-ə, ötən il 52-yə bərabər olmuşdur. Hər bir əsərə istinadların orta sayı isə 7.3-ə qədər yüksəlib.

Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorantları və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 4172 elmi əsər nəşr etdirilib. Bu əsərlərə 30 mindən çox istinad edilib.

2023-ci ilin ilk on ayı ərzində "Web of Science" bazasına daxil olan dərgilərdə BDU tərəfindən nəşr edilmiş 192 elmi əsərə 5000-dən çox istinad edilib. Dərc olunmuş məqalələrdən 4-ü icmal tipli, 20-si ilkin və 86-sı açıq girişə malikdir. Onu da vurğulamaq lazımdır ki, H-indeksi, "Web of Science" bazasına daxil olan dərgilərdəki elmi əsərlərin və istinadların sayına görə BDU Azərbaycan universitetləri arasında liderdir.

Son illər BDU-da dünyanın nüfuzlu universitetləri ilə əməkdaşlıq çərçivəsində bir neçə ikili diplom proqramı həyata keçirilir. BDU "Times Higher Education" beynəlxalq reytinqinə Azərbaycan üzrə daxil olan yeganə, "QS World University Rankings" beynəlxalq reytinqində isə ölkəmizi təmsil edən üç universitetdən biridir.

Son illər Universitetin beynəlxalq əlaqələri də ən müxtəlif platformalarda genişlənməkdə və inkişaf etməkdədir. Ötən tədris ilində Universitetin beynəlxalq əlaqələri də son illərin uğurlu təcrübəsinə və inkişaf dinamikasına uyğun artmışdır. Bəhs olunan dövrdə BDU ilə Türkiyənin Bilkent, Hacettepe, Eskişehir Texniki, Çukurova, Karabük, Üsküdar universitetləri, İsrailin Yerusəlim İbrani Universiteti, Ruminiyanın Alexandru İoan Cuza İasi Universiteti, Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti, Dövlət İncəsənət və Mədəniyyət İnstitutu, Buxara Mühəndislik-Texnologiya İnstitutu, Qazaxıstanın Avrasiya Milli Universiteti və s. çoxsaylı nüfuzlu universitetlər arasında "Erasmus" mübadilə protokolları, əməkdaşlıq sazişləri, bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ikili diplom proqramına dair müqavilələr imzalanmışdır. Həmçinin İsrailin Holon Texnologiya İnstitutu, İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti və Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universiteti ilə ikili diplom proqramının ilk məzunlarının buraxılışı keçirilmişdir. Bütün bunlar BDU-nun dünyanın qabaqcıl elm və təhsil məkanına inteqrasiyasını şərtləndirir və bu prosesi daha da sürətləndirir.

BDU nüfuzlu beynəlxalq təşkilatlarla da əməkdaşlığı özünün proritetlərindən hesab edir və bu istiqamətdə səylərini günbəgün gücləndirir. Nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığı özünün proritetlərindən hesab edən BDU 2022-ci ildə Avropa Universitetlər Assosiasiyasının (EUA) və İslam Dünyasının Universitetləri Federasiyasının (FUIW), 2023-cü ildə isə Beynəlxalq Astronavtika Federasiyasının (IAF) üzvü seçilmişdir. Universitetdə ICESCO-nun Biotibbi materiallar kafedrasının fəaliyyətə başlaması bu baxımdan xüsusi qeyd edilməlidir. Onu da vurğulamaq lazımdır ki, kafedra ICESCO-nun Azərbaycanda ilk ixtisaslaşdırılmış kafedrasıdır. ICESCO ilə elm və təhsil sahəsində sıx əməkdaşlıq sayəsində artıq ikinci kafedra – Süni intellekt etikası kafedrası yaradılır.

BDU ölkəmizdə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq dünya elminin qabaqcıl elmi və təlim-tədris nailiyyətlərindən istifadə etməklə əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması istiqamətində ABŞ, Almaniya, İsrail, İsveçrə, Qazaxıstan və s. kimi ölkələrin qabaqcıl universitet və institutları ilə (Yerusəlim İbrani Universiteti, Holon Texnologiya İnstitutu, Lumiere Lyon 2 Universiteti, Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti, Linkoln Universiteti, Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti və s.) bakalavriat, magistratura, doktorantura pilləsi üzrə 11 beynəlxalq ikili diplom proqramını tətbiq edir. BDU beynəlxalq reytinqlərdə mövqeyini möhkəmləndirir. Ənənəvi olaraq QS, Scimago, WRWU, URAP kimi dünya universitetlərinin beynəlxalq reytinqində təmsil onunan Universitet ölkəmizdən yeganə ali məktəb olaraq nüfuzlu Times Higher Education beynəlxalq reytinqində təmsil olunur.

BDU-da beynəlxalq əlaqələrlə yanaşı, ölkədaxili əməkdaşlığa da xüsusi önəm verilir. Bu əməkdaşlıqlar bilavasitə tədris prosesinin, elmi-tədqiqat fəaliyyətinin səmərəli təşkili, eləcə də məzunların işlə təmin olunmasına xüsusi töhfə verir. Yalnız son ildə Elm və Təhsil Nazirliyinin Fizika, Molekulyar Biologiya və Biotexnologiyalar, Riyaziyyat və Mexanika, akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya və Radiasiya Problemləri institutları, Müdafiə Sənayesi Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi, "LU-MUN HOLDING", "SARA INVEST HOLDING" və s. təşkilatlarla imzalanan memorandum və müqavilələr qarşılıqlı informasiya mübadiləsini, birgə tədqiqatların aparılmasını, analitik-informasiya materiallarının hazırlanmasını, konfransların, seminarların və təlimlərin təşkili üzrə tədbirlərin birgə həyata keçirilməsini və digər əməkdaşlıq istiqamətlərini əhatə edir.

2020-ci ilin sentyabr ayının 27-də mənfur düşmənin növbəti təxribatlarına cavab olaraq başlayan və tarixi Zəfərlə başa çatan Vətən müharibəsində BDU kollektivi, tələbələrimiz və məzunlarımız həm önə, həm də arxa cəbhədə fədakarlıq göstərib. Universitetin çoxsaylı tələbə və məzunu könüllü olaraq cəbhəyə yollanmış, onlardan 22 nəfəri müqəddəs şəhidlik zirvəsinə ucalıb. Universitet rəhbərliyi və kollektivi mütəmadi olaraq şəhid məzun və tələbələrin ailə üzvləri ilə əlaqə saxlayır, Vətən müharibəsindən qalib əsgər kimi qayıtmış və təhsilini davam etdirən tələbələrə xüsusi həssaslıqla yanaşır.

Artıq üçüncü ildir ki, doğma universitetimizin yaradılmasının növbəti ildönümünü torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün təmin olunması şəraitində qeyd edirik. 2023-cü ilin aprel ayının 22-də tarixi qələbələrimizin davamı kimi Laçın sərhəd-keçid məntəqəsi quruldu. Və nəhayət, bu ilin sentyabrında heç 24 saat belə çəkməyən lokal antiterror əməliyyatı ilə düşmənin silahlı dəstələri və separatçı rejimin qalıntıları tamamilə darmadağın edildi.

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən əzəli torpaqlarımız olan Xankəndi, Xocavənd, Xocalı, Ağdərə şəhərlərində, eləcə də Əsgəran qəsəbəsində üçrəngli bayrağımız əbədi ucaldıldı və suverenliyimiz bərpa olundu. Bu möhtəşəm və yekun Qələbə bütün xalqımız kimi BDU-nun çoxminli kollektivini və tələbələrini daha yüksək zirvələrə və nailiyyətlərə ruhlandırır.

Ümummilli Liderimiz Heydər Əliyevin dediyi kimi, "Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır". Onu qorumaq və inkişaf etdirmək hər birimizin borcudur!

***İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi***

# BDU-da "Fizikada müasir trendlər" mövzusunda 8-ci Beynəlxalq elmi konfrans keçirilib



***Noyabrın 30-da BDU-nun ev sahibliyi və təşkilatçılığı, İtaliyanın Milli Nüvə İnstitutu, ABŞ-ın Delavare Universiteti, Pakistanın Lahore Universiteti və COMSATS İslamabad Universiteti, Türkiyənin Ankara Universiteti, Orta Doğu Texniki Universiteti, Qazi Universiteti və Sivas Cümhuriyyət Universitetinin həmtəşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Fizikada müasir trendlər" ("Modern trends in physics") mövzusunda 8-ci Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan haqqında videoçarx nümayiş olunub.

Açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, konfrans Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, Azərbaycanda elmin böyük hamisi Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin qeyd edildiyi "Heydər Əliyev İli"nə təsadüf edir. Konfransın suverenliyimizin tam bərpa olunduğu ildə keçirilməsi onu daha da yaddaqalan edir. Rektor qeyd edib ki, 2009-cu ildən başlayaraq 2 ildən bir keçirilən konfransın materiallar toplusu 2017-ci ildən "Web of Science" bazasında indekslənir. Builki konfransda Azərbaycan, Türkiyə, İsrail, Pakistan, İtaliya, Almaniya, Çin, Makedoniya, Misir, Səudiyyə Ərəbistanı, Mərakeş, Argentina, Rumıniya, Kanada, Macarıstan, Albaniya, Portuqaliya, Sudan, İspaniya, ABŞ, Rusiya, Belçika, Özbəkistan, Ukrayna və Gürcüstan da daxil olmaqla 25 ölkə təmsil olunur. Təşkilat komitəsinin hesabatına əsasən, konfransın proqramına 149 məruzə daxil edilib: "Konfransın əvvəlki illərdə olduğu kimi, gənc tədqiqatçı və alimlər üçün yeni platformalar formalaşdıracağına, mühüm elmi prioritetlər müəyyən edəcəyinə inanırıq. Bugünkü konfransda fizikanın ən aktual problemlərinə toxunulacaq, yeni innovativ yönümlü, istehsalatla bağlı yeni mövzular müzakirə ediləcək, konvergens düşüncəli gənclər - tələbə, magistr və doktorantların məruzələri dinləniləcəkdir. Azərbaycanda elmin prioritet inkişaf istiqamətləri müəyyənləşdirilərkən maddi-mənəvi dəyərlərin qorunması ilə yanaşı, beynəlxalq arenaya sürətli inteqrasiya da xüsusi diqqətdə saxlanılır. Digər tərəfdən, həmişə olduğu kimi, aparılan tədqiqatların səmərəliliyinin artırılmasına, onların nəticələrinin sosial-iqtisadi və sənaye-istehsalat sahələrində tətbiqinin təmin edilməsinə, tədris prosesinə bağlılığına xüsusi önəm verilir.

Bu istiqamətdə ali təhsil müəssisələrinin üzərinə də mühüm vəzifələr düşür. Bakı Dövlət Universiteti də digər ali təhsil müəssisələri kimi, Azərbaycanda elmi-texniki potensialın formalaşması, qorunması, bu potensialdan səmərəli istifadə edilməsində yaxından və uğurla iştirak edir, bu istiqamətdə aparıcı qüvvələrdən birinə çevrilib.

Təbii ki, Universitetdə təşkil edilən elmi fəaliyyətin digər elmi müəssisələrdə və ali məktəblərdə aparılan elmi-tədqiqat fəaliyyəti ilə əlaqələndirilməsinə də xüsusi diqqət edilir.

Böyük qürur hissi ilə bildiririk ki, cənab Prezident İlham Əliyevin sərəncamı ilə Xankəndi şəhərində yaradılan, heç şübhəsiz ki, elm-təhsil mərkəzlərindən birinə çevriləcək Qarabağ Universiteti bu baxımdan xüsusi yerə malik olacaq.

BDU-da kompleks məqsədli proqramların işlənilməsi, Universitetin beynəlxalq elmi layihə və proqramları həyata keçirən güclü mərkəzə çevrilməsi məqsədilə bir sıra mühüm addımlar atılır. Elmi mübadilə çərçivəsində dünyanın nüfuzlu ali məktəblərindən, elm mərkəzlərindən olan xarici alimlərin birgə tədqiqatlara cəlb olunması təcrübəsinin genişləndirilməsinə də önəm verilir.

Son illər müasir dövrün tələblərinə cavab verən yüksək ixtisaslı elmi kadrların hazırlanması sahəsində, xarici ölkələrdə təhsil almaq və təcrübə keçmək yolu ilə peşəkar tədqiqatçılardan ibarət gənc nəslin formalaşması işində müsbət dinamika müşahidə olunur".

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Fizika İnstitutunun baş direktoru Arif Həşimov, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədr müavini Sakin Cabbarov, Bilkent Universitetinin professoru Əmirulla Məmmədov, İtaliyanın Milli Nüvə Fizikası İnstitutunun Frascati Milli Laboratoriyasının müdiri Stefano Bellucci, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru İradə Hüseynova, Rusiyanın Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun Nüvə Problemləri Laboratoriyasının müdiri Yevgeni Yakuşev, Ankara Universitetinin professoru İman Əsgərzadə, Orta Doğu Texniki Universitetinin professoru Təhmasib Əliyev, Makedoniyanın Kiril Metodius İnstitutunun professoru Jadranka Blajevskaya, İstinye Universitetinin Əczaçılıq fakültəsinin dekanı Atilla Akdeniz çıxışlarında fizikanın müxtəlif sahələrinin inkişafında müasir tendensiyaları qeyd edib, konfransın işinə uğurlar arzulayıblar.

Daha sonra Pakistanın Lahor Universitetinin rektoru Muhammad Aşraf, Türkiyənin Sivas Cümhuriyyət Universitetinin rektoru Alim Yıldız, Lənkəran Dövlət Universitetinin rektoru Natiq İbrahimov, COMSATS Universitetinin rektoru Sacid Qamar, ABŞ-ın Delevar Universitetinin professoru İsmət Şah, Qazi Universitetinin professoru Süleyman Özçelik, Ankara Universitetinin prorektoru Mustafa Fener konfrans iştirakçılarına onlayn və video-təbriklər ünvanlayıblar. Video-təbriklərdə konfransın beynəlxalq və ölkə səviyyəsində fizikanın inkişafına töhfə verəcəyinə, yeni fizika məktəblərinin yaranacağına əminlik vurğulanıb.

5 bölmə ilə işini davam etdirən konfrans yekunlaşıb.

# BDU-da Doktorant və gənc tədqiqatçıların XXVI Respublika elmi konfransının açılışı olub

***Noyabrın 17-də Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Doktorant və gənc tədqiqatçıların XXVI Respublika elmi konfransının (NASCO XXVI) açılışı olub.***

Tədbirdən əvvəl konfans iştirakçıları Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsinə dərin ehtiramlarını bildiriblər.




Tədbirin açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, konfrans Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, Azərbaycanda elmin böyük hamisi Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin qeyd edildiyi "Heydər Əliyev İli"nə təsadüf edir. Digər tərəfdən konfransın suverenliyimizin tam bərpa olunduğu ildə keçirilməsi onu daha da yaddaqalan edir. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, etibarlı gələcəyin təminatı elm və təhsilin uğurlu inkişafına bağlıdır. Azərbaycanda elm və təhsil sahəsində uğurlu inkişafın əsas mərhələsi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu dahi şəxsiyyət xalqın intellektual potensialının effektiv təşkilində, elmin dövrün tələblərindən irəli gələn strateji istiqamətlərinin müəyyənləşdirilməsində, fundamental və tətbiqi elm sahələrinin inkişafında müstəsna rol oynayıb. Ulu Öndərin elm və təhsil sahəsində qoyduğu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan dövləti gənclərin elmə marağının və dövlət qayğısının artırılması məqsədilə bir sıra əhəmiyyətli tədbirləri həyata keçirib. Bu tədbirlər həm dövlət səviyyəsində qəbul edilmiş proqramları, həm də ölkə Prezidenti tərəfindən imzalanmış fərman və sərəncamları əhatə edir. Həmçinin, Birinci xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətində elm və təhsilə qayğı mühüm yer tutur.

Rektor diqqətə çatdırıb ki, BDU ölkəmizin əhəmiyyətli elm məbədlərindən biri kimi təhsil və elmi tədqiqat sahəsində böyük nailiyyətlər qazanıb. Qazanılan nailiyyətlərdə gənclərin rolu kifayət qədərdir. Universitetin təcrübəli elmi kadrları, tədqiqat laboratoriyaları və beynəlxalq əməkdaşlıq əlaqələri gənclərin yüksək səviyyəli təhsil almasını təmin edir. Digər ali təhsil müəssisələri kimi BDU-nun əsas məqsədlərindən biri ən yüksək standartlara uyğun şəkildə təhsil verərək ölkəmiz üçün layiqli vətəndaşlar yetişdirməyə nail olmaqdır. Gənclərə göstərilən diqqət və qayğı ölkəmizin gələcəyini inkişaf etdirmək üçün əhəmiyyətli bir addımdır.

Elm və təhsil naziri Emin Əmrullayev konfransın işinə uğurlar arzulayıb. Qeyd edib ki, doktorant və gənc tədqiqatçıların Respublika elmi konfransının 26-cı dəfə keçirilməsi bu sahədə uğurlu ənənənin olması deməkdir. Nazir elmin maliyyələşməsinin bu sahənin inkişafı üçün vacib olduğunu vurğulayıb. O qeyd edib ki, bunun üçün ən optimal və uğurlu variantlardan istifadə edilməlidir: "İnsanın əmək fəaliyyəti onun gündəlik fəaliyyəti ilə sıx bağlı olmalıdır. Elmin maliyyələşməsi ilə bağlı islahatlar aparılmalıdır. Biz prosesin maliyyələşməsindən nailiyyətlərin maliyyələşməsinə keçməliyik. Bu zaman fərqli maliyyələşmə metodlarından istifadə olunmalıdır. Artıq ümumi təhsildə bunun həlli yolunu tapmışıq. Ali və orta ixtisas təhsilində də bununla bağlı yollar axtarılmalıdır".

Nazir diqqətə çatdırıb ki, 2024-cü il elmi siyasətin tətbiqi sahəsində sınaq ili olacaq. Artıq Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi tam fəaliyyətə başlayıb və gələn il həmin qurum tərəfindən bir neçə yeni alət tətbiq olunacaq. Artıq BDU ilə bir neçə elmi-tədqiqat institutu arasında müqavilə imzalanıb. 300-ə qədər gənc xarici ölkələrdə doktorantura təhsili almaq üçün göndərilib: "Gənc tədqiqatçıları qabaqcıl ölkələrə qısamüddətli tədqiqatlara göndərmək də vacibdir. Amma bunun üçün həmin gənclərin ingilis dilini bilmələri vacib şərtdir".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli də konfransın keçirilməsinin önəmini qeyd edib, bunun ölkədə uğurlu elm, təhsil və gənclər siyasətinin bariz nümunəsi olduğunu vurğulayıb. O diqqətə çatdırıb ki, konfrans materialları arasında Qarabağla, Qərbi Azərbaycanla, Böyük Qayıdışla, Vətən müharibəsi ilə bağlı mövzuların üstünlük təşkil etməsi də çox təqdirəlayiqdir.

Təhsil İnstitutunun direktoru səlahiyyətlərini icra edən Elnur Əliyev isə diqqətə çatdırıb ki, konfransa ümumilikdə 279 elmi məqalə təqdim olunub. Onlardan 216-sı qəbul olunub. Konfransa 24 yerli, 7 xarici ali təhsil, 23 elmi-tədqiqat müəssisəsindən məqalələr verilib. Təqdim olunan məqalələrin böyük əksəriyyəti iqtisadiyyat və idarəetmə, filologiya və mədəniyyətşünaslıq, pedaqogika, psixologiya, tarix, hüquq və s. sahələri əhatə edir.

Çıxışlardan sonra BDU-nun Mədəniyyət Yaradıcılıq Mərkəzinin hazırladığı bədii proqram nümayiş olunub.

Elmi konfrans panellər və bölmə iclasları ilə davam etdirilib.

# XXII Bakı yapon dili natiqlik müsabiqəsi keçirilib

***Noyabrın 20-də BDU-nun təşkilatçılığı, Yaponiyanın Azərbaycandakı səfirliyi, Bakı Yaponlar Cəmiyyəti və ölkədə fəaliyyət göstərən yapon şirkətlərinin dəstəyi ilə XXII Bakı yapon dili natiqlik müsabiqəsi təşkil edilib. Müsabiqədə ölkənin müxtəlif ali təhsil müəssisələrinin tələbələrinin yapon dili üzrə bacarıqları nümayiş olunub.***



Müsabiqədə BDU-nun Şərqşünaslıq fakültəsindən 6, Azərbaycan Dillər Universitetindən (ADU) 3, Azərbaycan Dövlət Neft və Sənaye Universitetindən (ADNSU) 1 tələbə iştirak edib.

BDU-nun rektoru Elçin Babayev müsabiqə iştirakçılarını təbrik edib, onlara uğurlar arzulayıb. Rektor BDU ilə Yaponiyanın Azərbaycandakı səfirliyi arasında əməkdaşlığın daha da inkişaf etdiriləcəyini deyib.

Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vada Cuniçi müsabiqənin təşkilinə görə BDU rəhbərliyinə təşəkkür edib. Səfir bildirib ki, mütəmadi keçirilən müsabiqə tələbələrin yapon dilini mənimsəmə səviyyəsinə müsbət təsir edir. O, Yaponiya səfirliyinin Azərbaycanda yapon dilinin yayılmasına bundan sonra da dəstək verəcəyini qeyd edib.

Münsiflər Heyətinin qərarına əsasən, ADNSU-nun tələbəsi Kamila Muradxanlı I,BDU-nun tələbələri Sakit Quluzadə II, Mədinə Novruzova III, Elşad Bayramov IV, ADU-nun tələbəsi Mayisə Kərimova V, BDU-nun tələbəsi Teyyub Cəfərov VI yerə layiq görülüblər.

Müsabiqənin iştirakçılarına səfirliyin sertifikatları, qaliblərə isə sertifikatlar və hədiyyələr təqdim edilib.

Yapon dili üzrə natiqlik müsabiqəsinin əsas məqsədi tələbələrə bilik və bacarıqlarının nümayiş etdirilməsi üçün şərait yaratmaq, onlarda bu dilə olan marağı artırmaqdır.

# Azərbaycanla Gürcüstan arasında elm və təhsil sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub

***Noyabrın 28-də Tbilisidə səfərdə olan Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini Həsən Həsənlinin rəhbərlik etdiyi nümayəndə heyəti bu gün Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari ilə görüşüb.***

Görüşdə Azərbaycanla Gürcüstan arasında elm və təhsil sahəsində əməkdaşlığın perspektivləri diqqət mərkəzində olub. Söhbət zamanı iki ölkənin müvafiq universitetləri arasında müəllim və tələbə mübadiləsi, birgə elmi araşdırmaların aparılması və s. məsələlər barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanla Gürcüstan arasında elm və təhsil sahəsində əməkdaşlığın daha da genişlənməsi və inkişafı baxımından qarşılıqlı səfərlərin sayının artırılmasının vacibliyi qeyd edilib.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, elm və təhsil nazirinin müşaviri Simuzər Feyzullayeva, Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev, Elm və Təhsil Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Departamentinin rəhbəri Tural Əhmədov, BDU-nun Tədrisin təşkili və idarə olunması Mərkəzinin rəhbəri Elçin Məmmədov iştirak ediblər.

# "QS Quacquarelli Symonds" Reytinq Agentliyi BDU əməkdaşları üçün təlim keçirib

***Noyabrın 29-da BDU əməkdaşları üçün nüfuzlu "QS Quacquarelli Symonds" Reytinq Agentliyi tərəfindən təlim təşkil edilib. Onlayn təşkil olunmuş təlimdə açılış nitqi ilə çıxış edən rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov müxtəlif kateqoriyalarda QS reytinq nəticələrinin BDU üçün əhəmiyyətindən bəhs edib, təlim iştirakçılarına uğurlar arzulayıb.***

Təlimdə QS Reytinq Agentliyinin nümayəndələri tərəfindən Agentliyin fəaliyyətinə və "QS Europe Ranking" kateqoriyasına dair geniş məlumat verilib, eləcə də müvafiq kateqoriya üzrə göstəricilər əsasında BDU-nun mövcud vəziyyəti bir sıra xarici ali təhsil müəssisələri ilə müqayisəli təhlil edilib. Daha sonra Agentliyin nümayəndələri tərəfindən iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Məlumat üçün bildirək ki, "QS Europe 2023" reytinqi üzrə BDU fakültə-tələbə nisbətinə görə Avropa üzrə 90-cı, Azərbaycan üzrə isə 1-ci yerdə qərarlaşıb.

# Vətən müharibəsi şəhidləri haqqında filmlərin təqdimatı olub

*Noyabrın 2-də BDU-da "Demokratik Azərbaycan Naminə" Gənclərin İctimai Birliyinin (DANİB) Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Bir ölər, min dirilərik" layihəsi çərçivəsində hazırladığı filmlərin təqdimat mərasimi keçirilib.* Layihə Vətən uğrunda döyüşlərdə şücaət göstərmiş qəhrəmanların tanıdılmasına xidmət edir.



Toplantıda çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Vətən müharibəsinin çağdaş dövrümüzün ən şanlı səhifəsi olduğunu bildirib, Azərbaycan gəncliyinin ərazi bütövlüyümüzün bərpası üçün göstərdiyi qəhrəmanlıqların əsrlər keçsə də, unudulmayacağını deyib. O, BDU-da vətənpərvərlik ruhunun təbliği sahəsinə görülən işlərdən danışıb və bundan sonra da şəhidlərimizin xatirəsinin yaşadılması üçün davamlı tədbirlər keçiriləcəyini qeyd edib.

Təqdimat mərasimində DANİB sədri Elməddin Behbud bildirib ki, layihənin məqsədi Azərbaycan Ordusunun Vətən müharibəsində göstərdiyi igidliyi yeniyetmə və gənclərə çatdırmaqla vətənpərvərlik ruhunu yüksəltmək və Azərbaycanın müasir tarixinin zəfər salnaməsini olduğu kimi təbliğ etməkdir. Təşkilat sədri hamının Prezident İlham Əliyevin "Biz Qələbəni şəhidlərimizə, müharibə əlillərinə, müharibə iştirakçılarına borcluyuq" fikrindən nümunə götürərək, xalqımıza Zəfər bəxş edən vətən övladlarını daim diqqətdə saxlamalı olduğunu vurğulayıb. Elməddin Behbud layihənin icrası çərçivəsində görülən işlər, şəhidlərlə bağlı filmlərin hazırlanması üçün aparılan araşdırmalar, Bakıda və Naxçıvandakı çəkilişlər barədə məlumat verib. Filmlərdə şəhidlərin ailə üzvləri, döyüş yoldaşları və dostlarının xatirələri yer alıb. Layihə çərçivəsinə 3 film hazırlanıb. Bunlar şəhid Nurəhməd Ulubəyova həsr olunan "Nur üzlü qəhrəman", şəhid Hüseyn Tağıyevdən bəhs edən "Şəhidlik vurğunu", şəhid Zaman Məmmədova ithaf olunmuş "Zamana meydan oxuyan Zaman" filmləridir.

Gənclər və idman nazirinin müavini İndira Hacıyeva şəhid və qazilərimizin yalnız ərazilərimizi düşməndən azad etmədiyini, həm də gələcək nəsillər üçün əvəzsiz və misilsiz şəxsi qəhrəmanlıq örnəkləri, yüksək mənəvi irs qoyduqlarını vurğulayıb. Nazir müavini Vətən sevgisini tərənnüm edən belə filmlərin hazırlanmasının şəhid ailələrinə kiçik təskinlik olduğunu deyib.

Şəhid Nurəhməd Ulubəyovun ailəsi adından çıxış edən Ramiz Fərzəliyev şəhidlərimizə göstərilən ehtirama görə təşkilatçılara təşəkkürünü çatdırıb.

Sonra filmlərə baxış keçirilib.

# BDU-da görüş: "44 günlük Vətən müharibəsində Azərbaycan jurnalistikasının rolu"

*Noyabrın 2-də Jurnalistika fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşəbbüsü ilə "Azxeber.com" informasiya saytının rəhbərləri, fakültənin məzunları, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Hacıbəy Heydərli və Əfsələddin Ağalarovla "44 günlük Vətən müharibəsində Azərbaycan jurnalistikasının rolu" mövzusunda görüş keçirilib.*

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev Vətən müharibəsində informasiya savaşının mühüm məqamlarına toxunub. Qeyd edib ki, həm Vətən müharibəsi dövründə, həm ondan sonrakı dönəmdə Azərbaycan tərəfi öz həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün bütün kütləvi kommunikasiya vasitələrindən, həmçinin mümkün olan vasitələrdən maksimum istifadə edib.



BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli həmin günlərdə səngərdə Vətənin keşiyində duran oğullarımızın silahları ilə, arxa cəhbədə media nümayəndələrinin qələmləri ilə tanındığını, şanlı Zəfərimizi yazılarında, xəbərlərində vicdanla, düzgünlüklə, prinsiplərə sadiq qalaraq ifadə etdiklərini deyib. Cahangir Məmmədli postmüharibə dövründə də davam edən informasiya savaşında Azərbaycan jurnalistlərinin ölkəmizi daim layiqli şəkildə müdafiə etdiklərini və haqq işimizə töhfə verdiklərini bildirib.

Media rəhbərləri Hacıbəy Heydərli və Əfsələddin Ağalarov öncə tələbəlik illərinə aid xatirələrini bölüşüblər. BDU-nun Jurnalistika fakültəsinin ölkə mediası üçün yararlı kadrlar hazırladığını və nəzəri biliklərlə yanaşı, praktik bacarıqlar əldə etmək üçün geniş imkanlar açdığını bildiriblər. Qonaqlar Vətən müharibəsi dövründə həm rəsmi, həm də özəl media subyektlərinin fəaliyyətindən, saytlara olan kiber hücumlardan, onların qarşısının necə alındığından danışıblar. Qeyd ediblər ki, informasiya ilə dövlət sirri arasında çox incə bir xətt var. Bunu müəyyən etmək peşəkarlıqla yanaşı, Vətənə məhəbbət hissi tələb edir. Azərbaycan jurnalistlərinin həm Vətən müharibəsi dövründə cəbhədə, həm də informasiya savaşında göstərdikləri yüksək səy təqdirəlayiqdir.

Sonda tələbələr onları maraqlandıran sualları qonaqlara ünvanlayıblar. Görüş diskussiya ilə başa çatıb.

# Mexanika-riyaziyyat fakültəsində Zəfər Günü münasibətilə tədbir keçirilib

*Noyabrın 2-də Mexanika-riyaziyyat fakültəsində 8 Noyabr - Zəfər Günü münasibətilə tədbir keçirilib.*

Tədbirdə çıxış edən Mexanika-riyaziyyat fakültəsinin dekanı Ziyatxan Əliyev qeyd edib ki, Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin mahir sərkərdəliyi, şəhidlərimizin canı, qazilərimizin qanı ilə qazandığı tarixi Zəfərin qürurunu yaşayır. 2020-ci ilin 8 noyabrında milli qürurumuzun rəmzi olan Şuşanın azad olunması ilə 44 günlük Zəfər yürüşümüz öz zirvəsinə çatıb. Ziyatxan Əliyev Universitetin şəhid məzun və tələbələrinin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin əhəmiyyətindən danışıb. O, şəhid ailələri və müharibə iştirakçılarının dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu qeyd edib.

Dekan müavini Etibar Əhmədov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə cəmi 44 gün sürən hərbi əməliyyatlar nəticəsində rəşadətli Ordumuz 30 il erməni əsarətində olan torpaqlarımızı azad edərək regionda yeni reallıq yaradıb. Vətən müharibəsində qazanılan Zəfərlə Azərbaycan dövləti qalib dövlət, Azərbaycan xalqı isə qəhrəman xalq olduğunu sübuta yetirib. Vətən müharibəsində qazanılan şanlı Qələbə tarixi ədaləti bərpa etməklə yanaşı, Cənubi Qafqazda sülh üçün də etibarlı zəmin yaradır.

Müharibə iştirakçısı Nazim Quliyev Vətən müharibəsi və antiterror əməliyyatları haqqında geniş məruzə ilə çıxış edib, Zəfərə gedən yoldan, ordumuzun hərbi gücü, əsgərlərimizin şücaəti, Azərbaycan dövlətinin şəhid ailələrinə və müharibə iştirakçılarına diqqət və qayğısından danışıb.

Vətən müharibəsinin iştirakçıları Hicran Həmzəyev, fakültənin müəllimi Fərid Əsədov, məzunu Mirvahid Ağayev çıxışlarında keçdikləri döyüş yolundan bəhs ediblər.

Tədbirin sonunda fakültənin III kurs tələbəsi Qureyş Qədirli şəhid övladlarının atalarına yazdıqları məktubları səsləndirib.

# Tələbə Gənclər Təşkilatının "Qələbəyə gedən 44 gün" adlı tədbiri keçirilib



*Noyabrın 6-da BDU-nun Tələbə Gənclər Təşkilatı tərəfindən "Qələbəyə gedən 44 gün" adlı tədbir keçirilib.*

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi anılıb.

Tədbirdə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov sentyabrın 27-də başlayan, işğal altındakı ərazilərimizin azad edilməsi ilə nəticələnən Vətən müharibəsinin tariximizin ən parlaq səhifəsi olduğunu, Lider-Xalq-Ordu birliyinin qələbəmizin əsasını təşkil etdiyini vurğulayıb. Bildirib ki, Vətən müharibəsində şanlı Zəfərdən sonra bu il sentyabrın 19-da Ordumuzun 24 saatlıq antiterror əməliyyatı nəticəsində erməni separatizmi tamamilə məhv edildi, suverenliyimiz bərpa olundu. Daha sonra Ramin Səmədov Vətən müharibəsində Universitetin tələbə və məzunlarının rolunu diqqətə çatdırıb, şəhid ailələri və qazilərə göstərilən dəstəkdən bəhs edib.

Tədbir tələbələrin hazırladığı ədəbi-bədii hissə ilə davam edib.

# BDU və Avropa Şurasının Azərbaycandakı ofisi Beynəlxalq konfrans keçirib

*Noyabrın 20-də Hüquq fakültəsi və Avropa Şurasının (AŞ) Azərbaycan Respublikasındakı ofisinin təşkilatçılığı ilə Avropa İnsan Hüquqları Konvensiyasının qüvvəyə minməsinin 70 illiyinə həsr olunmuş “Avropa İnsan Hüquqları Konvensiyası və Azərbaycan: nailiyyətlər və perspektivlər” mövzusunda beynəlxalq konfrans keçirilib.*



Konfransı açıq elan edən AŞ-nin Azərbaycandakı ofisinin rəhbəri, səfir Petr Zix Hüquq fakültəsi ilə Avropa Şurasının əməkdaşlığını təqdirəlayiq hal kimi qiymətləndirib. Avropa İnsan Hüquqları Məhkəməsinin və Avropa Konvensiyasının hüquqi statusu və mahiyyəti barədə məlumat verib. Konfransın moderatoru, Ədliyyə Nazirliyinin İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitova insan hüquq və azadlıqlarının təminatında Avropa Məhkəməsinin rolu və Avropa Konvensiyasının əhəmiyyəti haqqında ətraflı məruzə edib.

Hüquq fakültəsinin dekanı Zaur Əliyev Avropa Konvensiyasının ratifikasiyasının Azərbaycan üçün hüquqi əhəmiyyəti, eləcə də insan hüquq və əsas azadlıqlarının təminatı baxımından xüsusi rolundan bəhs edib. Hüquq fakültəsinin AŞ-nin Bakı ofisi ilə birgə “Avropa İnsan Hüquqları Konvensiyası-70” devizi ilə maarifləndirmə kampaniyası barədə məlumat verən dekan Avropa Şurasının ekspertlərinin, Avropa İnsan Hüquqları Məhkəməsinin hakimlərinin, o cümlədən fakültənin professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə silsilə təlimlərin keçirildiyini diqqətə çatdırıb. “Heydər Əliyev İli” çərçivəsində Hüquq fakültəsi tərəfindən “Ulu Öndər Heydər Əliyevin hüquqi islahatları” adlı maarifləndirmə kampaniyasına başlanıldığını bildirən dekan bu məqsədlə tələbələr tərəfindən qısa videoçarxların hazırlandığını qeyd edib.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, dövlət bayrağımızın ölkəmizin hər bir guşəsində, o cümlədən Xankəndidə, Xocalıda dalğalandığını bildirən fakültə dekanı Avropa Konvensiyasının artıq Azərbaycanın bütün ərazisində qüvvədə olduğunu vurğulayıb.

Konfrans öz işini çıxışlar, təqdimatlar və məruzələrlə davam etdirib. Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynov “İnsan hüquqlarının və azadlıqlarının müdafiəsində Avropa İnsan Hüquqları Məhkəməsinin rolu”, Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov “Avropa İnsan Hüquqları Məhkəməsi və Azərbaycan”, Konstitusiya Məhkəməsinin hakimi Ceyhun Qaracayev “Avropa İnsan Hüquqları Konvensiyasının konstitusiya ədalət mühakiməsinə təsiri”, Milli Məclisin deputatları Bəhruz Məhərrəmov “Azərbaycanın Avropa hüquq məkanına inteqrasiyasında Ulu Öndərin rolu”, AŞPA İnsan Hüquqları Altkomitəsinin sədri Kamal Cəfərov “Avropa Şurası Parlament Assambleyası və Azərbaycan”, Avropa İnsan Hüquqları Məhkəməsi Katibliyinin baş hüquqşünası Xaqani Quliyev “Avropa İnsan Hüquqları Konvensiyasının beynəlxalq hüquqda yeri”, Vəkillər Kollegiyasının sədr müavini Şahmar Məmmədov “Avropa İnsan Hüquqları Konvensiyasının təşviqində Vəkillər Kollegiyasının rolu”, Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilov “Keyfiyyətli hüquq xidmətlərinin təmin edilməsində mediasiyanın unikal yeri və rolu” mövzularında məruzələr ediblər.

Sonra Hüquq fakültəsinin IV kurs tələbəsi Səyad Ələkbərov “Tələbədən tələbəyə” layihəsi çərçivəsində Avropa İnsan Hüquqları Konvensiyasının tədrisi haqqında ətraflı məlumat verib.

Müzakirələr bölməsində çıxış edən Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının müdiri Firuzə Abbasova, Kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri Kamil Səlimov Qərbi azərbaycanlıların pozulmuş hüquqlarının bərpası ilə bağlı Avropa Şurası və Avropa Məhkəməsinin yanaşması, keyfiyyətli hüquqi yardımın təşkili barəsində öz mövqelərini bildiriblər.

Konfransın işində hakimlər, vəkillər, vətəndaş cəmiyyəti institutları və media nümayəndələri ilə yanaşı, Hüquq fakültəsinin professor-müəllim heyəti və tələbələri də iştirak ediblər.

Konfransın yekununda Avropa Şurasının Azərbaycandakı ofisinin rəhbəri, səfir Petr Zix və Ədliyyə Nazirliyinin İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitova dekan tərəfindən Hüquq fakültəsinin 95 illiyi münasibətilə fəxri fərmanla təltif ediliblər.

# BDU-nun əlcəzairli doktorantı Azərbaycanın ali məktəb kitabxanalarının iş metodlarını tədqiq edib

***Noyabrın 22-də İnformasiya və sənəd menecmenti fakültəsində “Ali məktəb kitabxanalarının menecmenti: icmal və qiymətləndirmə” mövzusunda elmi seminar keçirilib.*** Elmi seminarda BDU-nun Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının doktorantı, Əlcəzair Xalq Demokratik Respublikasının vətəndaşı Lemounes Nour El Houda Djoumana mövzu ilə bağlı məruzə edib.

Gənc tədqiqatçı əvvəlcə kitabxana menecmenti anlayışını izah edib, kitabxanaların idarə olunmasına tətbiq olunan innovativ iş metodları barədə məlumat verib. Bildirib ki, müasir kitabxana menecmentinin əsas məqsədi kitabxana fondlarının səmərəli təşkili, kataloqlaşdırılması, dövriyyəsi və eyni zamanda məlumat axtarışını asanlaşdırmaq kimi mühüm funksiyaları həyata keçirməkdən ibarətdir. Həmçinin ali məktəb kitabxanalarının menecmentindən bəhs edən doktorant bu kitabxanaların oxucularının yüksək akademik səviyyəsi ilə fərqləndiyi üçün onlara göstərilən informasiya xidmətinin spesifik xüsusiyyətlərə malik olduğunu, universitet kitabxanalarının müəssisənin akademik mühitinin fomalaşmasında aparıcı rol oynadığını, səmərəli elmi tədqiqat fəaliyyətinin həyata keçirilməsinə mühüm töhfələr verdiyini deyib.

Məruzədə vurğulanıb ki, Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemləri (AKİS-lər) ali təhsil müəssisələrində kitabxana fəaliyyətinin müasirləşdirilməsi və xidmət səviyyəsinin səmərəliliyinin artırılmasında mühüm rol oynayır. Bunun nəticəsində isə istifadəçilərin tələbatı dolğun şəkildə təmin olunur.

Tədqiqatda ölkəmizin ali məktəblərinin kitabxanalarında tətbiq edilən iş metodları, həmçinin Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemləri barədə ətraflı məlumat verilib. Müxtəlif ali məktəblərin kitabxanaları arasında müqayisəli təhlilər aparılıb. Əsasən BDU-nun Elmi Kitabxanası, ADA Universitetinin Kitabxanası və UNEC Kitabxana İnformasiya Mərkəzinin iş təcrübəsi əsasında hazırlanmış məruzədə hər üç ali təhsil müəssisəsinin kitabxanalarında aparılan rəqəmsallaşdırma prosesləri şərh olunub. Tədqiqat obyekti olan kitabxanaların strukturu, sənəd dövriyyəsi, kitab fondu, elektron kataloqu barədə iştirakçılara ətraflı məlumat verilib.

Elmi seminar müzakirələrlə davam etdirilib.

# BDU tələbələri üçün süni intellektə dair infosessiya

*Belə təlimlərin keçirilməsinin tələbələrin əmək bazarına uğurlu adaptasiyasının təmin edilməsi, onlara düzgün karyera quruculuğu üçün istiqamət verilməsində müsbət rol oynadığı vurğulanıb.*

*Noyabrın 24-də BDU-nun Karyera və məzunlarla əlaqə sektoru tərəfindən tələbələr üçün süni intellektə dair “Dərin öyrənmə və maşın öyrənməsi” mövzusunda infosessiya keçirilib.*

BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov tələbələrə süni intellektin həyatımızda mühüm rol oynadığını, əmək bazarının tələblərinə diqtə edən əsaslardan biri olduğunu deyib. Belə təlimlərin keçirilməsinin tələbələrin əmək bazarına uğurlu adaptasiyasının təmin edilməsi, onlara düzgün karyera quruculuğu üçün istiqamət verilməsində müsbət rol oynadığını vurğulayıb.

BDU-nun İnformasiya Texnologiyaları Mərkəzinin baş mütəxəssisi Nuriyyə Mustafayevaya Datanın analizi, işlənmə prosesi, tələbləri, toplanması, təmizlənməsi, modelləşdirmə və alqoritmlər haqqında məlumat verib. Data Analizin faydalı məlumatları tapmaqda, nəticə çıxartmaqda, məlumatları tədqiq etməkdə, modelləşdirməkdə istifadə olunan proses olduğunu bildirib.

Daha sonra Azerconnect şirkətinin əməkdaşı Nihat Abdullayev “Dərin öyrənmə və maşın öyrənməsi” mövzusunda təqdimat edib. Qeyd edib ki, bu gün iş dünyasında daha çox istifadə olunan “Süni intellekt” ifadəsinin müəyyən qədər Big Data “inqilabından” qaynaqlanır. Belə ki, məlumatın çoxluğu intensiv tədqiqata icazə verdiyindən, intensiv tədqiqat işinə maşınların insanlardan daha uyğun olduğu müəyyənləşib. İnsanlar üçün yeganə iş bu maşınları daha səmərəli tədqiq etmək, hər bir şeyi təmin etmək üçün mümkün qədər “daha ağıllı” etməyə çalışmaq olub. Nəticədə, həmin ağıllı maşınlar, yəni süni intellekt yaranıb.

Çıxış edən “Google Developers Group”un üzvü Malik Məmmədli İT texnologiyaların bazarda yeri haqqında məlumat verib. “Google” və digər böyük şirkətlərin tələbələr üçün olan proqramlarından bəhs edərək, tələbələri bu cür könüllük proqramlarına qoşulmağa səsləyib.

İnfosessiyada iştirakçıların mövzu ətrafında çoxsaylı suallarının cavablandırılması ilə başa çatıb.

# Vergi hüququ üzrə yeni kitab nəşr edilib

***Noyabrın 24-də Hüquq fakültəsinin Mülki proses və kommersiya hüququ kafedrasının müəllimi, «Caspian Legal Center» şirkətinin rəhbəri Fərid Nəbilinin “Vergi hüququ” kitabının təqdimatı keçirilib.***

BDU-nun Hüquq fakültəsinin dekanı Zaur Əliyev bu cür nəşrlərin hüquq nəzəriyyəsi sistemi üçün əvəzsiz töhfə olduğunu, 2021-ci ildən Hüquq fakültəsinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə əməkdaşlığı çərçivəsində yaradılmış “Vergi hüququ” magistratura ixtisaslaşması üzrə təhsil alan magistrantlar üçün belə bir dərsliyin əhəmiyyətli olduğunu bildirib.

Mülki proses və kommersiya hüququ kafedrasının müdiri Əsmər Əliyeva və müəllimi, Dövlət Vergi Xidmətinin Hüquq Baş İdarəsinin rəis müavini Ramiz Qasımzadə hüququn yeni yaranmaqda olan sahələrindən olan vergi hüququnun əhəmiyyətindən danışıb, bu kontekstdə dərc olunmuş yeni kitabın əhəmiyyətli rol oynadığını, vergi hüququnun tədrisinin olduğunu qeyd ediblər.

Sonra kitabın müəllifi Fərid Nəbili müasir vergi hüququnun problemləri, vergi qanunvericiliyindəki boşluqlar, vergi mübahisələrinə baxılarkən formalaşmış məhkəmə təcrübəsi barədə təqdimatla çıxış edib, tələbələr maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

# BDU-da ilk dərsin başlamasının 104 illiyi münasibətilə xüsusi mühazirələr deyilib

***Noyabrın 15-də BDU-nun fakültələrində Universitetdə ilk dərsin başlamasının 104 illiyi münasibətilə xüsusi mühazirələr keçilib.***

Mühazirələr zamanı tələbələrə Universitetin şərəfli tarixi barədə məlumat verilib. Qeyd olunub ki, 104 il ərzində BDU Azərbaycan xalqının övladlarına ali təhsil vermək, Vətənimizin dünya elm və mədəniyyət məkanında layiqli yer tutmasını təmin etmək kimi ən uca missiyanı layiqincə yerinə yetirib. Universitetin məzunu olan 200 mindən artıq yüksəkixtisaslı kadr ölkəmizi bütün sahələrdə ləyaqətlə təmsil edib. BDU-nun ən böyük məzunu isə bu il 100 illik yubileyini böyük fəxrlə qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevdir. O, BDU-nu "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırıb, Universitetin xeyirxahı və hamisi, eyni zamanda məzunu kimi qayğısını əsirgəməyib. Bu gün isə həmin tarixi missiyanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev davam etdirir. BDU möhtərəm Prezidentimiz və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hərtərəfli qayğısı ilə əhatə olunub.



Mühazirələrdə vurğulanıb ki, 1919-cu il noyabrın 15-i Universitetdə ilk dərs günü elan olunub. Universitet ilk tədris ilini 2 fakültə (Tarix-filologiya, Tibb fakültələri) və 1094 tələbə ilə başlayıb. Universitetin ilk rektoru Kazan Universitetinin professoru, məşhur cərrah Vasili İvanoviç Razumovski olub. BDU öz fəaliyyətinin bütün dövrlərində ölkənin əsas elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər göstərmiş mərkəz rolunu oynayıb.

# Doktorant və gənc tədqiqatçıların XXVI Respublika elmi konfransında 200-ə yaxın mövzu müzakirə edilib

***Noyabrın 18-də Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Doktorant və gənc tədqiqatçıların XXVI Respublika elmi konfransında (NASCO XXVI) "Riyaziyyat və İKT", "Tibb elmləri", "Mühəndislik", "Təbiət elmləri", "İqtisadiyyat və idarəetmə", "Pedaqogika və psixologiya", "Tarix, fəlsəfə, hüquq, siyasi elmlər və sosiologiya", "Filologiya və mədəniyyətşünaslıq" bölmələrində 200-ə yaxın məruzə dinlənilib.***

Tanınmış professor-müəllimlərin iştirakı ilə keçirilən bölmə iclaslarında məruzələr ətrafında fikir mübadiləsi aparılıb, aparılan tədqiqatlar üzrə doktorantlara məsləhət və tövsiyələr verilib. Onkoloji xəstəliklərin yeni müasir metodlarla müalicəsi, müxtəlif sənaye sahələrində proqramlaşdırma dillərinin tətbiqi, mühəndis qurğularında innovativ tətbiqlər, yeni materiallar, müəllimlərin peşəkarlığının artırılması, bibliometrik təhlillər, dilşünaslıq, sənaye parklarının yaradılması problemləri, rəqəmsallaşma, logistika, yaşıl enerji, sosial işin təşkili, təhsil hüququ, elektron hökumət və s. kimi mövzular üzrə alınmış nəticələr ətrafında fikir mübadiləsi aparılıb, verilən suallar cavablandırılıb.

# Audiovizual Şuranın əməkdaşları ilə görüş keçirilib

***Noyabrın 24-də Azərbaycan Respublikası Audiovizual Şurası, Medianın İnkişafı Agentliyi və Bakı Dövlət Universiteti (BDU) arasında imzalanan Anlaşma Memorandumuna uyğun olaraq Şura əməkdaşlarının BDU-nun Jurnalistika fakültəsinin tələbələri ilə görüşü keçirilib.***

Çıxış edən Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev bu görüşün əhəmiyyətini, audiovizual media və onun tənzimlənməsi məsələlərinin tələbələr arasında böyük maraq doğuran mövzu olmasını, bu sahədə daha çox məlumat əldə etməyin zəruriliyini vurğulayıb.

Daha sonra Şura aparatının rəhbəri Fazil Novruzov Azərbaycan Respublikası Audiovizual Şurasının öz fəaliyyətində BDU tələbələri ilə sıx kommunikasiyaya böyük önəm verdiyini, jurnalistika ixtisası üzrə təhsil alan gənclərdə audiovizual media tənzimlənməsi üzrə məlumatlılığın artırılmasına səy göstərilməsinin vacibliyini qeyd edib.

Eyni zamanda, Fazil Novruzov son zamanlar media sahəsində həyata keçirilən islahatların davamı olaraq audiovizual mediada əqli mülkiyyətin qorunması tədbirlərinin gücləndirilməsinin zəruriliyinə də toxunub.



Sonra Audiovizual Şuranın hüquq xidmətinin əməkdaşları Ayxan Sadıqlı və Kamran Əliyev "Azərbaycanda audiovizual media və onun tənzimlənməsi" mövzusunda geniş təqdimatla çıxış ediblər.

Təqdimatdan sonra audiovizual medianın tənzimlənməsi üzrə tələbələri maraqlandıran digər məsələlərlə bağlı suallar cavablandırılıb.

# Maliyyə Nazirliyinin nümayəndələri ilə tələbələrin görüşü

***Noyabrın 28-də BDU-nun Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin sonuncu kurs tələbələrinin Maliyyə Nazirliyinin əməkdaşları ilə görüşü keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov universitetlə dövlət və özəl müəssisələr arasında qurulan əməkdaşlığın, həmçinin karyera quruculuğu yönündə bu tip tədbirlərin təşkilinin tələbələr üçün əhəmiyyətindən danışıb. Çıxışlarda Maliyyə Nazirliyinin tarixi, fəaliyyət istiqamətləri, strukturu, işə (dövlət qulluğuna) qəbul qaydalarının əsas prinsipləri, mərhələləri, dövlət qulluğunun üstünlükləri və s. barədə məlumat verilib. Görüşdə sonuncu kurs tələbələrinin təcrübə mübadiləsi kimi məsələlərə toxunulub, onların sualları ətraflı cavablandırılıb.

# Şirvan Milli Parkında ceyran populyasiyasının sosial strukturu öyrənilib

***Noyabrın 15-də Ekologiya və torpaqşünaslıq fakültəsində növbəti elmi seminar keçirilib. Seminarda Bioekologiya kafedrasının doktorantı Sevinc Saruxanovanın "Şirvan Milli Parkında ceyran populyasiyasının (Gazella subgutturosa Guldenstaedt, 1970) sosial strukturu" mövzusunda məruzəsi dinlənilib.***

Sevinc Saruxanova ceyranların tarixən Şərqi Qafqazda Kür-Araz ovalığında və Abşeron yarımadasında geniş yayıldığını, zamanla Xəzər dənizinin səviyyəsinin dəyişməsi, Kür-Araz çaylarının gətirdiyi çöküntülər, tektonik proseslər, iqlim dəyişmələri nəticəsində bitki örtüyünün təbii uyğunlaşması, antropogen təsirlər və s. amillərin ceyranların sayına və arealının ölçüsünə təsir etdiyini bildirib: "1960-cı ildə aparılmış aviasayğı zamanı respublika ərazisində cəmi 131 baş ceyran qeydə alınıb. Təcili olaraq bu növün xilas edilməsi üçün xüsusi mühafizə tədbirləri həyata keçirilib. Bunun üçün də ceyranın yayıldığı ərazilərdə yeni xüsusi mühafizə olunan təbiət əraziləri yaradılıb (Bəndovan, Korçay, Qax yasaqlıqları, Şirvan və Korçay qoruqları, Şirvan, Ağgöl və Abşeron milli parkları) və ceyranların tarixi areallarına reintroduksiya planları hazırlanıb həyata keçirilib".

Seminarda qeyd olunub ki, Şirvan Milli Parkında tədqiqatlar 2017-2021-ci illər ərzində fərqli fəsillərdə aparılıb və 25704 başdan ibarət olan 8602 qrup qeydə alınıb. Qrupların tərkibini və ölçüsünü qiymətləndirmək üçün yalnız cinsi və yaşı ilə müəyyən edilən fərdlər haqqında məlumatlardan istifadə edilib. Ümumilikdə 3512 qrup üzrə 14408 baş ceyran müəyyən olunub. Həmçinin ceyran populyasiyası üçün beş sosial qrup növü müəyyənləşdiyi, mövsümlərə görə qrupların orta ölçülərində əhəmiyyətli fərqlərin aşkarlandığı diqqətə çatdırılıb.

Sonda seminar iştirakçılarının mövzu ilə bağlı müxtəlif yanaşmaları dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Elmi seminar: "Fonsuz həndəsi ornamentlərin tarixi, evolyusiyası, üslub və tərzləri"

***Noyabrın 20-də BDU-da Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının baş elmi işçisi, professor Imaməddin Əmiraslanovun "Fonsuz həndəsi ornamentlərin tarixi, evolyusiyası, üslub və tərzləri" adlı elmi seminarı keçirilib.***

Əvvəlcə məruzəçi bu ornamentlərin spesifikliyi, tarixi, coğrafiyası haqqında məlumatları təqdim edib. Türk dünyasında istifadə edilən naxışların ümumiliyi və yayıldığı coğrafiya barədə məlumat verib. Bənzər ornamentlərin daha geniş coğrafiyada istifadəsi məsələləri və səbəbləri izah edilib. Həmçinin bu naxışların Avropa və Hind-Çin mədəniyyətlərində istifadə edilən naxışlarla müqayisəli təhlili aparılıb. Seminarda istifadə edilən naxışların eynigüclü olmasına diqqət yetirilib və dinləyicilər üçün fonsuzluq anlayışının açıqlaması verilib.

Məruzə zamanı bu ornamentlərin kristalların mikroskop şəkilləri ilə bənzərliyi barədə də məlumat təqdim olunub və şəkillərin müqayisəli təhlili aparılıb. Məruzə iştirakçılar tərəfindən maraqla qarşılanıb, məruzəçiyə müxtəlif sual və təkliflər verilib. Seminarda aparılan tədqiqatın türk dünyası üçün önəmi və cəmiyyətimizin inkişafına təsiri barədə müzakirələr aparılıb.

# “Mediada saxta xəbərlər: yayılma səbəbləri və onunla mübarizə üsulları” kitabının təqdimatı

*Noyabrın 15-də Jurnalistika fakültəsində BDU-nun kafedra müdirləri, dosentlər Aynur Nəsirova və Xatirə Hüseynovanın “Mediada saxta xəbərlər: yayılma səbəbləri və onunla mübarizə üsulları” kitabının təqdimatı olub.*



Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyilə “KİV-də və sosial şəbəkələrdə “saxta xəbər”lərin qarşısının alınması istiqamətində təşəbbüslər” layihəsi çərçivəsində nəşr edilib.

Tədbirdə kitabın ön sözünün müəllifi, BDU-nun professoru Qulu Məhərrəmli mövzunun aktuallığını qeyd edib. Professor bildirib ki, müəlliflərin ağır sosial bəla kimi az qala bütün dünyanı bürümüş saxta xəbərlər mövzusunu tədqiqata cəlb etmələri təsadüfi deyil. Bu, bir sosial sifariş, günümüzün informasiya reallıqlarından doğan tələbatdır. Ona görə də hər kəsin bu mövzuda biliklərinin olması çox əhəmiyyətlidir.

Qeyd olunub ki, bu gün saxta xəbərlər əsasən sosial şəbəkələr üzərindən yayılır. Sosial media şəbəkələri öz fikrini bildirmək istəyən hər kəs üçün açıq platformaya çevrilib. Amma bir çox səbəblərdən bəzi ölkələrdə həmin platformalar dezinformasiya, yalan və nifrət yayan siyasi təbliğat kanalına çevrildi. Nəticədə bu platformalar nəinki dünyanı birləşdirdi, həmçinin istifadəçilərin şəxsi məlumatlarına müdaxilə etdi, yalan informasiyalar geniş yayılmağa başladı və insanların bir-birinə münasibətində ciddi problemlər yarandı.

“Müəlliflər “Mediada saxta xəbərlər: yayılma səbəbləri və onunla mübarizə üsulları” kitabında həmin proseslərin səbəbləri barədə məlumat verməklə yanaşı, ümumi mənzərəni də göstərir, ciddi ümumiləşdirmələr aparır və mövcud tendensiyaları dərindən təhlil edirlər. Bu səbəbdən də təqdim olunan kitab mövzunun ən müxtəlif çalarlarını əhatə etmək baxımından ciddi elmi mahiyyət daşıyır. Əsərin diqqəti cəlb edən ən qiymətli cəhətlərindən biri də budur ki, o, dünyada informasiya sahəsində gedən prosesləri özündə tam ehtiva edir”- deyə professor bildirib.

Qulu Məhərrəmli qeyd edib ki, kitabın “Jurnalistikada xəbər standartları. Xəbərin çatdırılması yolları”, “Sosial mediada feyk xəbərlərin yaydığı təhlükə”, “Mediamanipulyasiya: mahiyyəti və təsirindən qorunma yolları” və s. kimi bölmələri diqqətlə işlənib. Bu, onu göstərir ki, müəlliflər problemin təkcə nəzəri tərəfinə deyil, praktik cəhətinə də diqqət yetirib və saxta məlumatların aşkar edilməsi ilə bağlı qiymətli tövsiyələr veriblər: “Epizodik olaraq sadaladığımız problemlər müasir dünyada saxta və yalan xəbərlərə qarşı mübarizəni labüd edir. Bu mübarizənin ən yaxşı yolu isə elmi biliklərə yiyələnməkdir. Müəlliflərin uğurlu işi kimi bu kitab xüsusi qiymətə layiqdir”.

Professorlar Cahangir Məmmədli, Nəsiman Yaqublu, Sabir Məmmədli, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, dekan müavini Samir Mirzəyev, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı, “ARB-24” telekanalının icraçı direktoru Radik İsmayılov, Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli və başqaları kitabla bağlı fikirlərini bölüşüb, onun əhəmiyyətindən danışıb, tələbə və mütəxəssislər üçün dəyərli mənbə olduğunu söyləyiblər.

# BDU-da deportasiyaya qədərki dövrdə Göyçə mahalında kitabxana işi ilə bağlı araşdırma aparılıb

*Noyabrın 15-də İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə “Deportasiyaya qədərki dövrdə Göyçə mahalında kitabxana işi” mövzusunda elmi seminar keçirilib.* Elmi seminarda BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, dosent Elçin Əhmədov mövzu ilə bağlı məruzə edib. Elçin Əhmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsindən sonra Qarabağa və Şərqi Zəngəzura böyük qayıdış başlayıb: “Bütün bunlar tarixi torpaqlarımız olan Qərbi Azərbaycana qayıdışı da şərtləndirir. Ona görə də Qərbi Azərbaycan, onun mahalları ilə bağlı müxtəlif istiqamətli araşdırmaların aparılması bu gün qarşımızda prioritet vəzifə kimi dayanır”.

Məruzədə əvvəlcə tarixən Azərbaycan türklərinin yaşadığı Qərbi Azərbaycan ərazisində, həmçinin Göyçə mahalında mövcud olmuş şəxsi kitabxanalar, onların fondları haqqında məlumatlar diqqətə çatdırılıb. Qədim Azərbaycan torpağı olan Göyçə mahalında deportasiyaya qədərki dövrdə kitabxana işinin tarixi, formalaşması və inkişaf dövrləri xronoloji qaydada təqdim olunub. Mərkəzi kitabxanaların, mədəniyyət müəssisələrinin tabeliyində olmuş kitabxanaların və məktəb kitabxanalarının həmin dövrdəki fəaliyyəti barədə iştirakçılarda təəssürat yaradılıb. Seminarda deportasiyaya qədər bölgədə mövcud olmuş kitabxanalarla yanaşı, məktəblər, mədəniyyət müəssisələri, səhiyyə ocaqları, məscidlər, tarixi-memarlıq abidələri haqqında da statistik məlumatlar diqqətə çatdırılıb. Soydaşlarımızın Qərbi Azərbaycandan deportasiyasından sonra maddi mədəniyyət abidələrimizin, həmçinin xalqımızın irsini özündə yaşadan kitabxanaların məhv edilməsi faktları da məruzədə əksini tapıb.

Tədqiqatda Qərbi Azərbaycan ərazisində kitabxanalarla yanaşı, azərbaycanlılara aid arxiv fondlarının məhv edildiyi, arxiv sənədlərinin saxtalaşdırıldığı da qeyd olunub. Məruzəçi çıxışını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə səsləndirdiyi fikirlərlə yekunlaşdırıb: “Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var”.

Elmi seminar müzakirələrlə davam edib.

# BDU-da elmi seminar: “Səsinə görə mənbənin diaqnostikası”

*Noyabrın 15-də Fizika fakültəsinin Optika və molekulyar fizika kafedrasının baş müəllimi, Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin Əlyazmalar və səslərin ekspertizaları şöbəsinin rəis müavini Lətif Əliyevin “Səsinə görə mənbənin diaqnostikası” mövzusunda elmi seminarı keçirilib.*

Lətif Əliyev əvvəlcə səs ekspertizasının kriminalistik araşdırmalarda mühüm rol oynadığını bildirib, səsin analizi ilə müəyyən oluna bilən xüsusatlar barədə danışıb. O, səsə görə mənbələrin müəyyən edilməsi istiqamətində müxtəlif ölkələrdə aparılan tədqiqatlar barədə məlumat verib, gələcək tədqiqatlarda atəş səsinə görə silahın növünün müəyyən olunması, səsinə görə uçuş aparatının növünün və markasının təyini kimi mövzuların işlənilməsinin mümkünlüyünü qeyd edib. Məruzəçi “Səsinə görə avtomobil mühərriklərinin diaqnostikası” mövzusu üzrə apardığı tədqiqatların ilkin nəticələrini açıqlayıb. O bildirib ki, hazırda avtomobil mühərriklərinin diaqnostikası müxtəlif markalı avtomobillər üçün hazırlanmış xüsusi proqram təminatlarının tətbiqilə aparılır. Bu proqramların iş prinsipi avtomobilin müxtəlif hissələrinə qoşulmuş sensorlardan gələn elektrik siqnalların emalına əsaslanır. Avtomobillərin təchiz olunduğu sensorların özlərində nasazlıq və ya proqram təminatında funksional pozulma olduqda diaqnostika proqramları vasitəsi ilə avtomobilin müayinəsi mümkünsüz olur. Bu mənada neytral rejimdə işləyən avtomobilin mühərrikinin səsinə görə diaqnostikası xüsusi əhəmiyyət kəsb edir.

Mühərrikin səsinin spektral analizinə görə markası və bəzi digər məlumatları bəlli olan avtomobilin sürətini müəyyən etmək mümkündür. Bu metoddan məhkəmə kriminalistik ekspertizasında avtomobillərdə olan videoregistratorlar vasitəsi ilə qeydə alınmış videoyazıya görə nəqliyyat vasitəsinin sürətinin müəyyən olunmasında uğurla istifadə olunur.

Məruzəçi qeyd edib ki, mühərrik səsinin yazılmasında yüksəkkeyfiyyətli yazı qurğularından (geniş işçi zolağa malik həssas mikrofonla təçhiz olunmuş WAV formatda yazan ”QNOM” rəqəmsal diktofonlarından), səsin spektral tərkibinin müəyyən olunmasında isə audiosiqnalların spektral analizi üçün nəzərdə tutulmuş “OTExpert”, “SİS II” və “Justiphone” professional proqram təminatlarından istifadə olunub. Avtomobil mühərrikinin səsinin spektral tərkibi bir çox detallardan - klapanlardan, hidrokompensatordan, paylayıcı valdan, porşen barmaqcıqlarından və s. gələn müxtəlif tezlikli səs siqnallarının toplanmasından yaranır. Alışdırıcı şamların alışdırma bucağının düzgün olmaması, uyğun mühərrik yağlarından və yanacaqdan istifadə olunmaması da mühərrik səsinin spektral tərkibində öz izini buraxır.

Məruzəçi tədqiqatlar zamanı əldə olunan maraqlı nəticələri təqdim edib, bu istiqamətdə araşdırmaların perspektivli olduğunu bildirib.

# BDU və İstanbul Texniki Universiteti ikili diplom proqramlarına başlayır

*BDU və İstanbul Texniki Universiteti (İTU) arasında 2024-cü ilin yanvar ayından doktorantura üzrə riyaziyyat və kimya sahələrində ikili diplom proqramlarına başlanılması barədə razılığa gəlinib.*

Bu, iki universitetin imzaladığı anlaşma memorandumuna əsasən həyata keçiriləcək.

Bu sahədə birgə rəhbər və məsləhətçilərin, ortaq elmi-tədqiqat layihələrinin müəyyənləşdirilməsi məqsədilə ilin sonunadək BDU heyəti İTU-ya səfər edəcək. İnformasiya texnologiyaları və süni zəka sahələrində də ortaq layihələr həyata keçiriləcək.

Qeyd edək ki, ikili diplom proqramlarının əvvəl doktorantura, sonra isə magistratura və bakalavriat səviyyələrində kompüter elmləri, tətbiqi riyaziyyat, kimya, fizika və digər sahələrdə reallaşdırılması barədə ilkin razılıq əldə olunub.

# BDU əməkdaşı Türkiyənin Çukurova Universitetinin Jurnalistika fakültəsinin tələbələrinə mühazirə oxuyub



***BDU-nun İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin əməkdaşı Nərminə Əsədova "Erasmus" mübadilə proqramı çərçivəsində Türkiyənin Çukurova Universitetində "Fərqli yanaşmalar və həvəsləndirici ideyalar" adlı layihədə iştirak edib.*** Nərminə Əsədova Çukurova Universitetinin Jurnalistika fakültəsində tələbələrə "Azərbaycan mətbuat tarixi", "Bakı Dövlət Universitetində media təhsili", "İctimaiyyətlə əlaqələr və sosial media", "Sosial media: perspektivlər və çağırışlar" mövzularında mühazirə oxuyub.

Nərminə Əsədova çıxışında BDU-nun tarixindən bəhs edib, Jurnalistika fakültəsinin son illərdəki fəaliyyəti, uğurları barədə məlumat verib, tələbələrə yaradılan şəraitdən danışıb. Mühazirədə sosial mediada yeni çağırışların öyrənilməsi və tətbiqi modellərinin hər zaman öz aktuallığı ilə seçildiyi diqqətə çatdırılıb, müasir dövrdə mediada yaranan yeni trendlər Azərbaycan mətbuatından nümunələr əsasında izah edilib.

Mühazirə iştirakçıların suallarının cavablandırılması ilə başa çatıb.

Qeyd edək ki, tədrisdə kadrların mobilliyini təmin etmək məqsədilə təşkil edilən layihə "Erasmus+ KA171" proqramı tərəfindən dəstəklənir.

# BDU əməkdaşları İzmir Yüksək Texnologiya İnstitutunda elektron arxivlər şəbəkəsinin yaradılmasına dair beynəlxalq təlimdə

***Noyabrın 21-də BDU-nun tərəfdaş, Xəzər Universitetinin koordinatoru olduğu Avropa İttifaqının "Erasmus + KA2" proqramı çərçivəsində maliyyələşdirilən "Azərbaycanda İnstitusional Repozitoriyalar Şəbəkəsi vasitəsilə Tədqiqat Potensialının İnkişafı" (DIRNA) adlı layihənin ilk təlim-treninqi Türkiyədə İzmir Yüksək Texnologiya İnstitutunda (İYTİ) keçirilib.***



Türkiyə, İtaliya və Finlandiya universitetlərinin təcrübəsi əsasında Azərbaycanın 8 ali təhsil müəssisəsində hamıya əlçatan institusional repozitoriyalar (elektron arxivlər) şəbəkəsinin yaradılması məqsədi daşıyan layihə çərçivəsindəki təlim 3 gün davam edib.

Təlimin ilk günü İzmir Yüksək Texnologiya İnstitutunun prorektoru Alper Babanın İYTİ-nin tədqiqat infrastrukturlarının tanıtımına dair təqdimatı ilə başlayıb. Daha sonra GCRIS sisteminin texniki imkanları, İzmir Yüksək Texnologiya İnstitutunun kitabxanası və beynəlxalq əlaqələri haqqında təqdimatlar edilib.

Təlimin ikinci günündə İYTİ Texnoparkı ziyarət edilib və baş direktor Metin Tanoğlu ilə görüş keçirilib. Daha sonra "Məlumatların idarə edilməsi", "Avropa açıq elm buludu (EOSC) və OpenAIRE" mövzusunda təqdimatlar dinlənilib.

Təlimin son günü İzmir Yüksək Texnologiya İnstitutunun rektoru Yusuf Baran Azərbaycandan olan layihə komandasını qəbul edib. Görüşdə layihə çərçivəsində Yay Məktəbinin Azərbaycanda keçirilməsi ilə bağlı müzakirələr aparılıb.

BDU üzrə layihənin əlaqələndirici nümayəndəsi Nigar İsmayılova və layihə meneceri Cəmilə Yusifova təlimdə iştirakları ilə mövcud təcrübəni öyrənərək BDU-da institusional repozitoriyanın yaradılması işinə tətbiq edəcəklər.

# BDU və "QS Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyi arasında görüş

***Noyabrın 13-də BDU və "QS Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyi arasında onlayn görüş keçirilib.***

Görüşdə rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Keyfiyyət təminatı mərkəzinin direktoru İdrak Əsgərov, Monitorinq, təhlil və akkreditasiya şöbəsinin müdiri Pərvanə Mövsümova, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməlik Mərkəzinin direktor müavini Zöhrab Ağamalıyev, eləcə də "QS Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyinin ekspert qrupu iştirak edib.

Rektorun keyfiyyət təminatı üzrə müşaviri BDU-da reytinqlərdə irəliləmə istiqamətində görülən işlərə dair məlumat verib. Sonra reytinq agentliyinin ekspert qrupu ilə müzakirələr davam etdirilib. Ekspert qrupu BDU əməkdaşlarının suallarını cavablandırıb.

# BDU-nun ISESCO-nun Biotibbi materiallar kafedrasının prioritet elmi istiqamətlərinin təqdimatı keçirilib



***Noyabrın 14-də Biologiya fakültəsinin ISESCO-nun Biotibbi materiallar kafedrasında aparılan elmi işlərin təqdimatı keçirilib.*** Biotibbi materiallar kafedrasının müdiri, professor Ülviyyə Həsənova kafedranın tarixi, inkişaf planı, əsas tədqiqat istiqamətləri, aktiv beynəlxalq və yerli layihələri, ICESCO ilə əməkdaşlıq barədə məruzə ilə çıxış edib.

Təqdimat zamanı kafedranın əməkdaşları tərəfindən aparılan tədqiqatların üç əsas mərhələsi barədə qısa məlumat verilib, "in silico", sintez və tətbiq mərhələləri detallı şəkildə açıqlanıb.

Kafedranın müəllimi Ələkbər Hüseynzadə laboratoriyada sintez olunan üzvi molekullar, onların sintez metodikası, "in silico" tədqiqatlar, həmçinin, burada Bijinelli reaksiyası ilə sintez olunan maddələrin xərçəng xəstəliyinin müalicəsində olan potensialı, üzvi molekulların nanoansambllarının alınması, onların antimikrobial xüsusiyyətlərinin gücləndirilməsi, hüceyrə xətləri üzərində aparılan tədqiqatlar haqqında məlumat verib.

Sonra kafedranın əməkdaşı Günel Əliyeva "C-H aktivləşmə əsasında sintez edilən üzvi birləşmələr ilə qrafen oksidin səthinin modifikasiyası" mövzusunda məruzə ilə çıxış edib. Tədqiqat qrupu tərəfindən sintez olunan qrafen oksidin Transmissiyalı Elektron Mikroskopiya, Skanedici Elektron Mikroskopiya və Rentgen Difraksiya metodu ilə xarakteristikası izah olunub.

Sonda məruzəçilər iştirakçıların suallarını cavablandırıblar.

# Azərbaycanda səhra və yarımsəhra bitkilərinin bioekoloji xüsusiyyətlərinə dair elmi seminar



***Noyabrın 21-də Biologiya fakültəsinin Botanika və bitki fiziologiyası kafedrasının müəllimi, biologiya üzrə fəlsəfə doktoru Vazeh Baxşıyev tərəfindən "Azərbaycan ərazisində yayılmış səhra və yarımsəhra bitkilik tipinin bioekoloji xüsusiyyətləri" mövzusunda elmi seminar keçirilib.***

Məruzəçi ölkə ərazisinin böyük hissəsini əhatə edən Kür-Araz ovalığında səhra və yarımsəhra bitki örtüyü haqqında geniş məlumat verib. Qeyd edib ki, quraqlıq səhra üçün xarakterik xüsusiyyətdir, burada əsas bitki örtüyünü quraqlığa davamlı bitkilər – kserofitlər (sukkulentlər, freatofitlər) təşkil edir. İstər Azərbaycanda, istərsə də dünyada (xüsusilə də Turan ovalığının səhralarında) səhra landşaftının formalaşmasında əsas rol oynayan tərəçiçəkkimilər (Chenopodiaceae Vent.) fəsiləsinin nümayəndələridir.

Vazeh Baxşıyev regionda qış otlaqlarının geniş yayıldığını bildirib. Şoran şəhralarda geniş yayılmış yem əhəmiyyətli nümayəndələrdən ətli climacoptera, budaqlı qışotu, duzlaq çoğanı, çərən, gəngiz, ağ yovşan, qarağan və s. bitkilər payızın sonu, qış aylarında (şaxtalar düşdükdən sonra) xırda buynuzlu heyvanlar tərəfindən yaxşı yeyilir. Məruzəçi məhsuldarlığı yüksəltmək və onlardan səmərəli istifadə yollarını tapmaq üçün təbii otlaq və biçənəklərin bitki örtüyünün vaxtaşırı öyrənilməsinin, botaniki tərkibini keyfiyyətli yem otları ilə zənginləşdirməyin aktual olduğunu bildirib.

Sonda məruzəçi iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıb.

# Almaniyanın ENAMEC İnstitutunun professoru BDU-da mühazirə deyib



*Noyabrın 2-də Almaniyanın ENAMEC İnstitutunun professoru Martin Rainer Fizika fakültəsinin professor-müəllim və tələbə heyəti qarşısında "Konformal simmetriya, zərrəciklər və fəza-zaman" ("Conformal symmetry, particles, and space-time") mövzusunda mühazirə ilə çıxış edib.*

Məruzəçi əvvəlcə relativistik zərrəciklərin, sahələrin və fəza-zaman strukturunun kvant nəzəriyyəsinin vahid təsviri üçün uyğun riyazi struktur kimi konformal həndəsənin öyrənilməsinin ümumi mənzərəsini verib. Sonra o, Minkovski fəzasının konformal həndəsəsi və onun bəzi ümumiləşdirilmələri ilə iştirakçıları tanış edib. Nəhayət, o, radial konformal çevrilmələrin qara dəliklərlə əlaqəli olan işıq konusu brilyantları və bifurkasion üfüqləri, eləcə də cəbri kvant sahəsi nəzəriyyəsi kontekstində tətbiqindən danışıb.

Mühazirə müəllim və tələbələr tərəfindən maraqla dinlənilib. Seminarın sonunda məruzə ətrafında müzakirələr aparılıb və iştirakçıların sualları cavablandırılıb. Mühazirədən sonra Martin Rainerə sertifikat təqdim olunub.

# İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Türkiyədə Beynəlxalq simpoziumda məruzə edib

*Noyabrın 3-də Türkiyənin Çankırı şəhərində Çankırı Karatekin, Bartın, Kastamonu universitetlərinin Məlumat və sənəd idarəetmə bölümlərinin və İnformasiya və sənəd menecmenti fakültəsinin birgə təşkilatçılığı ilə II Beynəlxalq ənənədən gələcəyə informasiya və sənəd menecmenti simpoziumu keçirilib.*

BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı, dosent Ələmdar Cabbarlı simpoziumda iştirak edib. Türkiyə Cümhuriyyətinin 100-cü ildönümünə həsr edilmiş Beynəlxalq simpoziuma müxtəlif ölkələrin informasiya və sənəd menecmenti, kitabxanaçılıq və informasiya ixtisasları üzrə kadr hazırlayan 20-dən artıq universitetinin təmsilçiləri qatılıb. Simpoziumda sənəd menecmenti, informasiya logistikası, müəlliflik hüquqları və əlaqəli hüquqlar, kitabxanaçılıq və informasiya fəaliyyəti, kitab yayımı kimi mühüm istiqamətlər üzrə məruzələr dinlənilib. İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Cabbarlı "Texnoloji inqilab və oxucu vərdişləri" mövzusunda məruzə edib, eyni zamanda simpoziumun Təşkilat Komitəsinin üzvü kimi fəaliyyət göstərib. Fakültə dekanı səfər müddətində Çankırı Karatekin Universitetinin rektoru, professor Harun Çiftçi ilə görüşüb. Görüşdə rektora ölkəmizdəki təhsil mühiti, BDU-nun tarixi və bu günü, eyni zamanda fakültə barədə məlumat verilib. Çankırı Karatekin

Universitetinin Məlumat və sənəd idarəetmə bölümü ilə BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsi arasında əməkdaşlığın müxtəlif platformalarda davam etdirilməsi imkanları müzakirə olunub.

Üç gün davam edən tədbirin yekun toplantısında qəbul edilmiş sənəddə növbəti Beynəlxalq simpoziumun 2024-cü ilin noyabr ayında BDU-da keçirilməsi təklifi irəli sürülüb.

# BDU əməkdaşı İsveçrədə Ümumdünya Əqli Mülkiyyət və Ümumdünya Ticarət təşkilatlarının təlimlərində iştirak edir

Hüquq fakültəsinin Əqli mülkiyyət hüququ kafedrasının müəllimi Aydan Məmmədova Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) və Ümumdünya Ticarət Təşkilatı (ÜTT) tərəfindən təşkil edilən "Əqli mülkiyyət sahəsi üzrə müəllimlərin 19-cu beynəlxalq kollokviumu" adlanan iki həftəlik təlim kurslarında iştirak edir.

Kollokvium İsveçrənin Cenevrə şəhərində noyabrın 13-dən 24-dək davam edəcək. Kollokvium əqli mülkiyyət sahəsində dünyanın müxtəlif ölkələrindən olan ixtisaslaşmış



müəllim və tədqiqatçılar üçün forum rolunu oynayır. O, beynəlxalq əqli mülkiyyətin cari mənzərəsinin və vəziyyətinin ətraflı icmalını təqdim edir. Eyni zamanda, tədbirə ev sahibiliyi edən iki təşkilatın bu sahədə daha geniş perspektivlərinin, ÜƏMT və ÜTT-nin hüquqi sənədlərinin və cari təşəbbüslərinin dərin analizi nəzərdə tutulur. Kollokvium ilk növbədə bu sahədə universitetlərin potensialını gücləndirmək, milli təcrübə, tədris və tədqiqatı inkişaf etdirmək məqsədi daşıyır.

Səfər çərçivəsində Aydan Məmmədova ÜST-ÜƏMT-ÜTT tərəfindən noyabrın 14-də BMT-də keçirilən İnsan Sağlamlığı və İqlim Dəyişikliyi üzrə Üçtərəfli Simpoziumda da iştirak edib.

# BDU-nun laboratoriya müdiri "MDB-də 2023-cü ilin ən yaxşı mütəxəssisi" medalı ilə təltif olunub

BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Mikrobiologiya və virusologiya elmi-tədqiqat laboratoriyasının müdiri, professor Xudaverdi Qənbərov 2023-ci ildə Müstəqil Dövlətlər Birliyinin (MDB) elm və təhsil işçiləri arasında keçirilən "2023-cü ilin ən yaxşı mütəxəssisi" müsabiqəsinin qalibi olub. O, birinci dərəcəli diplom və "MDB-də 2023-cü ilin ən yaxşı mütəxəssisi" medalı ilə təltif olunub.

Əməkdaşımızı təbrik edirik!

# Mikrobiologiya və virusologiya elmi-tədqiqat laboratoriyasında tədqiqatlar davam edir

*Noyabrın 2-də BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Mikrobiologiya və virusologiya elmi-tədqiqat laboratoriyasının müdiri, professor Xudaverdi Qənbərovun həmmüəllifi olduğu "Şəhər və kəndlərdə olan ev heyvanlarının və insanın bağırsaq mikrobiotasının mübadiləsi" ("Gut microbiota exchange in domestic animals and rural-urban aix") adlı icmal məqalə "Web of Sience" bazasında indekslənən (IF: 2.8) "Current Pharmaceutical Biotechnology" jurnalında dərc olunub.*

Kliniki mikrobiologiyada bağırsaq mikrobiotasına və mikrobiomuna xüsusi diqqət verilir. Bağırsaq mikrobiotasında daha vacib olan yoğun bağırsaq mikrobiotasıdır. Yoğun bağırsağı zəbt edən mikrobiota (mikroblar) müxtəlif funksiyalar daşıyır, ilk növbədə patogenlərə qarşı davamlılıq verir, bağırsaq epitelisini qoruyur, qida qalıqlarını metabolizmə uğradır, immun sistemini gücləndirir. Son tədqiqatlar göstərir ki, bağırsaq mikrobiotası orqanizmdə piyin əmələ gəlməsinin qarşısını alır.

Bu icmal məqalədə müxtəlif kənd və şəhərlərdə olan ev heyvanlarının (it, pişik, inək, qoyun, at, toyuq) və insanın bağırsaq mikrobiotasının öyrənilməsinə həsr olunmuş elmi işlərin analizi aparılıb. Göstərilib ki, heyvan və insanların bağırsağında yaşayan mikrob populyasiyaları çox fərqlidir. Şəhər və kəndlərdə yaşayan insanların bağırsaq mikrobiotasına ətraf mühit, qidalanma, heyvanlarla təmas kimi amillər əhəmiyyətli dərəcədə təsir göstərir.

# "Genetikada yeni çağ: kök hüceyrə" adlı tədbir

*Noyabrın 4-də "BDU könüllüləri" təşkilatının Biologiya fakültəsinin nəzdində fəaliyyət göstərən "Avisenna" klubunun təşəbbüsü ilə kök hüceyrə mütəxəssisi Rəşad Rəsulov tərəfindən "Genetikada yeni çağ: kök hüceyrə" adlı tədbir keçirilib.*

Doktor Rəşad Rəsulov tələbələrə kök hüceyrə genetikası, pluripotent və mezenximal kök hüceyrələrin tətbiqi metodları haqqında ətraflı məlumat verib. Bildirib ki, kök hüceyrələr insanın bütün toxumalarında damarların ətrafında yerləşən progenitor hüceyrələrdir. Normal fizioloji proses olan qocalma zamanı orqanizmdəki kök hüceyrələrin sayı azalır və bu səbəbdən bir çox xəstəliklərin yaranması halları müşahidə olunur.

Tədbirdə tələbələrin sualları cavablandırılıb, həmçinin gələcəkdə kök hüceyrə sahəsində Biologiya fakültəsi ilə birgə təşkil ediləcək ortaq layihələr barədə müzakirələr aparılıb.

# BDU riyaziyyatçılarının tədqiqatları davam edir

*BDU-nun nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü, professor Vaqif Quliyev və Mexanika-riyaziyyat fakültəsinin Riyazi analiz kafedrasının dosenti Mehriban Ömərovanın həmmüəllifi olduqları "Ümumiləşmiş Orlicz-Morrey fəzalarında həqiqi Kalderon-Ziqmund operatorları və onların kommutatorlarının xarakteristikası" adlı məqalə "Web of Science" beynəlxalq elmmetrik bazasında Q1 kvartilli jurnallar siyahısına daxil jurnalında dərc olunub.*

Məqalədə ümumiləşən Orlicz-Morrey fəzalarında həqiqi Kalderon-Ziqmund operatorlarının zəif/güclü məhdudluğu üçün zəruri və kafi şərtlər əldə edilib. Həmçinin bu fəzalarda həqiqi Kalderon-Ziqmund operatorlarının kommutatorlarının məhdudluğu araşdırılıb.

# Oman yazıçısı Coxa əl-Harsi ilə görüş

***Noyabrın 21-də Şərqşünaslıq fakültəsinin müəllim və tələbələri Beynəlxalq Buker Mükafatına layiq görülmüş omanlı yazıçı Coxa Əl-Harsi ilə görüşüb. Görüşdə Coxa Əl-Harsi ərəbcədən Azərbaycan dilinə tərcümə edilmiş "Ayın qızları" kitabı, bədii yaradıcılığı, həyatı və Oman məişəti haqqında məlumat verib.***

Qeyd edək ki, kitabın tərcüməçisi Şərqşünaslıq fakültəsinin məzunları Aytəkin Qocayeva, redaktoru isə Rəşad Həsənovdur.

Yazıçı ərəb ədəbiyyatı ilə yanaşı, dünya və Azərbaycan ədəbiyyatı ilə bağlı düşüncələrini paylaşıb, Nizami Gəncəvi, Məhəmməd Füzuli kimi dahi Azərbaycan şairlərinə olan rəğbətini xüsusi olaraq vurğulayıb. Yazıçı Qurban Səidin "Əli və Nino" əsəri haqqında da xoş təəssüratlarını bölüşüb.



Görüşün sonunda Coxa Əl-Harsi Şərqşünaslıq fakültəsinin müəllim və tələbələrinin suallarını cavablandırıb.

# Corc Vaşinqton Universitetinin müəllimləri BDU tələbələri ilə görüşüb

Noyabrın 23-də Sosial elmlər və psixologiya fakültəsində ABŞ-ın Corc Vaşinqton Universitetinin Broun Sosial iş və ictimai səhiyyə fakültəsinin professoru, Sosial İnkişaf Mərkəzinin təsisçisi və direktoru Maykl Şerraden, Sosial İnkişaf Mərkəzinin həmdirektoru, Broun Sosial iş və ictimai səhiyyə fakültəsinin müəllimi Lissa Conson, Sosial İnkişaf Mərkəzinin beynəlxalq proqramlarının direktoru Li Zu, Sosial İnkişaf Mərkəzinin aparıcı tədqiqatçısı və Broun Sosial iş və İctimai Səhiyyə fakültəsinin müəllimi Aytəkin Hüseynlinin tələbələrlə görüşü keçirilib.

BDU-nun Sosial iş kafedrasının müdiri, dosent Üzeyir Şəfiyev Azərbaycanda sosial işin tarixi, institutlaşması ilə bağlı məlumat verib və bu cür görüşlərin universitetlərarası təcrübələrin öyrənilməsi baxımından faydalı olduğunu bildirib.



Görüş zamanı BDU-nun Sosial iş kafedrasının və ABŞ-ın Corc Vaşinqton Universitetinin Broun Sosial iş və ictimai səhiyyə fakültəsinin əməkdaşları elmi tədqiqat və əməkdaşlıq imkanları barədə müzakirələr edib, tələbələri maraqlandıran sualları cavablandırıblar.

Sonra qonaqlar Sosial elmlər və psixologoya fakültəsi ilə yaxından tanış olublar. Fakültənin dekanı dosent Rövşən Cavadov qonaqları fakültənin tədris, tədqiqat həyatı ilə tanış edib, sosial iş ixtisasının ölkəmizdə institutlaşmasında beynəlxalq əməkdaşlığın əhəmiyyətindən bəhs edib.

# Kəlbəcər Şəhəri Günü qeyd edilib

Noyabrın 24-də BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) Sosial elmlər və psixologiya, İnformasiya və sənəd menecmenti fakültələri üzrə fəallarının birgə təşəbbüsü ilə Kəlbəcər Şəhəri Günü qeyd edilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sosial elmlər və psixologiya fakültəsinin dekan müavini Nəzakət Kərimova 30 ilə yaxın müddətdə xalqımızın ürəyində düyün bağlamış yurd həsrətinin artıq başa çatdığını, işğal altında olan şəhər və kəndlərimizin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, cəsur Azərbaycan əsgərlərinin əzm və iradəsi nəticəsində azad edildiyini, hazırda həmin ərazilərdə aparılan sürətli və genişmiqyaslı bərpa-quruculuq işlərinin bütün dünyaya örnək olduğunu deyib. Dekan müavini tələbə-gəncləri doğma Qarabağın dirçəlişi prosesində yaxından iştirak etməyə dəvət edib.

Sonra Kəlbəcər rayonunun tarix və mədəniyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Çıxış edən Sosial elmlər və psixologiya fakültəsinin TGT sədri Samir Quliyev hazırda Azərbaycan gənclərinin üzərinə düşən əsas vəzifənin birlik, bərabərlik və həmrəylik şəraitində ölkəmizin gələcəyini düşünmək olduğunu qeyd edib.

Tədbir tələbələrin hazırladığı bədii hissə ilə davam edib.

# BDU-nun İctimai Nəzarət Şurasının üzvləri ilə görüş

***Noyabrın 24-də BDU-nun rektoru Elçin Babayev İctimai Nəzarət Şurasının üzvləri ilə görüşüb.***

Rektor Elçin Babayev 2023/2024-cü tədris ilində BDU-da yeni yaradılan ixtisaslara olan maraqdan, keçmiş ixtisasların yeni dövrün tələblərinə uyğun formalaşdırılmasının vacibliyindən danışıb. Həmçinin yeni tədris ilində yenidən istifadəyə verilən BDU-nun 2 saylı korpusunda aparılan təmir və yenidənqurma işləri barəsində məlumat verib. Bildirib ki, tədris binası indi yüksək standartlara cavab verən avadanlıqlarla tam təchiz olunub və tələbələrin tədris prosesinin düzgün təşkili üçün hər cür şərait yaradılıb.

Rektor BDU-da yeni yaradılan, müstəqil Azərbaycan dövlətinin, Ordusunun qəhrəmanlıq tarixinin öyrənilməsi sahəsində təbliğat mərkəzlərindən birinə çevriləcək "Zəfər tarixi" lektoriyasından da söz açıb. Bildirib ki, İctimai Nəzarət Şurasının növbəti iclaslarını bu məkanda keçirmək də mümkün olacaq.

İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyev, Şura üzvləri BDU-da tədris prosesinin təşkili və yenidənqurma işlərini yüksək dəyərləndirib, öz təkliflərini səsləndiriblər. Müzakirələrdə Universitetdə reallaşdırılacaq yeni işlər ətrafında fikir mübadiləsi aparılıb.

# BDU-nun SABAH qrupları tələbələrinin daha bir uğuru

***BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisasının IV kurs tələbələri Səyyarə Haqverdiyeva və Zəhra Abdullayeva "Sophisticated Suits" adlı komanda ilə Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının Azərbaycan nümayəndəliyi (ELSA Azərbaycan) tərəfindən təşkil olunan universitetlərarası "Şəhid dindirmə" müsabiqəsinin 3-cü buraxılışının qalibi olublar.*** Müsabiqənin final mərhələsi Azərbaycan Respublikasının Baş Prokurorluğunda keçirilib. Qalib komanda mükafat və sertifikat, həmçinin "Kamandar Nəsibov və partnyorları" vəkil bürosunda ödənişli təcrübə keçmək imkanı qazanıb.

# BDU tələbələri Flaminqo Festivalında

***Noyabrın 23-də Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələri Qızılağac Milli Parkının yaradılmasının 5 illiyi ilə əlaqədar olaraq ilk dəfə təşkil edilən Flaminqo Festivalında iştirak ediblər.***

BDU tələbələri festivalın stendlərini gəzərək ölkəmizdəki milli parklarla virtual tanışlıq imkanı qazanıblar. Festival çərçivəsində 1 milyon çəkikimi balıq körpəsi Qızılağac Milli Parkının körfəz ərazisinə, turac quşları isə təbiətə buraxılıb.

Dövlət qurumları, qeyri-hökumət təşkilatları, universitetlər və beynəlxalq təşkilatların nümayəndələrinin, həmçinin, 500-dən artıq xarici vətəndaşın iştirak etdiyi festivalda Azərbaycanın qorunan ərazilər şəbəkəsini, iqlim dəyişməsinin biomüxtəlifliyə təsiri və bioloji müxtəlifliyin hazırki vəziyyətini əks etdirən stendlər, məlumat lövhələri, milli parkların təbiətinə, flora və faunasına aid tanışlıq guşələri nümayiş etdirilib.

Festival zamanı intellektual yarış da təşkil edilib. Yarışda digər ali təhsil müəssisələrinin də qatıldığı 8 komanda arasından BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin "Abşeron Milli Parkı" və "Şirvan Milli Parkı" komandaları müvafiq olaraq I və II yerlərin sahibi olublar.

# Akademik Nizami Cəfərovun BDU-nun SABAH qrupu tələbələrinə ustad dərsi

***Noyabrın 23-də BDU-nun SABAH qruplarının Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, Tarix müəllimliyi və Hüquqşünaslıq ixtisaslarında təhsil alan tələbələrinə akademik Nizami Cəfərov tərəfindən "Azərbaycan ədəbi dili: orta əsrlərdən yeni dövrə" mövzusunda ustad dərsi keçirilib.***



Ustad dərsində Elm və Təhsil Nazirliyinin SABAH qrupları İcra Komitəsinin rəhbəri Eldar Qocayev, BDU-nun SABAH Mərkəzinin rəhbəri İradə Süleymanova, SABAH qruplarının müəllimi Nahidə Həsənova və digər qonaqlar iştirak ediblər.

Akademik Nizami Cəfərov Azərbaycan dilinin türk dilləri içərisində özüməxsus yer tutduğunu qeyd edib, qədim dövrdən indiyədək coğrafi, siyasi və linqvistik aspektlərin dilin formalaşmasında rolunu izah edib.

Ustad dərsində "Azərbaycan" sözünün etimologiyası, Azərbaycan dili anlayışı və onun türk dilləri içərisində yeri, Azərbaycan ədəbi dilinin milli dil kimi formalaşmasının tarixi məsələləri barədə geniş məlumat verilib.

Sonda akademik Nizami Cəfərov tələbələrin suallarını cavablandırıb.

# BDU SABAH Mərkəzi məişət zorakılığına dair məhkəmə simulyasiyası təşkil edib

***Noyabrın 7-də BDU-nun SABAH Mərkəzinin nəzdində fəaliyyət göstərən “Pro Bono” Hüquq Cəmiyyəti məişət zorakılığına həsr olunmuş “Kimdir günahkar?” adlı məhkəmə simulyasiyası təşkil edib.***



BDU-nun Hüquqşünaslıq ixtisasının SABAH qrupları tələbələrinin iştirak etdikləri simulyasiyada əsas diqqətə çatdırılan məqam yetkinlik yaşına çatmayanların erkən nikaha məcbur edilməsi, bu zəmində yaranan psixoloji və hüquqi problemlər olub. Simulyasiyada yetkinlik yaşına çatmayan Zöhrənin (şərti ad) məcburi olaraq evləndirilməsi, ailəsindən, təhsilindən ayrılması, ailədə zorakılıqlara məruz qalması, cəmiyyətin bunu susqun və normal qarşılamasının ağır nəticələri nümayiş etdirilib. Zorakılıq hallarının nəticəsində Zöhrə məcbur evləndirildiyi Kamran (şərti ad) və onun anası tərəfindən övladını itirib. Məhkəmə prosesinin gedişində bu faktlar araşdırılaraq, müxtəlif sübutlarla tədqiq edilib, şahidlər dindirilib. Sonda məhkəmə bunları nəzərə alaraq, ədalətli qərar qəbul edib.

# SABAH qruplarının tələbələri Beşbarmaq boğazında quşların payız monitorinqində iştirak ediblər

***Noyabrın 14-də BDU-nun SABAH Mərkəzinin dəstəyi və “Birding Azerbaijan” İctimai Birliyinin təşkilatçılığı ilə SABAH qruplarının Biologiya müəllimliyi ixtisasında təhsil alan III kurs tələbələri üçün Beşbarmaq dağı ətrafındakı əraziyə infosessiya təşkil olunub.***

İnfosessiya zamanı “Birding Azerbaijan və Birdwatching Azerbaijan”ın tərəfdaşlığı, “Ornithological Society of the Middle East”in maliyyə dəstəyi, yerli və xarici mütəxəssislərin, quş müşahidəçilərinin və tələbələrin iştirakı ilə Beşbarmaq dar boğazında köç edən quşların payız monitorinqi aparılıb.

Tələbələr infosessiyada teleskop və binokllarla müşahidələr aparıb, ərazidən köç edən yüzlərlə iri qarabatdaq dəstəsində fərdlərin sayını müəyyən ediblər. Həmçinin boz vağ, Xəzər qağayısı, durna, bataqlıq belibağlısı, ağquyruq dəniz qartalı, imperator qartalı, qara çalağan, çöl sarı, kəkilli torağay, zağca, sığırçını, “Qırmızı kitab”a daxil olan Aralıq dənizi tısbağası, cəld kərtənkələ, biçimli ilanbaş və əsl su ilanını təbii şəraitdə müşahidə etmək şansı qazanıblar.

Sonda “Birding Azerbaijan” İctimai Birliyinin təsisçisi Elvin Məmmədsoy tələbələri maraqlandıran sualları cavablandırıb.

# SABAH qruplarının tələbələri üçün "Hüquqşünas masası" keçirilib

***Noyabrın 15-də Ədliyyə Akademiyası və SABAH Mərkəzinin əməkdaşlığı çərçivəsində BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr üçün “Azərbaycan Respulikasında cəza-icra siyasəti: mövcud vəziyyət və inkişaf prespektivləri” mövzusunda növbəti “Hüquqşünas masası” keçirilib.***

Tədbirdə BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisasında təhsil alan 150 tələbəsi iştirak edib.

BDU-nun Mülki proses və kommersiya hüququ kafedrasının dosenti Elçin Xələfovun moderatorluğu ilə keçirilən tədbirdə Elm və Təhsil Nazirliyi SABAH Icra Komitəsinin rəhbəri Eldar Qocayev, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti və Probasiya Xidmətində uzun müddət məsul vəzifələrdə çalışmış Musa Hümbətov, BDU-nun Cinayət hüququ və kriminologiya kafedrasının dosenti Cabir Quliyev öz məruzələri ilə çıxış ediblər.

Məruzələrdə Azərbaycan Respublikasında mövcud cəza-icra siyasəti, müstəqillikdən sonrakı dövrdə cəza-icra sisteminin təşkili, inkişafı, bu sahədə aparılmış islahatlar, əldə olunmuş uğurlar, gələcək perspektivlər barədə geniş məlumat verilib.

Tədbir tələbələrin aktiv iştirakı ilə müzakirə şəklində davam edib.

# Kimya fakültəsinin tələbələri yeni sosial kampaniyaya başlayıblar



Noyabrın 21-də Kimya fakültəsinin tələbələri yeni sosial kampaniyaya başlayıblar. Belə ki, fakültənin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə şəhid Vadim Qocayev və Fəxrəddin Qurbanlının ailələri ziyarət olunub. Şəhidlərin ailə üzvləri ilə görüş zamanı Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib. Şəhid Fəxrəddin Qurbanlının atası Seyfəddin Qurbanov oğlunun məktəb illəri, tələbəlik həyatından danışıb, onun kiçik yaşlarından vətənpərvərliyi ilə seçildiyini bildirib.

Tələbələr şəhidlərin ev müzeylərində onlara aid şəxsi əşyalarla tanış olublar. Şəhidlərimizin fotolarından ibarət xatirə albomlarına baxış keçirilib, onların döyüş yolu xatırlanıb. Şəhid anaları qəhrəman oğulları ilə bağlı xatirələrini tələbələrlə bölüşüblər.

# BDU IX Bakı Beynəlxalq Kitab Sərgisində iştirak edir

***BDU Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən IX Bakı Beynəlxalq Kitab Sərgisində iştirak edir.***

Noyabrın 11-də açılışı olan sərgidə BDU-nun Elmi Kitabxanasında qorunan kitablar, qiymətli nəşrlər, professor-müəllim heyətinin Azərbaycan, rus, ingilis və türk dillərində nəşr etdirdiyi kitablar nümayiş olunur. Stenddə həmçinin Universitetin “Kitab Evi”nin nəşri olan dərslik və dərs vəsaitləri, elmi xəbərlər, konfrans materialları da sərgilənir.

BDU-nun stendində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və Zəfər Gününə həsr olunan kitablardan ibarət güşə daha maraqla qarşılanıb.

BDU haqqında videoçarxın nümayişi məktəbli kitabsevərlərin xüsusi diqqətinə səbəb olub.

Ziyarətçilərə stenddə nümayiş olunan nəşrlər barədə məlumat verilib, üzərində BDU-nun loqosu olan çap məhsulları, bloknot, buklet və qeyd vərəqləri hədiyyə olunub.

IX Bakı Beynəlxalq Kitab Sərgisi noyabrın 15-dək davam edib.

# BDU tələbələri “Herba Flora” şirkətində

***Noyabrın 14-də Biologiya fakültəsinin IV kurs tələbələri “Herba Flora” şirkətinin istehsalat müəssisəsinə ekskursiya ediblər.***

Tələbələri müəssisənin təhlükəsizlik qaydaları ilə tanış etdikdən sonra onlara şirkət barədə məlumat verilib. Bildirilib ki, Azərbaycan florasının zəngin dərman bitkilərinin öyrənilməsi, toplanması, tədarükü, emalı və qablaşdırılaraq istehlakçılara çatdırılmasını həyata keçirən “Herba Flora” şirkəti 1998-ci ildən fəaliyyət göstərir.

Tələbələr şirkətdə fəaliyyət göstərən laboratoriyalar, bitki tərkibli məhsulların, şampunların istehsalı, qablaşdırmaları, etiketləşdirmə, bitki toxumlarından yağların alınması texnologiyası, anbarlarında bitki məhsullarının saxlanma rejimi ilə tanış olublar. “Herba Flora” şirkətinin yüksək keyfiyyətli yeni texnologiyaları istehsalata tətbiq etdiyi bildirilib.

Sonda tələbələrə “Herba Flora” şirkətinin istehsal etdiyi məhsullar hədiyyə olunub.

# SABAH qruplarının məzunu Almaniya dövlət təqaüdünün qalibi olub



***BDU-nun SABAH qruplarının məzunu Murad Vəliyev Almaniya dövlət təqaüdünün hüquqşünaslıq ixtisası üzrə qalibi oldu.***

Qeyd edək ki, təqaüdə 900-ə yaxın müraciət olub, məzunumuz yüksək rəqabət nəticəsində bu imkanı qazanıb. Murad Vəliyev hazırda magistratura təhsilini Almaniyanın Saarland Universitetində Avropa və beynəlxalq hüquq ixtisası üzrə davam etdirir.

Məzunumuza gələcək fəaliyyətində uğurlar arzulayırıq!

# BDU tələbələri Qərbi Azərbaycanın tarixi və mədəni irsi barədə məlumatlandırılıb

*Noyabrın 1-də Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə "Virtual Qarabağ" İnformasiya Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyi və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin BDU-da birgə keçirəcəyi "Qərbi Azərbaycanın tarixi və mədəni irsi" mövzusunda Respublika elmi konfransı çərçivəsində tələbə-gənclərlə görüş olub.*



Görüşün məqsədi Qərbi Azərbaycanın tarixi və mədəni irsi mövzusunda elmi tədqiqatların artırılması, tarixi həqiqətlərin araşdırılması və təbliğinə töhfə verilməsidir.

Görüşdə həmçinin "Virtual Qarabağ" İKT Mərkəzinin istehsalı olan "Göyçə: itirilmiş ocaq" sənədli filmi nümayiş olunub.

# "Oğul" filmi BDU-da nümayiş olunub

*Noyabrın 4-də BDU-da I Qarabağ müharibəsində itkin düşmüş 19 yaşlı könüllü Azərbaycan əsgəri Natiq Qasımovun qəhrəmanlıq dolu döyüş yolunu özündə əks etdirən "Oğul" filmi nümayiş olunub.*

Azərbaycan tarixinin daha bir qəhrəmanlıq səhifəsindən bəhs edən və riyakar erməni xislətini bir daha aşkara çıxaran bu sənədli film rejissor və ssenari müəllifi Karan Sinqh tərəfindən italiyalı hərbi fotoreportyor Enriko Sarsininin dərc olunmamış fotoları əsasında ekranlaşdırılıb. Böyük Britaniyanın "Broken Pot Media" şirkətinin istehsalı olan "Oğul" sənədli filmi 1992-ci ildə itkin düşən hərbi əsir Natiq Qasımovun axtarışından bəhs edir.

Natiq Qasımov hərbi əməliyyatlar zamanı altı döyüş yoldaşını itirdikdən sonra beş gün ərzində təkbaşına müdafiə etdiyi Alban kilsəsində mühasirədə qalır, ermənilərə müqavimət göstərərək təslim olmur. Ermənilər Xocalıda girov götürülən 22 sakini öldürəcəkləri ilə təhdid etdikdən sonra cəsur döyüşçümüz təslim olmağına razılaşır. Qarabağda baş verənlərlə bağlı danışdığı olduqca kədərli, lakin qürur dolu hekayəni dünyaya tanıtmaq qərarına gələn rejissor həmin hadisəni və qəhrəmanın aqibətini aydınlaşdırmaq üçün üç il Azərbaycan, Ermənistan, İtaliya, Böyük Britaniya və Rusiyada şahidlərlə görüşüb, onların müsahibələrini lentə alıb.

Filmin rejissoru ekran əsərində müharibələrin insanların taleyində oynadığı dəhşətli roldan bəhs edir, ailələrin öz əzizlərinin itkisindən və naməlum taleyindən çəkdikləri iztirabları ön plana gətirir.

# Psixoloji yardım sektoru "Ünsiyyətin rahat üsulları" adlı təlim keçirib

*Noyabrın 4-də BDU-nun Psixoloji yardım sektoru "Ünsiyyətin rahat üsulları" adlı təlim keçirib.*

Təlimə Universitetin bütün fakültələrindən tələbələr qatılıb. Əvvəlcə tələbələrin tanışlığı üçün tapşırıqlar verilib və icra olunub. Qeyd edilib ki, ünsiyyət insanların bir-biri ilə qarşılıqlı əlaqədə olduğu, fikirlərini, hisslərini bölüşdüyü əsas insani ehtiyaclardan biridir. Ünsiyyət sadəcə danışmaq və dinləməkdən ibarət deyil. Yaxşı ünsiyyət işdə və şəxsi həyatda uğur üçün vacib amildir.

Təlimdə ünsiyyətdə yaranan çətinliklər ətraflı müzakirə olunub, maneələri aradan qaldırmaq yolları izah edilib. Təlimin praktik hissəsində tələbələr göz təması olmadan ünsiyyət qurmağa çalışıblar və sonda öz təəssuratlarını bölüşüblər.

# BDU tələbələri Şirvan Milli Parkında ceyranları müşahidə ediblər

***Noyabrın 6-da Ekologiya və torpaqşünaslıq fakültəsinin Bioekologiya kafedrasının doktorantı Abdin Abbasovun müşayiəti ilə magistrant və tələbələr Şirvan Milli Parkında olublar.*** Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə tələbələr Milli Park ərazisində ceyranları yaxından izləyib, say prosesində iştirak edib və beynəlxalq təcrübə ilə tanış olublar.



Şirvan Milli Parkında ceyranların müşahidəsi 4 istiqamət üzrə həyata keçirilib. Tələbələr ayrı-ayrı istiqamətlərdə bölünərək yerli və xarici mütəxəssislərlə birlikdə tədqiqatda iştirak ediblər.

Mütəxəssislər tələbələrə ceyranların respublikamızda yaşayış arealı, tarixi dinamikası, populyasiyalarının hazırkı vəziyyəti, çoxaldılaraq digər ərazilərə reintraduksiyası barədə ətraflı məlumat veriblər.

# "Peşəkar təqdimatın əsasları" mövzusunda təlim keçirilib

***Noyabrın 3-də "Paşa Sığorta" ASC Karyera və məzunlarla əlaqə sektoru, Tələbə Həmkarlar İttifaqı Komitəsi ilə birgə tələbələr üçün "Peşəkar təqdimatın əsasları" mövzusunda təlim keçirib.***

Təlimdə BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov sektorun fəaliyyət istiqamətləri haqqında məlumat verib.

Sonra "Paşa Sığorta" ASC-nin əməkdaşı Leyla Cəfərli təqdimatın məqsədi, əsas prinsipləri (sadəlik, eleqantlıq, təbiilik), bu prosesdə təqdim edənin rolu (fasilitator, metodoloq, texnik, motivator, lider, müəllim, mediator, yumorist), uğurlu (təşviqetmə bacarığı, ünsiyyət bacarıqları, problemlərin həll edilməsi, etimad yaradılması) və uğursuz (mövzunu araşdırmamaq, auditoriyanı öyrənməmək, neqativə köklənmək, səs tonu, interaktivliyin olmaması) təqdimatlar haqqında tələbələri məlumatlandırıb.

Təlimin sonunda iştirakçıların sualları cavablandırılıb.

# BDU tələbələri Fəxri xiyabanı və II Şəhidlər xiyabanını ziyarət ediblər



*Noyabrın 4-də Biologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə bir qrup tələbə Fəxri xiyabanı və II Şəhidlər xiyabanını ziyarət edib.*

Onlar Fəxri xiyabanda Ümummilli Lider, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarının önünə gül dəstələri düzüb, xatirəsinə dərin ehtiramlarını bildiriblər. Fəxri xiyabanda torpağa tapşırılmış görkəmli elm, ədəbiyyat, incəsənət, mədəniyyət xadimlərinin də məzarları ziyarət olunub.

Daha sonra tələbələr II Fəxri xiyabanda Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın məzarlarının üzərinə gül dəstələri düzüb, onların əziz xatirələrini ehtiramla yad ediblər.

# Dövlət Məşğulluq Agentliyi tələbələrə "Vaxtın səmərəli idarə edilməsi" mövzusunda təlim keçirib

*Noyabrın 6-da BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun və Dövlət Məşğulluq Agentliyinin (DMA) birgə təşkilatçılığı ilə tələbələr üçün "Vaxtın səmərəli idarə edilməsi" mövzusunda növbəti təlim keçirilib.*

BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov tələbələrin karyera quruculuğu istiqamətində həyata keçirilən işlərdən danışıb. Sektor tərəfindən təşkil edilən belə təlim və infosessiyaların tələbələrin gələcək karyeraları üçün əhəmiyyətli olduğunu bildirib.

DMA-nın Mərkəzi karyera filialının Karyera planlaması şöbəsinin aparıcı mütəxəssisi Aysel İsgəndərova vaxtın səmərəli idarəedilməsinin karyera quruculuğunda önəmi ilə bağlı məlumat verib. Qeyd edib ki, vaxtın səmərəli idarə edilməsi dedikdə, məhdud vaxtda müəyyən fəaliyyətlər arasında optimal planlaşdırma və koordinasiya nəzərdə tutulur.

Təlimdə vaxtın idarə edilməsinin üstünlükləri, əsas prinsipləri, planlaması, faydaları kimi məsələlər müzakirə edilib.

# “Lin-Orph” musiqi klubunun Zəfər Gününə həsr olunmuş konsert proqramı

*Noyabrın 6-da "BDU könüllüləri" təşkilatının "Lin-Orph" musiqi klubunun təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş konsert proqramı təşkil olunub.*



Proqramda könüllülərin ifasında "Azərbaycan", "Laçınım", "Qarabağ", "Cənab leytenant", "Xatirə" kimi musiqi nömrələri səsləndirilib. Zəfər əhval-ruhiyyəli konsert proqramı gənclərin böyük marağına səbəb olub.

Qeyd edək ki, "BDU könüllüləri" təşkilatının "Lin-Orph" musiqi klubu xüsusi istedadı ilə fərqlənən tələbə-gənclərin üzə çıxarılması və tanıdılması məqsədilə fəaliyyət göstərir.

# BDU-nun əsas və 2 saylı tədris binaları dövlət bayrağının rəngləri ilə işıqlandırılıb

*Noyabrın 7-də BDU Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) 8 Noyabr – Zəfər Günü münasibətilə yeni layihə həyata keçirib. Belə ki, BDU THİK-in təşkilatçılığı ilə Universitetin əsas və 2 saylı tədris binaları dövlət bayrağımızın rəngləri ilə işıqlandırılıb.*




Bununla Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun şanlı qələbəsini tariximizə qızıl hərflərlə yazması, üçrəngli bayrağımızı ölkəmizin hər bir qarışında dalğalandırması, suverenliyimizi bərpa etməsi vurğulanıb.

# 17 Noyabr - Milli Dirçəliş Günüdür

***Azərbaycan xalqının azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən Milli Dirçəliş Günü ölkəmizin müstəqilliyinin bərpa olunmasında önəmli və tarixi rol oynayıb.***

Bu tarix Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müdrik siyasəti nəticəsində daha da ələmətdar xarakter alıb. Belə ki, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından “sovet” və “sosialist” sözləri çıxarıldı. Bununla da milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atılmış oldu. Ulu Öndərin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Muxtar Respublikanın dövlət rəmzləri haqqında məsələ müzakirə edildi. Üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Sessiya Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxararaq onun dövlət bayrağı kimi qəbul edilməsi ilə bağlı Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub saxlanmasına xüsusi diqqət yetirir, ölkəmiz dünyada söz və nüfuz sahibi kimi tanınaraq müdafiə qüdrətini daha da artırır.

Artıq üç ildir ki, Milli Dirçəliş Günü Azərbaycanın ərazi bütövlüyü şəraitində qeyd olunur. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində uzun illər düşmən tapdağı altında olan torpaqlarımız azad edildi. 44 gün davam edən Vətən müharibəsi dövründə hər gün yaşayış məntəqələri işğaldan azad olunurdu və həmin torpaqlarda Azərbaycanın şanlı bayrağı ucaldılırdı. Hazırda azad edilmiş bütün torpaqlarımızda bayrağımız əzəmətlə dalğalanır. Artıq üç ildir ki, azad olunmuş bütün ərazilərimiz dirçəlir, Qarabağa və Şərqi Zəngəzura həyat qayıdır. 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz 30 illik işğala son qoymuşdusa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etdi.

Bu il sentyabrın 19-da isə cəmi 24 saatdan da az davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış separatçılar təslim oldu, suverenliyimiz tam təmin olundu. Şanlı qələbəmizin möhtəşəm və məntiqi sonluğu oktyabrın 15-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Ağdərə, Xocalı, Əsgəran və ən əsası isə Xankəndidə üçrəngli bayrağımızı qaldırması oldu. Bununla da Müzəffər Ali Baş Komandan və onun əmrinə daim hazır olan Azərbaycanın qəhrəman oğulları tariximizin ən önəmli səhifəsinə yekun nidanı qoydular.

Xalqımızın həmrəyliyi və dövlət müstəqilliyimiz əbədi olsun! Milli Dirçəliş Gününüz mübarək!

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyində Zəfər Gününə həsr olunmuş tədbir

*Noyabrın 7-də BDU-nun nəzdində “Gənc istedadlar” liseyində 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Liseyin direktoru Arif Bağırov çıxış edərək 44 günlük Vətən müharibəsinin tariximizin ən şanlı səhifəsi olduğunu və yaddaşlardan heç vaxt silinməyəcəyini qeyd edib. Bildirib ki, şanlı Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun şücaəti, xalqımızın birliyi nəticəsində qazanılıb. Zəfər Günü hər bir azərbaycanlı üçün qürur və iftixar günüdür.

Sonra liseyin hərbi müəllimi, Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan polkovnik-leytenant Nihat Abdullayev və Tarix müəllimi Rəna Həsənova çıxış ediblər. Çıxışçılar Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış Zəfər Günü barədə şagirdlərə ətraflı məlumat veriblər. Vətən müharibəsində qabaqcıl hərbi texnologiyalardan məharətlə istifadə edən Azərbaycan Ordusunun dünya hərb tarixində yeni səhifə yazması barədə söhbət açıblar.

Tədbir bədii hissə ilə davam edib. Lisey şagirdləri Zəfər Gününə həsr edilən şeirlər səsləndirib, mahnılar və musiqi kompozisiyaları ifa ediblər.

# Universitetlərarası “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirilib




*Noyabrın 8-də BDU-nun Tələbə Gənclər Təşkilatı tərəfindən Zəfər Gününə həsr edilmiş universitetlərarası “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirilib.*

Yarışda Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Xəzər Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Avrasiya Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Texniki Universiteti, Odlar Yurdu Universiteti və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialından olan 9 komanda iştirak edib. Onlardan Azərbaycan Tibb Universitetinin komandası I, İ. M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının komandası II, Xəzər Universitetinin komandası isə III yerə layiq görülüb.

Qaliblər müxtəlif diplom və sertifikatlarla təltif olunublar.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.11.2023

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08